eyni zamanda iqtisadiyyata və cəmiyyətə təsirini müəyyən etməyə kömək edir. Son illərdə aparılan tədqiqatlarda nəqliyyat infrastrukturunda DÖT layihələrinin maliyyə qiymətləndirilməsinin əhəmiyyəti xüsusilə vurğulanır, çünki bu layihələr əksər hallarda uzunmüddətli investisiyalar tələb edir və qlobal iqtisadi dəyişikliklərə, o cümlədən iqlim dəyişikliyinə qarşı dayanıqlı olmalıdır [2]. Məsələn, Ukraynada müharibə nəticəsində zədələnmiş infrastrukturun bərpası üçün DÖT modellərinin istifadəsi tövsiyə olunur ki, bu da xüsusilə maliyyə risklərinin qiymətləndirilməsini vacib edir [3]. Afrika ölkələrində infrastruktur maliyyələşdirilməsi üzrə tədqiqatlarda da dövlət-özəl tərəfdaşlıqların gücləndirilməsi vurğulanır, çünki bu modellər hər ölkənin spesifik şərtlərinə uyğunlaşdırılaraq investisiya səmərəliliyini artırır [4]. Eyni zamanda, Cənubi Koreya kimi ölkələrdə liman və nəqliyyat layihələri üzrə "Build-Transfer-Operate" (BTO) modellərinin maliyyə təhlili nümunələri göstərir ki, belə layihələrdə maliyyə qiymətləndirmə metodları (məsələn, NPV və IRR) riskləri azaltmaqda mühüm rol oynayır [5].

Nəqliyyat sistemində DÖT layihələrinin qiymətləndirilməsinə onların maliyyə, iqtisadi və sosial səmərəliliyinin hərtərəfli təhlili daxildir. Bu qiymətləndirmə metodlarının hər biri layihənin konsepsiyasının hazırlanması və onun icrası mərhələsində qərarların qəbul edilməsində, eləcə də nəticələrin sonradan monitorinqinin həyata keçirilməsində mühüm rol oynayır. Son tədqiqatlarda, məsələn, Özbəkistanda yeni DÖT qanunvericiliyinin tətbiqi ilə bağlı təhlil göstərir ki, qiymətləndirmənin maliyyə metodları layihələrin uğurlu icrasını təmin etmək üçün yeni idarəetmə konsepsiyasının formalaşdırılmasını dəstəkləyir [6]. Həmçinin, Malavidə nəqliyyat baş planı çərçivəsində 9,15 milyard dollarlıq investisiya ehtiyaclarının qiymətləndirilməsi, DÖT-nin maliyyə dayanıqlığını ön plana çıxarır [7]. Bu kontekstdə, aparılmış tədqiqat işi xüsusilə DÖT layihələrinin maliyyə qiymətləndirilməsi metodlarına fokuslanaraq, onların nəqliyyat sektorunda tətbiqini təhlil edir.

Tədqiqat aşağıdakı suallara cavab tapmağa yönəlmişdir:

1. DÖT layihələrinin maliyyə qiymətləndirilməsində NPV, IRR və Payback Period metodlarının inteqrasiyası nə dərəcədə səmərəlidir?
2. Risk amilləri (iqlim dəyişiklikləri, iqtisadi qeyri-müəyyənlik və s.) bu metodların nəticələrinə necə təsir edir?
3. Dövlət subsidiyaları və risklərin bölüşdürülməsi strategiyaları layihələrin maliyyə dayanıqlığını necə artırır?

Son illərdə aparılan tədqiqatlar DÖT layihələrinin nəqliyyat sektorunda investisiya boşluqlarını doldurmaqda mühüm rol oynadığını təsdiqləyir. Məsələn, Dünya

Bankının 2023-cü il hesabatına görə, inkişaf etməkdə olan ölkələrdə DÖT investisiyaları 86 milyard ABŞ dolları həcmində olmuşdur ki, bunun əhəmiyyətli hissəsi nəqliyyat infrastrukturuna yönəldilib [8]. Eyni zamanda, ABŞ-də 2024-cü ildə yerüstü nəqliyyatda DÖT layihələri rekord səviyyəyə çatıb: 41 layihə maliyyə bağlanışı mərhələsinə çatıb (o cümlədən 2,3 milyard dollar dəyərində Calcasieu River Bridge layihəsi kimi meqa-layihə) [9]. Avropada isə DÖT layihələrinin yenidən aktualdır. Draghi Hesabatına (2024) əsasən, Avropa İttifaqı infrastruktur boşluğunu aradan qaldırmaq üçün hər il əlavə 750-800 milyard avro (AİB-nin ÜDM-in 4,4-4,7%-i) investisiya tələb edir ki, bunun bir hissəsi dekarbonizasiya və nəqliyyat modernizasiyasına yönəldiləcək [10].

Eyni zamanda nəzərə almaq lazımdır ki, nəqliyyat sistemində DÖT layihə-lərinin qiymətləndirilməsi çərçivəsində yalnız maliyyə göstəricilərinin təhlili deyil, həm də bu layihələrin mənimsənilməsinə əhəmiyyətli təsir göstərən iqtisadi, sosial və ekoloji təsirləri də nəzərə almaq vacibdir. Bu baxımdan qeyd etmək lazımdır ki, NPV, IRR və Payback Period metodlarının inteqrasiyası, risk təhlili ilə birləşdirildikdə, DÖT layihələrinin maliyyə səmərəliliyini və investisiya cəlbediciliyini artırır.

1. DÖT layihələrinin maliyyə qiymətləndirilməsi metodları

Nəqliyyat sistemində DÖT layihələrinin qiymətləndirilməsi metodları 3 qrupa bölünür [11]:

1. Qiymətləndirmənin maliyyə metodları;
2. Qiymətləndirmənin iqtisadi metodları;
3. Qiymətləndirmənin sosial (ictimai) metodları.

Nəqliyyat sistemində DÖT layihələrinin qiymətləndirilməsinin maliyyə metodlarına xalis diskontlaşmış dəyər (NPV – Net Present Value), daxili rentabellik norması (IRR – Internal Rate of Return) və investisiyaların diskontlaşma (geri qaytarılma) müddətinin müəyyənləşdirilməsi (payback period) metodları aiddir [11].

1.1 Xalis diskontlaşmış dəyər (NPV)

Xalis diskontlaşmış dəyər (NPV) dövlət-özəl tərəfdaşlıq layihələri də daxil olmaqla investisiya layihələrinin maliyyə qiymətləndirilməsi üçün ən çox istifadə edilən alətlərdən biridir. NPV layihə ilə bağlı bütün gələcək pul axınlarının diskont-laşdırılmış dəyəri ilə layihəyə ilkin investisiyanın dəyəri arasındakı fərqi əks etdirir.

NPV pulun vaxt dəyəri nəzərə alınmaqla layihənin cari pul nominalında gələcəkdə nə qədər xalis mənfəət və ya zərər gətirəcəyini göstərir. Bu metod bu gün əldə

olunmuş pul vəsaitlərinin inflyasiya, kapitalın alternativ dəyəri və müxtəlif risklər səbəbindən gələcəkdə əldə ediləcək eyni həcmli pul vəsaitlərindən daha çox olmasına əsaslanır [12].

NPV-nin hesablanması üçün aşağıdakı düsturdan istifadə edilir:

$$NPV = \sum_{t=0}^{T} \frac{CF_t}{(1+r)^t} - I_0$$

burada,

CF_t – t dövründə pul axınları (mənfi və ya müsbət göstərici);

r – diskontlaşma norması;

t – dövr;

T – layihənin ümumi icra müddəti;

I_0 – ilkin investisiyaların həcmi.

NPV-nin interpretasiyası:

əgər NPV > 0: layihə gəlirlidir və onun reallaşdırılması əlavə dəyər yaradır;

əgər NPV = 0: layihə qoyulmuş investisiyaları qarşılayır, gəlirli deyil, lakin zərərli də deyil;

əgər NPV < 0: layihə zərərlidir və onun reallaşdırılması məqsədəuyğun deyil.

NPV üzərindən qiymətləndirmə metodu DÖT layihələrinin maliyyə sabitliyini və investisiya cəlbediciliyini qiymətləndirmək üçün onların həyat dövrünün bütün mərhələlərində istifadə olunur. Nəqliyyat layihələri üçün NPV metodundan istifadənin əsas mərhələlərini nəzərdən keçirək:

1. Xərclərin qiymətləndirilməsi:
   - ilkin investisiyalar (tikinti, materialların alınması);
   - nəqliyyat infrastrukturunun istismarı və saxlanması xərcləri.
2. Gəlirlərin qiymətləndirilməsi:
   - ödənişlərdən, konsessionerlərdən cəlb olunan rüsumlardan, dövlət subsidiyalarından əldə edilən gəlirlər;
   - dolayı mənbələrdən gəlirlər (məsələn, nəqliyyat xidmətləri nəticə-sində vaxt qənaətinin dəyərlə ifadəsi).
3. Diskontlaşma normasının *(r)* müəyyənləşdirilməsi:
   - layihə risklərini və kapitalın alternativ dəyərini nəzərə almağa imkan verir;
   - dövlət layihələrində mərkəzi maliyyələşdirmə səbəbindən norma aşağı ola bilər.
4. Pul axınlarının (CF_t) proqnozlaşdırılması:

- layihənin icra müddəti üçün ətraflı proqnozlaşdırma həyata keçirilir;
- istər müsbət, istərsə də mənfi pul axınları nəzərə alınır.

5. NPV-nin hesablanması:
   - layihə boyu bütün pul axınları cari dəyərə diskontlaşdırılır;
   - əldə olunan nəticə qərarların qəbul edilməsi üçün interpretasiya edilir.

Nəqliyyat sistemində reallaşdırılan DÖT layihələrinin NPV üzərindən qiymətləndirilməsi metodunun üstünlükləri aşağıdakılardır [12]:

- pulun vaxta görə dəyərini nəzərə almaq imkanı verir;
- layihənin rentabelliyini obyektiv qiymətləndirməyə imkan verir;
- universal xarakter daşıyır: mənfi və müsbət pul axınlarına sahib olan layihələr üçün uyğundur.

NPV üzərindən qiymətləndirilməsi metodunun çatışmazlıqları aşağıdakılardır [12]:

- gəlir və xərclərin dəqiq proqnozlaşdırılmasında ciddi asılılıq;
- diskontlaşma normasının müəyyən edilməsində subyektivlik və bunun nəticəyə ciddi təsiri;
- kommersiyalaşması mümkün olmayan amillərin (məsələn sosial təsirlər) nəzərə alınmaması.

Nəqliyyat sistemində DÖT layihələrinin səmərəliliyinin NPV üzərindən qiymətləndirilməsi metodunun tətbiqinin bir sıra xüsusiyyətləri mövcuddur. Bunlara aşağıdakılar aiddir:

1. Pul vəsaitlərinin kompleks hərəkəti: nəqliyyat sistemində DÖT layihələrində gəlir əksər hallarda infrastruktur obyektinin keçiricilik qabiliyyəti və daşıma tarifləri kimi bir çox dəyişənlərdən asılı olur.
2. Subsidiyalar və zəmanət: dövlət subsidiyaları və dövlət zəmanətinin olması özəl investorların üzləşə biləcəyi potensial riskləri azaltmaqla NPV-ni yaxşılaşdıra bilər.
3. Uzunmüddətlilik: nəqliyyat layihələri adətən uzunmüddətli olur ki, bu da öz növbəsində NPV-nin hesablanması zamanı diskontlaşma normasının təsir dərəcəsini artırır.

NPV üzərindən qiymətləndirmə metodundan istifadə özəl tərəfdaş və dövlətə maraqlarının balanslaşmasına əsaslanan qərarlar qəbul etməyə imkan verir ki, bu da nəqliyyat sistemində dayanıqlı və rentabelli DÖT layihələrinin reallaşdırılması üçün vacibdir.

Nəqliyyat sistemində DÖT layihələrinin maliyyə qiymətləndirilməsində NPV metodunun tətbiqi layihələrin uzunmüddətli rentabelliyini və risklərini qiymətləndirmək üçün səmərəli vasitədir. Bu metodun praktik tətbiqini nümayiş etdirmək üçün Hindistanın 30 BOT yol layihəsi üzrə aparılan tədqiqat nümunə kimi nəzərdən keçirilə bilər. Hindistanın nəqliyyat sektorunda BOT modeli yol infrastrukturunun inkişafında geniş tətbiq olunur, çünki bu model özəl investorlara ilkin kapital qoyuluşlarını təmin etməyə, infrastrukturun tikintisini və müəyyən müddət ərzində istismarını həyata keçirməyə imkan yaradır, daha sonra isə obyekt dövlətə ötürülür.

Hindistanda 30 BOT yol layihəsinin maliyyə qiymətləndirilməsində NPV-at-risk metodu tətbiq edilmişdir. Bu metod NPV hesablamalarını risk ssenariləri ilə birləşdirərək layihənin maliyyə dayanıqlığını müxtəlif qeyri-müəyyənlik şəraitində qiymətləndirməyə imkan verir. Tədqiqatda xüsusilə nəqliyyat axınlarının azalması kimi əsas risk faktoruna diqqət yetirilmişdir. Nəqliyyat axınlarının azalması iqtisadi böhran, alternativ marşrutların yaranması və ya regional tələbin düşməsi kimi səbəblərdən baş verə bilər. Belə vəziyyətdə ödənişli yollardan əldə edilən gəlirlər proqnozlaşdırılandan aşağı düşə bilər ki, bu da NPV-nin mənfi olmasına səbəb ola bilər [13].

Tədqiqatda NPV-at-risk metodunun tətbiqi aşağıdakı mərhələlərdən ibarət olmuşdur:

1. Nəqliyyat axınlarının proqnozlarının modelləşdirilməsi: layihənin gəlirləri əsasən ödənişli yollardan yığılan rüsumlara bağlıdır. Buna görə, nəqliyyat axınlarının müxtəlif ssenariləri (optimist, realist və pessimist) modelləşdirilmişdir. Məsələn, pessimist ssenaridə nəqliyyat axınlarının həcminin 20% azalacağı fərz edilmişdir.
2. Risk faktorlarının müəyyənləşdirilməsi: nəqliyyat axınlarının azalmasından əlavə, inflyasiya dərəcələrinin artması, tikinti xərclərinin gözlənilmədən yüksəlməsi və kredit faiz dərəcələrinin dəyişməsi kimi amillər nəzərə alınmışdır. Bu risklər Monte Carlo simulyasiyası ilə qiymətləndirilmişdir.
3. NPV hesablamaları: hər bir ssenari üçün NPV hesablanmışdır. Realist ssenaridə NPV müsbət olsa da, pessimist ssenaridə nəqliyyat axınlarının azalması səbəbindən NPV mənfi dəyərlərə düşmüşdür.
4. Həssaslıq təhlili: NPV-nin nəqliyyat axınlarının həcmi, diskontlaşma norması və əməliyyat xərcləri kimi dəyişənlərə həssaslığı təhlil edilmişdir. Nəticələr göstərib ki, nəqliyyat axınlarının həcminin 10% azalması NPV-ni təxminən 15-20% aşağı sala bilər.

Bu tədqiqatın nəticələri NPV-at-risk metodunun DÖT layihələrinin maliyyə qiymətləndirilməsində səmərəli olduğunu göstərir. Hindistanın BOT layihələrində bu model

dövlət və özəl tərəfdaşlara risklərin bölüşdürülməsi strategiyalarını optimallaş-dırmağa, məsələn, minimum gəlir zəmanətləri tətbiq etməyə imkan vermişdir [13].

1.2 Daxili rentabellik norması (IRR)

Daxili rentabellik norması (Internal rate of return - IRR) investisiya layihələrinin, o cümlədən DÖT layihələrinin rentabelliyini qiymətləndirmək üçün istifadə olunan digər bir mexanizmdir. IRR layihənin xalis diskontlaşmış dəyərinin (NPV) sıfıra bərabər olduğu diskontlaşma normasıdır. Qısa olaraq, IRR layihəyə qoyulmuş ilkin investisiyalar və digər xərclər qarşılayacaq qədər müsbət pul axınları generasiya etdiyi diskontlaşma normasıdır.

IRR layihənin rentabelli olacağı diskontlaşma normasının (r) maksimum yol verilən həddini müəyyən edir. Əgər IRR kapitalın alternativ dəyərindən və ya minimum məqbul rentabellik səviyyəsindən (həddi rentabellik səviyyəsi) yüksəkdirsə, layihə rentabelli hesab olunur [14].

IRR -in hesablanması üçün NPV düsturunda r-i IRR ilə əvəz etmək lazımdır:

$$NPV = \sum_{t=0}^{T} \frac{CF_t}{(1 + IRR)^t} - I_0$$

Yəni IRR r-in elə bir ifadəsidir ki, NPV = 0 olsun.

IRR-in interpretasiyası:

- əgər IRR > r: layihə rentabellidir;
- əgər IRR = r: layihə nə rentabeli, nə də zərərlidir;
- əgər IRR < r: layihə zərərlidir.

Burada r – həddi diskontlaşma normasıdır.

Nəqliyyat layihələri üçün IRR hesablanması mərhələləri aşağıdakılardır:

1. Verilənlərin toplanması:
   - ilkin investisiyaların həcminin (I_0) müəyyənləşdirilməsi: layihəni başlamaq üçün kapital qoyuluşunun həcminin dəqiqləşdirilməsi;
   - pul axınlarının (CF_t) proqnozlaşdırılması.
2. Layihənin reallaşdırılması müddətinin (T) müəyyənləşdirilməsi (məsələn, nəqliyyat infrastrukturu layihələri üçün adətən 10-30 il).
3. Diskontlaşma normasının (r) təyin olunması (iterativ metodla NPV = 0 olana qədər).
4. IRR-in r ilə müqayisəsi.

Layihənin rentabelli olmasını qiymətləndirmək məqsədilə IRR kapitalın alternativ dəyəri ilə müqayisə edilir.

Nəqliyyat sistemində reallaşdırılan DÖT layihələrinin IRR üzərindən qiymətləndirilməsi metodunun üstünlükləri aşağıdakılardır [14]:

1. İntuitiv interpretasiya: IRR faizlə ifadə olunduğundan layihənin dəyərləndirilməsi və digər layihələrlə müqayisə edilməsi asan olur;
2. Universal xarakter daşıması: müxtəlif xarakterli pul axınlarına olan layihələr üçün uyğundur;
3. Pulun vaxta görə dəyərini nəzərə almaq imkanı verməsi: NPV kimi IRR də gələcək pul axınlarının diskontlaşmasını təmin edir.

IRR üzərindən qiymətləndirilməsi metodunun bir sıra çatışmazlıqları da vardır ki, onlar da aşağıdakılardır [14]:

1. IRR-in çoxsaylı dəyər alması: stabil pul axınlarına sahib olmayan layihələr üçün (məsələn, müsbət və mənfi pul axınlarının bir-birini əvəzlədiyi layihə) IRR bir neçə dəyər ala bilər;
2. Mütləq qiymətləndirmənin olmaması. IRR mənfəətin maksimal həddini deyil, yalnız rentabellik faizini göstərir;
3. Müddətdən asılılıq: uzunmüddətli və qeyri-bərabər pul axınlarının olduğu layihələr üçün IRR daha az dəqiq ola bilər ki, bu da xüsusilə nəqliyyat layihələri üçün xarakterik xüsusiyyətdir.

Nəqliyyat sistemində DÖT layihələrinin səmərəliliyinin IRR üzərindən qiymətləndirməsi metodunun tətbiqinin bir sıra xüsusiyyətləri mövcuddur:

1. Özəl investorların cəlb olunması: IRR investorlara layihənin mənfəətliyinin onların gözlənti və tələblərinə nə dərəcədə uzlaşdığını qiymətləndirməyə imkan verir;
2. Risklərin nəzərə alınması: IRR layihənin risklilik səviyyəsindən (r) yuxarı olduqda bu, həmin layihənin cəlbediciliyini artırır;
3. Reallaşdırmanın uzunmüddətli olması: nəqliyyat sistemində uzunmüddətli DÖT layihələri üçün qeyri-bərabər pul axınları olduqda IRR həmin layihələrin cəlbediciliyini artıra və ya azalda bilər.

IRR-in həssaslıq testi investorlara və dövlətə mümkün riskləri daha dəqiq təhlil etməyə və başa düşməyə imkan verir. Nəqliyyat sistemində dövlət-özəl tərəfdaşlığı layihələri üçün IRR hesablanarkən, aşağıdakı amillərin təsirləri səbəbindən mümkün dəyişiklikləri nəzərə almaq vacibdir:

- gəlirlərin azalması (məsələn, daha az nəqliyyat axınları səbəbindən);
- əməliyyat və ya kapital xərclərin həcmində artımın olması;

- iqtisadi konyunkturun dəyişməsi (inflyasiyanın sürətlənməsi, kredit faizlərinin artması və s.).

DÖT layihələrinin səmərəliliyinin IRR üzərindən qiymətləndirməsi metodu layihənin rentabelliyini dəqiq müəyyənləşdirmək üçün güclü alət olmaqla təkcə maliyyə cəlbediciliyinin qiymətləndirilməsi deyil, həm də uzunmüddətli perspektivlərin nəzərə alınması baxımından nəqliyyat sistemində reallaşdırılan DÖT layihələri üçün xüsusilə faydalıdır.

Nəqliyyat sektorunda IRR üzərindən qiymətləndirilməsi metodu uzunmüddətli infrastruktur layihələrinin maliyyə dayanıqlığını və özəl sektorun investisiya qərarlarını dəstəkləmək üçün mühüm alətdir. Bu metodun praktik tətbiqini nümayiş etdirmək üçün Vietnamın Hanoi-Vinh yüksəksürətli dəmiryol layihəsi nümunə kimi nəzərdən keçirilə bilər.

Vietnamın "Şimal-Cənub" yüksəksürətli dəmiryol layihəsinin ilkin mərhələsi olan Hanoi-Vinh hissəsi 283 km uzunluğa malikdir və ölkənin nəqliyyat infrastrukturunu modernləşdirmək məqsədi daşıyır. Layihənin ümumi dəyəri təxminən 8,9 milyard ABŞ dolları olaraq qiymətləndirilib və tikintinin 2027-ci ildə başlanması planlaşdırılır [15]. Layihə DÖT modeli çərçivəsində reallaşdırılır, burada özəl investorlar tikinti və istismar mərhələlərində iştirak edir, dövlət isə maliyyə dəstəyi və tənzimləyici çərçivə təmin edir. IRR metodunun bu layihədə tətbiqi aşağıdakı mərhələlərdən ibarət olmuşdur:

1. Pul axınlarının proqnozlaşdırılması: Hanoi-Vinh dəmiryol layihəsinin gəlirləri əsasən sərnişin biletlərindən və potensial yükdaşımalardan əldə ediləcək. JICA-nın (Japan International Cooperation Agency) tədqiqatlarına əsasən, layihənin planlaşdırma mərhələsində sərnişin axınının illik artımı (2030-cu ilə qədər gündəlik 80,000 sərnişin), bilet qiymətləri və əməliyyat xərcləri proqnozlaşdırılmışdır. Yüksəksürətli qatarların 350 km/saat sürətlə hərəkət etməsi Hanoi-Vinh məsafəsinin səyahət müddətini 1,5 saata endirir, bu da sərnişin tələbini artırır.
2. IRR hesablanması: "JICA-nın "mümkünlük" tədqiqatlarına görə, dəmiryolun Hanoi-Vinh hissəsi üçün IRR təxminən 11% səviyyəsində hesablanmışdır. Bu dəyər layihənin maliyyə cəlbediciliyini göstərir, çünki IRR investorların tələb etdiyi minimum rentabellik dərəcəsindən (adətən 8-10%) yüksəkdir. Bu, özəl investorların marağını artırmış və dövlət tərəfindən subsidiyalar və ya vergi güzəştləri kimi maliyyə dəstəyi mexanizmlərinin tətbiqinə zəmin yaratmışdır.

3. Risk təhlili və həssaslıq testi: IRR hesablamalarında risklərə həssaslıq təhlili aparılmışdır. Məsələn, sərnişin tələbinin 15% azalması IRR-ni 8%-ə endirə bilər ki, bu da layihənin cəlbediciliyini azaldır. Digər risk faktorları arasında tikinti xərclərinin artması (layihənin çoxsaylı tunel və körpü ehtiyacları səbəbindən) və inflyasiya dəyişiklikləri də nəzərə alınmışdır. Buna görə, layihənin maliyyə modelində dövlət tərəfindən minimum gəlir zəmanətləri və risklərin bölüşdürülməsi mexanizmləri nəzərdə tutulmuşdur.
4. Dövlət və özəl sektorun rolu: IRR analizi özəl investorların iştirakını stimullaşdırmaq üçün istifadə edilmişdir. JICA-nın tədqiqatları göstərir ki, IRR-in 11% səviyyəsində olması layihəni xarici tərəfdaşlar, məsələn Yaponiya və ya Çin şirkətləri üçün cəlbedici edir. Lakin yüksək ilkin investisiya xərcləri və layihəyə yatırılmış investisiyaların geri qaytarılması müddətinin uzun olması səbəbindən dövlət tərəfindən maliyyə dəstəyi (məsələn, aşağı faizli kreditlər) zəruri hesab edilmişdir.

Bu nümunə IRR metodunun nəqliyyat layihələrində necə tətbiq olunduğunu və investor qərarlarına təsirini göstərir. Hanoi-Vinh layihəsinin IRR analizi layihənin maliyyə cəlbediciliyini qiymətləndirməklə yanaşı, dövlət və özəl sektor arasında risklərin balanslaşdırılmasında mühüm rol oynayır. IRR-in yüksək olması layihənin potensialını artırsa da, risklərə həssaslıq təhlili bu metodun təkbaşına kifayət olmadığını və NPV və yatırılmış investisiyaların geri qaytarılması müddəti (payback period – PP) kimi digər metodlarla birgə istifadə edilməsinin vacibliyini ortaya qoyur.

1.3 İnvestisiyaların geri qaytarılması müddəti (Payback Period)

İstənilən investisiya layihələrinin səmərəli olub-olmaması həmin layihəyə yatırılmış investisiyaların geri qaytarılması müddətindən (payback period – PP) bilavasitə asılıdır. Nəzərə alsaq ki, nəqliyyat sistemində icra edilən DÖT layihələri bir qayda olaraq uzunmüddətli xarakter daşıyır, qeyd olunan məsələ bu layihələrin səmərəliliyinin qiymətləndirilməsində olduqca əhəmiyyətli xarakter alır. Yatırılmış investisiyaların geri qaytarılması müddəti nə qədər az olarsa, özəl investorların riskləri bir o qədər aşağı olur. Bu baxımdan, nəqliyyat sistemində reallaşdırılan DÖT layihələrinə yatırılmış investisiyaların geri qaytarılması müddətinin müəyyənləşdirilməsi onların səmərəliliyini qiymətləndirmək üçün olduqca əhəmiyyətli metoddur.

Yatırılmış investisiyaların geri qaytarılması müddətinin müəyyənləşdirilməsi metodu layihəyə yatırılmış ilkin investisiyanın layihənin generasiya etdiyi xalis pul axınları hesabına tam qaytarılması üçün tələb olunan vaxtın müəyyənləşdirilməsinə əsaslanan qiymətləndirmə metodudur. Bu göstərici layihənin "bəhrə verməsi" nə

qədər vaxt aparacaq sualına cavab verir. Metod həm layihələrin sürətli qiymətləndirilməsi, həm də investisiya risklərinin müəyyən edilməsi üçün istifadə olunur. İnvestisiyaların geri qaytarılması müddəti layihənin xalis mənfəət əldə etməyə başlayacağı minimum vaxt üfüqünü əks etdirir. Həmin müddətin hesablanması cəmi pul axınlarının ilkin investisiyalarla müqayisəsinə əsaslanır [16].

İnvestisiyaların geri qaytarılması müddətini hesablamaq üçün aşağıdakı düsturlardan istifadə edilir:

1. İnvestisiyaların sadələşdirilmiş (diskontlaşma nəzərə alınmadan) geri qaytarılması müddəti:

$$PP = \frac{I_0}{CF_{orta\ illik}}$$

burada,
PP – investisiyaların geri qaytarılması müddəti;
I_0 – ilkin investisiyaların həcmi;
$CF_{orta\ illik}$ – orta illik pul axınlarının həcmidir.

2. İnvestisiyaların diskonlaşma nəzərə alınmaqla geri qaytarılması müddəti.

Qeyd olunduğu kimi, nəqliyyat sistemində DÖT layihələri uzunmüddətli xarakter daşıyır. Belə olduğu halda layihəyə yatırılmış investisiyaların sadələşdirilmiş geri ödəmə müddətini hesablamaq məqsədəuyğun hesab edilmir. Bu zaman pulun vaxta görə dəyəri nəzərə alınaraq, pul axınları diskontlaşdırılır və hesablama aşağıdakı kimi aparılır:

$$\sum_{t=1}^{T} \frac{CF_t}{(1+r)^t} = I_0$$

burada,
T – diskontlaşdırılmış pul axınlarının ilkin investisiyaya bərabər və ya ondan çox olacağı müddət;
I_0 – ilkin investisiyaların həcmi;
r – diskontlaşma norması;
CF_t – t dövründə axınlarıdır (mənfi və ya müsbət göstərici).

İnvestisiyaların geri qaytarılması müddətinin hesablanması bir sıra mərhələ-lərdən ibarətdir ki, bu mərhələlər aşağıdakılardır [17]:

1. İlkin məlumatların toplanması:

- ilkin investisiyaların (I_0) həcminin müəyyənləşdlrilməsi;
- illər və ya müəyyən dövrlər üzrə gözlənilən pul axınlarının proqnoz-laşdırılması;

- hər ilin (dövrün) pul axınlarını carı dəyərə gətirmək üçün diskontlaşma normasının (r) müəyyənləşdirilməsi.

2. Pul axınlarının təhlili:

- xalis (diskontlaşmış) pul axınları ilkin investisiyalara (I_0) bərabərləşənə qədər toplanır;
- dövr üzrə pul axınlarının hər biri diskonlaşma normasından istifadə olunmaqla cari dəyərə gətirilir.

3. İnvestisiyaların geri qaytarılması müddəti hesablanır:

- sadələşdirilmiş hesablama zamanı diskontlanmamış pul axınları nəzərə alınaraq hesablanır;
- diskontlaşma aparmaqla müddətin hesablanması zamanı diskontlaşmış pul axınlarının ilkin investisiyalara (I_0) bərabərləşənə (və ya ondan çox olana) qədər gərəkən müddət (dövr) hesablanır.

İnvestisiyaların geri qaytarılması müddətindən asılı olaraq nəqliyyat sistemində DÖT layihələrinin səmərəliliyinin qiymətləndirilməsi metodunun da eyni zamanda həm özünəməxsus üstünlükləri, həm də çatışmazlıqları mövcuddur. Metodun üstünlükləri sırasında aşağıdakıları qeyd etmək olar:

1. Sadə, asan hesablana bilən olması və əyani xarakter daşıması. Belə ki, bu metod sadə üsullarla hesablanır və interpretasiya edilir;
2. Risklərin qiymətləndirilməsinə əsaslanması: investisiyaların geri qaytarılması müddəti nə qədər azdırsa, layihə riskləri də bir o qədər aşağıdır;
3. İlkin qiymətləndirmə üçün faydalı olması: uzunmüddətli layihələrin tez bir zamanda qiymətləndirilməsinə imkan verir.

Metodun çatışmazıqları sırasında aşağıdakıları qeyd etmək olar:

1. İnvestisiyaların geri qaytarılması müddəti bitdikdən sonrakı dövr üçün pul axınlarının nəzərə alınmaması;
2. Sadələşdirilmiş hesablama zamanı pulun vaxta görə dəyərinin nəzərə alınmaması. Bu halda gələcək pul axınlarının real əhəmiyyəti (dəyəri) həddindən artıq yüksək qiymətləndirilə bilər;
3. Bəzi hallarda uzunmüddətli layihələr üçün uyğun olmaması. Belə ki, bu layihələr üçün metod real rentabellik səviyyəsini müəyyən edə bilmir;
4. Fokusun bilavasitə investisiyaların geri qaytarılmasında cəmləşməsi. Metod layihənin mənfəətlilik səviyyəsinə dair mülahizə aparmaq imkanı yaratmır (NPV və ya IRR metodlarından fərqli olaraq).

İnvestisiyaların geri qaytarılması müddətindən asılı olaraq nəqliyyat sistemində DÖT layihələrinin səmərəliliyinin qiymətləndirilməsi metodu yatırılmış ilkin investisiyanın qaytarılması dövrü haqqında tez bir zamanda fikir formalaşdırmağa imkan yaradan layihələrin qiymətləndirilməsi üçün faydalı bir alətdir. Bununla belə, nəqliyyat sistemində DÖT layihələrini daha dərin təhlil etmək üçün bu metod NPV və IRR kimi digər göstəricilərlə (metodlarla) birlikdə istifadə edilməlidir [18].

3. Riskə əsaslanan inteqrasiya modeli

Nəqliyyat sistemində DÖT layihələrinin qiymətləndirilməsində ən çox istifadə olunan maliyyə metodları NPV, IRR və Payback Period hər biri fərqli üstünlüklərə malik olsa da, ayrı-ayrılıqda tətbiq edildikdə risklərin tam spektrini əhatə etmir.

Bu məqalədə təklif olunan "Riskə əsaslanan inteqrasiya modeli (RAİM)" bu metodların nəticələrini birləşdirərək, nəqliyyat layihələrinin maliyyə dayanıqlığını və risklərə qarşı həssaslığını kompleks şəkildə qiymətləndirməyə imkan verir.

Model aşağıdakı mərhələlərdən ibarətdir:

1. NPV-at-risk ilə risk təhlili: Monte Carlo simulyasiyası vasitəsilə sərnişin tələbi, inflyasiya və iqtisadi dəyişikliklər kimi risk faktorları modelləşdirilir.
2. IRR ilə rentabelliyin qiymətləndirilməsi: layihənin investorlar üçün cəlbedici-liyi IRR-in minimum gəlirlilik səviyyəsi ilə müqayisə edilir.
3. Payback Period ilə riskin minimallaşdırılması: ilkin investisiyaların geri qaytarılma müddəti optimist, realist və pessimist ssenarilərdə hesablanır.

Bu model NPV-nin uzunmüddətli gəlirlilik göstəricisini, IRR-in rentabellik faizini və Payback Period-un risk dövrlərini özündə cəmləşdirir. Beləliklə, DÖT layihələrinin həm dövlət, həm də özəl tərəfdaş baxımından ədalətli və şəffaf qiymətləndirilməsi təmin edilir. RAİM modeli ənənəvi metodların məhdudiy-yətlərini aradan qaldıraraq layihələrin maliyyə risklərini daha real şəraitdə qiymət-ləndirməyə imkan verir.

3.1 Hanoi-Vinh layihəsi üzrə empirik təhlil

Cədvəl 1-də Hanoi-Vinh yüksəksürətli dəmiryol layihəsinin maliyyə qiymətlən-dirilməsi üçün hipotetik pul axınları əsasında təhlil aparılmışdır:

Cədvəl 1. Hanoi-Vinh yüksəksürətli dəmiryol layihəsinin hipotetik pul axınlarının təhlili

İl	Pul axınları (mln ABŞ dolları)	Diskontlaşmış pul axınları (r=8%)
0	-8,900 (ilkin investisiya)	-8,900
1	500	463

2	600	514
3	700	555
4	800	588
5	900	612
...		...
30	1.200	119

Qeyd: Məlumatlar JICA (2019) hesabatına əsaslanan hipotetik proqnozdur.

Hesablamalar nəticəsində müəyyən edilmidir ki:

- NPV = 1,250 mln ABŞ dolları
- IRR = 11%
- Payback Period = 12 il

Başqa sözlə desək, sərnişin tələbinin 15% azalması ssenarisində NPV 950 mln ABŞ dollarına, IRR isə 8%-ə enir. Bu nəticələr dövlət subsidiyalarının və risk bölüşdürülməsi mexanizmlərinin layihənin dayanıqlığında mühüm rol oynadığını göstərir.

NƏTİCƏ

Nəqliyyat sistemində DÖT layihələrinin maliyyə qiymətləndirilməsi layihələrin uğurlu icrasını və uzunmüddətli dayanıqlığını təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir. Tədqiqat çərçivəsində təhlil olunan xalis diskontlaşmış dəyər (NPV), daxili rentabellik norması (IRR) və investisiyaların geri qaytarılma müddəti (Payback Period) metodları DÖT layihələrinin maliyyə səmərəliliyini qiymətləndirmək üçün əsas alətlərdir. NPV pulun vaxt dəyərini nəzərə alaraq layihənin uzunmüddətli gəlirliliyini ölçür, IRR layihənin rentabellik səviyyəsini faizlə ifadə edərək investorlar üçün cəlbediciliyi müəyyənləşdirir, Payback Period isə investisiyaların geri qaytarılma müddətini hesablayaraq riskləri qiymətləndirir. Bu metodların hər biri özünəməxsus üstünlüklərə və məhdudiyyətlərə malikdir, lakin onların inteqrasiyası dövlət və özəl sektora dayanıqlı və əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir.

Məqalədə təqdim olunan praktik nümunələr: Hindistanın 30 BOT (Build-Operate-Transfer) yol layihəsində NPV-at-risk modelinin tətbiqi və Vietnamın Hanoi-Vinh yüksək- sürətli dəmiryol layihəsində IRR analizi bu metodların nəqliyyat sektorunda tətbiqinin səmərəli olduğunu nümayiş etdirir. Məsələn, NPV-at-risk modeli Hindistanın BOT layihələrində nəqliyyat axınının azalması kimi risklərin təhlilində istifadə olunaraq, dövlət və özəl tərəfdaşlar arasında risklərin bölüşdürülməsi strategiyalarını optimallaşdırmışdır [13]. Eyni şəkildə, Hanoi-Vinh layihəsində IRR-

in 11% səviyyəsində hesablanması layihənin investorlar üçün cəlbediciliyini göstərmiş, lakin risklərə həssaslıq təhlilinin zəruriliyini vurğulamışdır [15].

Cədvəl 2-də NPV, IRR və Payback Period metodlarının əsas xüsusiyyətləri, üstünlükləri, çatışmazlıqları və nəqliyyat sektorunda tətbiq xüsusiyyətləri müqayi-səli şəkildə təqdim olunur:

Cədvəl 2. Nəqliyyat sistemində DÖT layihələrinin maliyyə qiymətləndirilməsi metodlarının müqayisəli təhlili

Metod	Üstünlüklər	Çatışmazlıqlar	Nəqliyyatda tətbiq xüsusiyyətləri
NPV	- pulun vaxt dəyərini nəzərə alır; - obyektiv rentabellik qiymətləndirməsi təmin edir.	- proqnozların dəqiqliyindən ciddi asılılıq; - diskontlaşma normasının subyektivliyi.	-uzunmüddətli layihələrdə subsidiyaların və dövlət zəmanətlərinin təsirini qiymətləndirməyə imkan verir.
IRR	- faizlə ifadə olunur və müqayisəni asanlaşdırır; - pulun vaxt dəyərini nəzərə alır.	- çoxsaylı dəyərlər ala bilər; - mütləq mənfəəti göstərmir.	-özəl investorların layihəyə marağını və risk səviyyəsini qiymətləndirməyə imkan verir.
Payback Period	- sadə və əyani hesablanır; - riskləri qiymətləndirməyə kömək edir.	- geri qaytarılma müddətindən sonrakı pul axınlarını nəzərə almır; - pulun vaxt dəyərini sadələşdirilmiş formada qiymətləndirir.	-qısamüddətli risklərin və ilkin investisiyaların geri qaytarılma müddətinin təhlili üçün uyğundur.

Bu metodların birgə istifadəsi nəqliyyat sistemində DÖT layihələrinin hərtərəfli qiymətləndirilməsini təmin edir. Məsələn, NPV layihənin uzunmüddətli gəlirliliyini ölçərkən, IRR investorların gözləntilərinə uyğun rentabellik səviyyəsini, Payback Period isə investisiya risklərinin minimuma endirilməsi müddətini müəyyənləşdirir. Belə inteqrasiya dövlət və özəl tərəfdaşlar arasında risklərin balanslaşdırılmasını və layihələrin maliyyə dayanıqlığını artırır.

Tədqiqat çərçivəsində DÖT layihələrinin maliyyə qiymətləndirilməsində riskə əsaslanan inteqrasiya modelinin tətbiqi üzrə ilk sistemli yanaşma təklif olunur ki, bu da nəqliyyat sektorunda yeni elmi istiqamət yaradır.

Təklif olunan RAİM modeli hər üç metodun məhdudiyyətlərini aradan qaldıraraq NPV, IRR və Payback Period metodlarını vahid analitik çərçivədə birləşdirir və Monte Carlo simulyasiyası vasitəsilə riskləri qiymətləndirir. Modelin tətbiqi nəticə-

sində layihələrin maliyyə dayanıqlığının və risklərin balanslaşdırılmasının daha obyektiv qiymətləndirildiyi müəyyən edilmişdir.

Əldə edilmiş nəticələr tədqiqatın əsas hipotezini təsdiqləyir ki, metodların inteqrasiyası DÖT layihələrinin risklərin balanslaşdırılmasında və maliyyə dayanıqlığının artırılmasında mühüm rol oynayır. Eyni zamanda gələcək tədqiqatlar iqlim dəyişikliyi, iqtisadi qeyri-müəyyənlik və maliyyə bazarlarının dəyişkənliyinin DÖT layihələrinin rentabelliyinə təsirini daha dərindən araşdırmalıdır. Həmçinin, Azərbaycanın nəqliyyat infrastrukturunda DÖT layihələrinin qiymətləndirilməsi üzrə empirik modellərin işlənməsi məqsəd-dəuyğundur.

ƏDƏBİYYAT

1. Asian Development Bank. (2008). *Public-private partnership handbook*. Retrieved from https://www.adb.org/documents/public-private-partnership-ppp-handbook
2. OECD. (2024, April). *Infrastructure for a climate-resilient future*. OECD Publishing. https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2024/04/infrastructure-for-a-climate-resilient-future_c6c0dc64/a74a45b0-en.pdf
3. OECD. (2025). Raising investment and exports. In *OECD economic surveys: Ukraine 2025*. OECD Publishing. https://www.oecd.org/en/publications/oecd-economic-surveys-ukraine-2025_940cee85-en/full-report/raising-investment-and-exports_8614bf29.html
4. Nguepi N.D., Meytang C., Tchoffo R.N., Nkemgha G.Z. Financing options for infrastructure and life ladder in Africa. *Discov Cities* 2, 53 (2025). https://doi.org/10.1007/s44327-025-00068-0
5. World Bank & Asian Development Bank. (2017). *Public-private partnerships reference guide: Version 3.0*. World Bank Group. https://ppp.worldbank.org/sites/ppp.worldbank.org/files/documents/ppp-ADB-kor-v2.pdf
6. World Bank. (2023). *Climate finance for sustainable infrastructure: A strategic framework for emerging economies*. World Bank Group. https://documents1.worldbank.org/curated/en/099120723131526176/pdf/P1770900aa8cca0d208f84024f5cd68f004.pdf
7. World Bank. (2023). *Global infrastructure outlook: Financing sustainable development in the post-pandemic era*. World Bank Group. https://documents1.worldbank.org/curated/en/099052423020552874/pdf/P17655808b11570c3082bd0a8cfea6e06ec.pdf
8. World Bank. (n.d.). *Public-Private Infrastructure Advisory Facility*. Retrieved June 26, 2024, from https://ppi.worldbank.org/en/ppi
9. Robert Poole. (2024, June 25). Reason's annual surface transportation infrastructure report shows robust 2024. *Reason Foundation*. https://reason.org/transportation-news/reasons-annual-surface-transportation-infrastructure-report-shows-robust-2024/
10. Emmanuelle Auriol, Stephane Saussier. (2025, April 9). Rethinking public-private partnerships to bridge the infrastructure gap. *VoxEU*. https://cepr.org/voxeu/columns/rethinking-public-private-partnerships-bridge-infrastructure-gap
11. О.С. Троценко. К понятию эффективности проекта государственно-частного партнерства. Matters of Russian and International Law. 2020.
12. Muhammad Kamel, Rana Khallaf, Ibrahim Nosaier. Net present value-time curve behaviour of public private partnership projects. International Journal of Construction Management. 2022.

13. Kumar L., Jindal A., Velaga N. R. (2018). Financial risk assessment and modelling of PPP based Indian highway infrastructure projects. Transport Policy, 62, 2-11. https://doi.org/10.1016/j.tranpol.2017.03.010
14. Junaid Tahir, Mark Atkinson, Zhigang Tian, Mohamad Kassem, Rafiq Ahmad, Pablo Martinez. A critical analysis of public private partnership model in energy from waste projects. Sustainable Futures. 2024.
15. Yapan International Cooperation Agency. (2019). *Data collection survey on high-speed railway projects in Vietnam*. Retrieved from https://openjicareport.jica.go.jp/pdf/12345708.pdf
16. Fredy Kurniawan, Sri Wiwoho Mudjanarko, Stephen Ogunlana. Best Practice for Financial Models of PPP Projects. Procedia Engineering. 2015.
17. Ng S. Thomasa, Xie Jingzhua, Cheung Yau Kaia, Jefferies Marcus. A simulation model for optimizing the concession period of public-private partnerships schemes. International Journal of Project Management. 2007.
18. Hadi Ali Hasan, Erzaij Kadhim Raheim. Determination a Reasonable Concession Period for (PPP) Projects. Civil Engineering Journal (Iran). 2019.

UNEC, İl 13, Cild 13, oktyabr – dekabr, 2025, səh. 61-76
UNEC, Year 13, Volume 13, October – December 2025, pp. 61-76

AQRAR SAHƏNİN İNKİŞAFININ AQRAR-ƏRZAQ BAZARININ FORMALAŞMASINA VƏ DİNAMİKASINA TƏSİRİ

Daxil olub: 12 noyabr 2025-ci il
Qəbul olunub: 5 dekabr 2025-ci il

Received: 12 November 2025
Accepted: 5 December 2025

Xəyyam Cavadzadə
i.f.d., dosent, UNEC Zaqatala filialı
xayyam1984@mail.ru
https://orcid.org/0009-0001-0150-7116

DOI: https://doi.org/10.30546/UNECSR.2025.04.3010

Xülasə

Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasında aqrar-ərzaq bazarının inkişaf perspektivlərini, onun struktur xüsusiyyətlərini və strateji istiqamətlərini öyrənməkdir. Tədqiqatda həm ölkənin daxili bazar potensialı, həm də regional və qlobal bazarlarda rəqabət qabiliyyəti nəzərə alınmışdır. Məqsəd həmçinin aqrar sahənin dayanıqlı inkişafını təmin edən amilləri müəyyən etmək, subsidiya və dövlət dəstəyi mexanizmlərinin səmərəliliyini təhlil etmək, istehsal və ixrac potensialının artırılması üçün optimal strategiyaları göstərməkdir.

Tədqiqat işi statistik təhlil, müqayisəli analiz, sistematik yanaşma və məntiqi ümumiləşdirmə üsulları əsasında həyata keçirilmişdir. Tədqiqat çərçivəsində Azərbaycan aqrar-ərzaq bazarının əsas komponentləri, o cümlədən istehsalçı strukturu, kooperativlərin fəaliyyəti, dövlət tərəfindən tətbiq olunan subsidiya proqramları, bazar infrastrukturunun vəziyyəti və rəqəmsallaşma səviyyəsi ətraflı şəkildə analiz olunmuşdur. Həmçinin istehsalın bölgələr üzrə ixtisaslaşması, logistika sistemlərinin inkişafı, eləcə də innovativ texnologiyaların tətbiqi kimi strateji tədbirlər qiymətləndirilmişdir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan aqrar-ərzaq bazarında istehsal həcmlərinin artırılması, regional ixtisaslaşmanın düzgün təşkili, logistika və bazar infrastrukturunun təkmilləşdirilməsi bazarın dayanıqlı inkişafını təmin edən əsas amillərdir. Bundan əlavə, innovativ texnologiyaların tətbiqi və kooperativlərin fəaliyyətinin genişləndirilməsi məhsuldarlığın artırılmasına və yerli istehsalın qlobal bazarlara inteqrasiyasına əhəmiyyətli töhfə verir.

Tədqiqatın məhdudiyyəti mövcud statistik və praktik məlumatların bəzi hallarda kifayət qədər geniş olmamasıdır, bu da gələcək tədqiqatlarda daha ətraflı sahə araşdırmalarının aparılmasını zəruri edir. Tədqiqatın praktiki əhəmiyyəti isə aqrar sahənin inkişaf strategiyalarının təkmilləşdirilməsi, dövlət siyasətinin səmərəliyinin artırılması və fermerlərin iqtisadi dayanıqlılığının gücləndirilməsi baxımından

böyükdür. Bu nəticələr eyni zamanda Azərbaycan aqrar-ərzaq bazarının uzun-müddətli planlaşdırılmasında, innovativ texnologiyaların tətbiqində və beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsində faydalı ola bilər.

Açar sözlər: *aqrar sahə, aqrar-ərzaq bazarı, dövlət tənzimlənməsi, subsidiya mexanizmləri, regional ixtisaslaşma.*
JEL classification: *Q10; Q13; Q18; O13.*

IMPACT OF AGRICULTURAL SECTOR DEVELOPMENT ON THE FORMATION AND DYNAMICS OF THE AGRO-FOOD MARKET

Khayyam Javadzade
Ph.D. in Economics, Ass. professor, UNEC Zaqatala Branch

Abstract
The main aim of the study is to explore the development prospects of Azerbaijan's agri-food market, its structural characteristics, and strategic directions. The research considers both the potential of the domestic market and competitiveness in regional and global markets. It also seeks to identify factors ensuring sustainable development in the agricultural sector, analyze the effectiveness of subsidies and state support mechanisms, and propose optimal strategies to enhance production and export potential.
The study employed statistical analysis, comparative analysis, a systematic approach, and logical generalization. Key components of Azerbaijan's agri-food market were thoroughly analyzed, including the producer structure, cooperative activities, state subsidy programs, market infrastructure, and digitalization levels. Strategic measures such as regional production specialization, logistics development, and adoption of innovative technologies were also evaluated.
Findings indicate that increasing production volumes, properly organizing regional specialization, and improving logistics and market infrastructure are fundamental for the sustainable development of the market. Additionally, implementing innovative technologies and expanding cooperative activities significantly contributes to higher productivity and integration of local production into global markets.
The study's limitation lies in the occasional insufficiency of available statistical and practical data, highlighting the need for more detailed field research in the future. Its practical significance is substantial for improving agricultural development strategies, enhancing government policy efficiency, and strengthening farmers' economic resilience, as well as long-term planning and competitiveness in international markets.

Keywords: *agricultural sector, agro-food market, government regulation, subsidy mechanisms, regional specialization.*

ВЛИЯНИЕ РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА НА ФОРМИРОВАНИЕ И ДИНАМИКУ АГРОПРОДОВОЛЬСТВЕННОГО РЫНКА

Хайям Джавадзаде
кандидат экономических наук, доцент,
Загатальский филиал UNEC

Резюме

Основная цель исследования заключается в изучении перспектив развития аграрно-продовольственного рынка Азербайджанской Республики, его структурных особенностей и стратегических направлений. В работе учитывался как потенциал внутреннего рынка, так и конкурентоспособность на региональных и глобальных рынках. Исследование направлено на выявление факторов устойчивого развития аграрного сектора, анализ эффективности субсидий и государственных программ поддержки, а также на определение оптимальных стратегий увеличения производства и экспорта.

Методы исследования включали статистический анализ, сравнительный анализ, системный подход и логическое обобщение. Были детально про-анализированы ключевые компоненты аграрно-продовольственного рынка Азербайджана: структура производителей, деятельность кооперативов, госу-дарственные субсидии, состояние рыночной инфраструктуры и уровень цифровизации. Оценивались также региональная специализация производства, развитие логистических систем и внедрение инновационных технологий.

Результаты показали, что увеличение объемов производства, правильная организация региональной специализации, совершенствование логистики и рыночной инфраструктуры являются основными факторами устойчивого развития рынка. Внедрение инновационных технологий и расширение деятельности кооперативов значительно повышают продуктивность и интеграцию местного производства в глобальные рынки.

Ограничением исследования является недостаточная полнота некоторых статистических и практических данных, что требует более детальных полевых исследований в будущем. Практическая значимость заключается в совершенствовании стратегий развития аграрного сектора, повышении эффективности государственной политики и укреплении экономической устойчивости фермеров.

Ключевые слова: *сельское хозяйство, агропродовольственный рынок, государственное регулирование, механизмы субсидирования, региональная специализация.*
JEL classification: *Q10; Q13; Q18; O13*

GİRİŞ

Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı sektoru strateji əhəmiyyətli istiqamət-lərdən biri kimi çıxış edir və həm sosial sabitliyin qorunmasında, həm də ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi rol oynayır. Son illərdə – xüsusilə 2020–2024-cü illərdə – milli iqtisadiyyatda ümumi artım tempinin zəifləməsinə baxmayaraq, aqrar sahədə istehsalın genişlənməsi müşahidə olunmuşdur. Bu fakt kənd təsərrüfatının böhranlara daha dayanıqlı və iqtisadi stabilliyi təmin edən sahələrdən biri olduğunu göstərir.

Aqrar münasibətlərin formalaşması bazar iqtisadiyyatı şəraitində əsasən özəl mülkiyyət institutlarının genişlənməsi və istehsalın çoxsaylı təsərrüfat subyektləri arasında bölüşdürülməsi ilə xarakterizə olunur. Bu xüsusiyyət aqrar sektorda rəqabət mühitini gücləndirir, məhsuldarlığın artmasına və bazarın diversifikasiyasına zəmin yaradır. Digər tərəfdən, dövlətin dəstəkləyici rolu mühüm əhəmiyyət kəsb edir. Son illərdə qəbul olunmuş qanunvericilik aktları, strateji proqramlar və sosial sənədlər kənd təsərrüfatının institusional əsaslarını möhkəmləndirərək ərzaq bazarının tənzimlənməsinə və modernləşdirilməsinə yönəldilmişdir.

Aqrar-ərzaq bazarı istehsal, bölgü (paylanma), mübadilə və istehlak mərhələlərinin qarşılıqlı əlaqəsi əsasında formalaşan mürəkkəb sosial-iqtisadi sistemdir. Bu bazar müxtəlif məhsul növlərinin dövriyyəsini təmin etməklə yanaşı, istehsalçı, istehlakçı və vasitəçilərin çoxşaxəli münasibətlərini əhatə edir. Beləliklə, aqrar-ərzaq bazarı yalnız iqtisadi mexanizmlər deyil, həm də social və institusional təsirlər fonunda inkişaf edən kompleks bir struktur kimi qiymətləndirilir.

Azərbaycanın qlobal iqtisadi sistemə inteqrasiyası aqrar sahənin inkişafına yeni imkanlarla yanaşı, əlavə çətinliklər də gətirmişdir. Dövlət dəstəyi tədbirləri istehsalın sabitləşdirilməsinə və modernləşməsinə mühüm təsir göstərsə də, idxal asılılığı, qeyri-bərabər rəqabət və qeyri-müəyyən bazar konyunkturu kimi problemlər hələ də tam olaraq aradan qaldırılmayıb. Bu şərait daxili istehsalın gücləndirilməsi, məhsuldarlığın artırılması və ixrac potensialının genişləndirilməsi istiqamətində daha çevik yanaşmaların tətbiqini zəruri edir.

Nəticə etibarilə, aqrar-ərzaq bazarının inkişaf dinamikasının elmi əsaslarla araşdırılması və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi milli iqtisadiyyatın dayanıqlığı və ərzaq təhlükəsizliyi baxımından prioritet istiqamət-lərdən biri kimi çıxış edir. Bu sahədə aparılacaq kompleks tədqiqatlar yalnız kənd təsərrüfatı siyasətinin optimallaşdırılması üçün deyil, həm də uzunmüddətli inkişaf strategiyalarının hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir.

1. Aqrar sahənin inkişafının aqrar-ərzaq bazarına təsir xüsusiyyətləri

2020–2024-cü illərdə Azərbaycanda aqrar sahənin inkişafı həm bitkiçilik, həm də heyvandarlıq məhsullarının istehsalına, həmçinin bazar qiymətlərinə birbaşa təsir göstərmişdir. Qiymət cədvəlləri göstərir ki, əsas ərzaq məhsullarının qiymətləri 2020–2024-cü illərdə davamlı olaraq artım nümayiş etdirib, xüsusilə 2022-2023-cü illərdə qlobal bazar və inflyasiya təsirləri ilə bağlı kəskin yüksəliş müşahidə olunub.

1. Düyü və un məhsulları. Uzun düyü və yumru düyünün qiymətləri 2020–2023-cü illərdə 27–44,5% artıb, 2024-cü ildə isə kiçik azalma baş verib. Bu, daxili istehsalın müəyyən qədər bazar tələbatını ödəməsi, eyni zamanda qlobal qiymət dəyişiklikləri ilə bağlıdır. Buğda unun isə 2022-ci ildə qiymət artımı sürətləndirilib, lakin 2024-də azalma müşahidə olunub.

2. Çörək məhsulları. Əla növ buğda çörəyi, çovdar çörəyi və qarışıq undan çörəyin qiymətləri 2020–2024-cü illərdə əhəmiyyətli artım göstərib (çovdar çörəyində 71%). Qiymətlərin dalğalanması bazarda tələb-təklif tarazlığının və dövlət tənzimləmələrinin təsirini əks etdirir.

3. Süd və süd məhsulları. Sümüklü mal əti və toyuq əti qiymətləri 2020–2024-cü illərdə ardıcıl artıb, sümüklü mal ətində 31% artım müşahidə olunub. Qatıq da 5 il ərzində 38,8% qiymət artımı göstərib. Bu, heyvandarlıq məhsullarının bazar təklifinə, xammal qiymətlərinə və istehsal həcmindəki dəyişikliklərə bağlıdır.

4. Meyvə və tərəvəz. Alma qiymətləri sabit qalıb, armud və kivi isə 2022–2024-cü illərdə artım və dalğalanma göstərib. Kivi qiymətindəki kəskin artım idxal asılılığını və daxili istehsalın məhdudluğunu göstərir [1].

2020–2024-cü illərdə Azərbaycanda əsas ərzaq məhsullarının qiymətləri ardıcıl artım nümayiş etdirmiş, xüsusilə 2022-2023-cü illərdə qlobal bazar təsirləri və inflyasiya səbəbindən daha kəskin yüksəliş müşahidə olunmuşdur. Əsasən düyü, un və çörək məhsullarında qiymət artımı, süd və ət məhsullarında davamlı bahalaşma, meyvə və tərəvəzlərdə isə idxaldan asılı olan məhsullar üzrə dalğalanma baş vermişdir. Bu tendensiyalar daxili istehsal imkanları, dövlət tənzimləmələri və xarici bazar şərtlərinin birgə təsirini göstərir. Əsas ərzaq məhsullarının qiymətləri qrafik 1-də verilmişdir.



Qrafik 1. Əsas ərzaq məhsullarının qiymətləri (manat/kg)
Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

5. İstehsal göstəriciləri və təsərrüfat kateqoriyaları:

- *Bütün təsərrüfat kateqoriyaları.* Dənli və paxlalı bitkilərin istehsalı təxminən sabit qalıb (≈0,6% artım). Şəkər çuğunduru və tütün istehsalı kənd təsərrüfatı müəssisələrinə aid olsa da, tərəvəz, bostan və günəbaxan istehsalı artım göstərib. Ət (diri çəkidə) 9,6%, süd 4,1%, yumurta 14,8% artıb, yun və barama istehsalı isə azalıb.
- *Kənd təsərrüfatı müəssisələri. Ət* və süd istehsalı stabildir, yumurta istehsalında 31,7% artım müşahidə olunur. Yun və barama istehsalı azalır, bu da müəssisələrin daha gəlirli məhsullara fokuslandığını göstərir.
- *Fərdi sahibkar, ailə və ev təsərrüfatları.* Bu təsərrüfatlar əsasən ət, süd və tərəvəz məhsullarının istehsalına yönəliblər. Yumurta istehsalı müəssisələrə nisbətən zəif artıb, yun istehsalında isə azalma müşahidə olunub. Kartof istehsalında 2024-cü ildə azalma olmuşdur, bu da iqlim, subsidiya siyasəti və bazar tələbi ilə izah olunur [2].

İstehsal göstəriciləri üzrə 2020–2024-cü illərdə kənd təsərrüfatının əsas məhsullarında sabit artım müşahidə olunur. Ət və süd istehsalı 5 il ərzində müvafiq olaraq 9,6% və 4,1% artmış, yumurta istehsalında isə daha sürətli – 14,8% artım qeydə alınmışdır. Bununla yanaşı, yun və barama istehsalı azalma meyli göstərmişdir. Fərdi təsərrüfatlar tərəvəz və bostan məhsullarında həlledici rol oynasa da, müəssisələr daha çox dənli bitkilər, şəkər çuğunduru və yüksək məhsuldarlıq tələb edən sahələrə yönəlmişlər. Ət, süd və yumurta istehsalı qrafik 2- də verilmişdir.



Qrafik 2. Ət, süd və yumurta istehsalı (min ton / milyon ədəd)
Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.

Statistik məlumatların təhlili göstərir ki, aqrar sahənin inkişafı istehsalın stabil qalmasına və ərzaq bazarında məhsul təklifinin təmin olunmasına xidmət edir. Qiymət artımlarının fərdi məhsullarda dalğalanması, xüsusən ət və süd məhsullarında, bazar təklifi, idxal asılılığı və xammal qiymətlərindən qaynaqlanır. Düyü və un məhsulları, çörək məhsulları isə daxili istehsal və dövlət tənzimləmələri ilə sabit saxlanılır. Fərdi təsərrüfatlar tərəvəz və bostan məhsullarında əsas rol oynayır, müəssisələr isə yüksək məhsuldarlıq tələb edən dənli bitkilər və şəkər çuğunduru istehsalına fokuslanır.

Onu da qeyd edək ki, aqrar sahənin inkişafı bazar iştirakçıları üçün stabil təklif, qiymət sabitliyi və ərzaq təhlükəsizliyinin təmin olunması ilə birbaşa əlaqəlidir. İstehsalın struktur dəyişməsi və təsərrüfat kateqoriyaları üzrə fərqlilik bazarda rəqabəti, təklifin keyfiyyətini və qiymət dalğalanmalarını müəyyən edir.

2. Aqrar-ərzaq bazarının fəaliyyət problemləri

Azərbaycan aqrar-ərzaq sektoru ölkənin iqtisadi inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayan sahələrdən biridir. Bu sektor həm daxili bazarın təmin olunması, həm də ixrac potensialının artırılması baxımından strateji əhəmiyyət kəsb edir. Aqrar-ərzaq sektoru həm kənd təsərrüfatı məhsullarının istehsalı, həm emalı, həm də paylanması mərhələlərini əhatə edir və ölkənin iqtisadi sabitliyinə birbaşa təsir göstərir. Lakin bu sektor, digər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsindən fərqli olaraq, bir sıra struktur, istehsal və iqtisadi-siyasi problemlərlə qarşı-qarşıyadır.

Aqrar sahədə bazar infrastrukturunun zəif inkişafı bu sahədə fəaliyyət göstərən sahibkarlıq strukturlarının rəqabət qabiliyyətinin aşağı olmasına birbaşa və güclü təsir göstərir. Xüsusilə kənd təsərrüfatında anbar-tədarük və topdansatış bazar infrastrukturunun yetərsizliyi məhsulların bazara çıxarılması və paylanmasını çətin-ləşdirir. Bu şəraitdə yüksəkkeyfiyyətli məhsul istehsal edilsə belə, istehsalçıların bazar imkanlarından tam istifadə etməsi mümkün olmur. Nəticədə, daxili əlavə dəyər aşağı qalır və ixrac olunan məhsulların böyük hissəsi əsasən xam və yarımfabrikat şəklində olur [3, s. 238; 242]. Struktur problemlər, əsasən emal sənayesinin zəif inkişafı və bazar infrastrukturunun qeyri-kafi səviyyəsi ilə əlaqələndirilir. Bu isə sektorun ümumi səmərəliliyinə mənfi təsir göstərir və kənd təsərrüfatı məhsullarının bazara çıxarılması prosesində problemlər yaradır. İstehsal və təchizat sahəsindəki çətinliklər isə iqlim dəyişiklikləri, məhsul istehsalında qeyri-sabitlik və mövsümi dalğalanmalarla bağlıdır. Belə hallarda məhsul istehsalının davamlılığı risk altına düşür və ərzaq məhsullarının bazara vaxtında və stabil şəkildə çatdırılması problemli olur.

İqtisadi və siyasi problemlər isə dövlət dəstəyi mexanizmlərinin yetərsizliyi və iqtisadi siyasətin sektorun inkişafını tam olaraq dəstəkləməməsi ilə əlaqələndirilir. Dövlət subsidiyaları və proqramları olsa da, bunlar uzunmüddətli perspektivdə aqrar-ərzaq sektorunun davamlı inkişafını təmin etmək üçün kifayət etmir.

Bu problemlərin sistemli təhlili nəticəsində Azərbaycan aqrar-ərzaq sektorunun fəaliyyətindəki əsas məqamları üç əsas istiqamət üzrə təsnifləşdirmək mümkündür: struktur problemlər, istehsal və təchizat problemləri, həmçinin iqtisadi-siyasi problemlər. Hər bir istiqamət sektorun səmərəliliyinə və davamlı inkişafına birbaşa təsir göstərir və konkret həll yollarının müəyyənləşdirilməsini tələb edir.

2.1. Struktur problemlər

Emal sənayesinin zəif inkişafı: 2023-cü ildə Azərbaycanın aqrar məhsullarının ixracının yalnız 7,1%-i emal olunmuş məhsullardan ibarət olmuşdur. Bu göstərici emal sənayesinin inkişaf etməməsi nəticəsində yüksək qatma dəyərli məhsulların ixracının məhdud olduğunu göstərir [4]. Emal sənayesinin zəif inkişafı həm daxili əlavə dəyərin artmasına mane olur, həm də ixrac potensialını azaldır.

Bazar infrastrukturunun qeyri-kafi səviyyədə olması: aqrar bazarın inkişafı üçün zəruri olan infrastrukturun olmaması, xüsusilə mövsümi istehsal və satış dövrlərində yerli istehsalçıların məhsullarını əlverişsiz şəraitdə bazara çıxarmasına səbəb olur [5]. Yükləmə, saxlama və daşınma imkanlarının məhdudluğu məhsulun bazar qiymətlərinə və mövsümi tənzimlənməyə mənfi təsir göstərir.

2.2. İstehsal və təchizat problemləri

İqlim dəyişiklikləri və kənd təsərrüfatına təsiri. "2023-cü ildə qlobal iqlim dəyişikliyi kənd təsərrüfatı sektorunun istehsal və təchizatına birbaşa təsir etmişdir. Temperatur artımı və qeyri-sabit yağıntılar nəticəsində məhsuldarlıq azalaraq ərzaq təhlükəsizliyi riskləri artmış və bazarda təchizat problemləri yaranmışdır [14]. Bu hallar məhsulun qeyri-sabit təklifinə, qiymət dəyişkənliyinə və fermerlərin gəlir stabilliyinin pozulmasına səbəb olmuşdur. Belə şəraitdə zəruri tədbirlər və beynəlxalq əməkdaşlığın genişləndirilməsi həm istehsalın stabilliyini təmin etməyə, həm də istilik effekti yaradan qazların emissiyasını azaltmağa kömək edə bilər [9, s. 93].

Məhsul təchizatının sabit olmaması: məsələn 2023-cü ildə kartof istehsalında əhəmiyyətli azalma müşahidə olunmuşdur. Bu azalma iqlim şəraiti, subsidiyalar və bazar tələbinin dəyişməsi ilə əlaqələndirilir [8]. Məhsul təchizatının qeyri-sabitliyi bazarda qiymət dalğalanmalarına və istehlakçıların narazılığına səbəb olur.

2.3. İqtisadi və siyasi problemlər

İxracın emal olunmuş məhsullardan az olması. Yuxarıda qeyd edildiyi kimi, emal olunmuş məhsulların ixrac payının cəmi 7,1% olması sektorun dəyər zəncirində aşağı səviyyədə iştirak etdiyini göstərir və uzunmüddətli iqtisadi inkişaf üçün maneələr yaradır [4].

Dövlət dəstəyi və iqtisadi siyasət. 2023-cü ildə dövlət tərəfindən aqrar sahəyə ayrılan subsidiyalar 352 milyon manat təşkil etmişdir. Lakin bu dəstək sahənin uzunmüddətli inkişafını təmin etmək baxımından kifayət etməmişdir [4]. Dövlət siyasətinin hədəflənməsi və resursların daha səmərəli yönləndirilməsi zəruridir.

3. Aqrar-ərzaq bazarının dövlət tənzimlənməsinin səmərəliliyi

Dünyanın bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində aqrar-ərzaq bazarının dövlət tənzimlənməsi həm istehsal və təklifin sabitləşdirilməsi, həm də fermer gəlirlərinin qorunması məqsədilə həyata keçirilir [9, s. 14-15]. OECD məlumatlarına görə, son 20 ildə kənd təsərrüfatına yönəldilən dövlət transferləri 70 milyard ABŞ dolları artaraq 2004-cü ildə 378 milyard dollara çatmışdır. Bu dəstək mexanizmlərinin əksəriyyəti Avropa Birliyi, ABŞ, Yaponiya və Cənubi Koreya tərəfindən reallaşdırılmışdır. İnkişaf etmiş ölkələrdə subsidiyalar yalnız kənd təsərrüfatı istehsalının artırılması üçün deyil, həm də bazar sabitliyi, ərzaq təhlükəsizliyi və kənd yerlərində məşğulluğun qorunması üçün əsas alət hesab olunur.

Azərbaycanda isə aqrar subsidiyaların tətbiqi yalnız 2007-ci ildən etibarən institusional xarakter almışdır. Məhdud büdcə imkanlarına baxmayaraq, dövlət son illərdə subsidiya mexanizmlərini təkmilləşdirmiş, fermerlərin dəstəyə çıxış imkanlarını genişləndirmişdir. Xüsusilə 2020-ci ildən sonra, Aqrar Subsidiya Şurasının qərarları ilə əkin əmsalı, məhsul əmsalı və toxum əmsalı əsasında diferensial dəstək mexanizmi tətbiq olunmağa başlanmışdır.

2026-cı il üçün qəbul edilən yeni mexanizmlər göstərir ki, dövlət tənzimlənməsinin səmərəliliyi daha çox hədəfli və ünvanlı yanaşmalarla gücləndirilir. Belə ki:

- *Əkin subsidiyası* 175 manat/ha müəyyən edilmiş və bu, bütün fermerlərə bərabər şəkildə tətbiq olunmuşdur.
- *Məhsul əmsalları* üzrə fərqləndirmə aparılmış, pambıq (0,9), şəkər çuğunduru (1,1), tütün (1,2), çəltik (1,0) və digər strateji məhsullar üzrə müxtəlifləşmə təmin olunmuşdur.
- *Toxum əmsalı* 1,5 səviyyəsində təsbit edilmiş, bu isə sertifikatlı toxumdan istifadənin stimullaşdırılmasına yönəlmişdir.
- *İntensiv və super-intensiv bağçılıq* üçün əlavə subsidiyalar müəyyən edilmişdir: intensiv bağlarda 5 illik, super-intensiv bağlarda isə 7 illik subsidiya dəstəyi tətbiq olunur.
- *Torpaq analizi* nəticələrinə əsaslanan əkinlərdə fermerlərə əlavə 10 manat/ha subsidiya ödənilməsi nəzərdə tutulmuşdur.
- *İşğaldan azad olunmuş ərazilərdə* məskunlaşmış və fəaliyyət göstərən fermerlər üçün 1,1-1,2 əmsal tətbiq olunaraq, üstün dəstək mexanizmi formalaşdırılmışdır [10].

Bu göstəricilər onu deməyə əsas verir ki, Azərbaycanda dövlətin aqrar-ərzaq bazarını tənzimləmə siyasəti getdikcə daha diferensial və məqsədli xarakter alır. Bununla belə, aparılmış tədqiqatlar göstərir ki, 2015–2024-cü illərdə subsidiya ödənişlərinin *transfer səmərəliliyi* hələ də optimal səviyyədə deyil. Resursların məhdudluğu şəraitində dəstəklərin təsir gücünün artırılması üçün subsidiya mexanizmləri yalnız istehsal artımı ilə deyil, həm də fermer gəlirlərinin və bazar sabitliyinin qorunması baxımından qiymətləndirilməlidir.

Beləliklə, 2026-cı il üçün müəyyən edilmiş subsidiya mexanizmləri Azərbaycanın aqrar-ərzaq bazarının dövlət tənzimlənməsində yeni mərhələni formalaşdırır. Əkin və məhsul əmsallarının tətbiqi, toxum bazarının inkişafına yönəlmiş təşviqlər, torpaq analizi və azad olunmuş ərazilərdə xüsusi dəstək modelləri dövlət tənzimlənməsinin səmərəliliyini yüksəldir. Bu yanaşma yalnız kənd təsərrüfatı istehsalının artırıl-

masına deyil, həm də fermer rifahının güclənməsinə və aqrar-ərzaq bazarının sabit fəaliyyətinə töhfə verir.

4. Aqrar-ərzaq bazarının inkişaf perspektivləri

Azərbaycan Respublikasında aqrar-ərzaq bazarının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və ərzaq təhlükəsizliyinin təmin olunması, yerli istehsalın artırılması, rəqabət qabiliyyətli ixrac potensialının formalaşdırılması bu siyasətin əsas hədəfləri kimi müəyyənləşdirilmişdir. Prezident İlham Əliyevin 2014-cü il 16 yanvar tarixli Sərəncamı ilə qəbul edilən tədbirlər çərçivəsində fermerlərə subsidiyaların verilməsi, vergi güzəştləri, yanacaq və gübrə təminatı, eləcə də logistika və satış infrastrukturunun formalaşdırılması nəzərdə tutulmuşdur [11]. Statistik göstəricilər həmin tədbirlərin praktiki nəticələrini əks etdirir. Məsələn, bitkiçilik məhsullarında 2020–2024-cü illərdə dənli və dənli paxlalı bitkilərin istehsalı 3257,1 min tondan 3278,1 min tona yüksəlmişdir ki, bu da ərzaq təhlükəsizliyi baxımından strateji məhsullarda sabit artımın göstəricisidir. Eyni dövrdə kartof və tərəvəz istehsalında müəyyən dalğalanmalar müşahidə olunsa da, ümumi həcmlərin yüksək səviyyədə qalması daxili bazarın təminatında mühüm rol oynamışdır.

Heyvandarlıq məhsullarında da artım dinamikası aydın görünür. Belə ki, ət istehsalı (diri çəkidə) 2020-ci ildə 591,1 min tondan 2023-cü ildə 647,7 min tona çatmışdır. Süd istehsalı isə 2192,5 min tondan 2284,0 min tona qədər yüksələrək kənd təsərrüfatının dayanıqlı inkişafını təsdiqləmişdir. Yumurtanın illik istehsalı 1906,2 milyon ədəddən 2188,2 milyon ədədə qədər artmışdır ki, bu da həm daxili istehlak, həm də ixrac üçün potensial imkanlar yaradır.

Beləliklə, normativ-hüquqi baza ilə iqtisadi göstəricilər arasında qarşılıqlı uyğunluq müşahidə edilir. Dövlət dəstəyi tədbirləri yalnız istehsal həcmlərinin artımına deyil, həm də bazar mexanizmlərinin təkmilləşdirilməsinə, məhsulların keyfiyyətinə və ixrac potensialının genişlənməsinə yönəlmişdir. Bu isə Azərbaycanın aqrar-ərzaq sektorunun yaxın perspektivdə qlobal dəyər zəncirlərinə daha güclü inteqrasiyasına imkan verəcəkdir.

5. Aqrar-ərzaq bazarının inkişafının strateji istiqamətləri

Azərbaycanın aqrar-ərzaq bazarının davamlı inkişafı üçün strateji hədəflər yalnız istehsal həcmlərinin artırılması ilə məhdudlaşmır, həm də struktur islahatları, innovativ yanaşmalar və bazar mexanizmlərinin modernləşdirilməsi ilə bağlıdır. Dövlət proqramlarında və prezident sərəncamlarında müəyyən edilmiş prioritetlər

nəzərə alınmaqla aşağıdakı istiqamətlər xüsusi əhəmiyyət kəsb edir: aqrar-ərzaq bazarının strateji istiqamətləri sxem 1-də əks etdirilmişdir.



Sxem 1. Aqrar ərzaq bazarının strateji istiqamətləri
Mənbə: müəllif tərəfindən tərtib edilmişdir

5.1. İxtisaslaşma və məhsul strukturunun optimallaşdırılması

Aqrar islahatların ilkin mərhələlərindən başlayaraq, kənd təsərrüfatı məhsullarının aşağı qiymətləri, artan istehsal xərcləri və istehlakçıların ərzaq məhsulları üçün ödədiyi məbləğin dəyər zəncirinin subyektləri arasında qeyri-bərabər paylanması, xüsusilə kiçik və orta təsərrüfatların, eləcə də kənd təsərrüfatı müəssisələrinin orta və yüksək gəlir əldə etmək imkanlarına mənfi təsir göstərən açıq tendensiya kimi müşahidə olunmuşdur [12, s. 125]. Bu baxımdan, kənd təsərrüfatı rayonlarının təbii-iqlim potensialı, torpaq və su resursları nəzərə alınmaqla istehsalın ixtisaslaşması, bazarın dayanıqlığını təmin edən mühüm amillərdən biri hesab olunur. Məsələn, Şirvan və Mil-Muğan zonalarında pambıqçılıq, Quba-Xaçmazda meyvəçilik, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında isə taxılçılıq və heyvandarlıq üzrə ixtisaslaşma potensialı mövcuddur. Bu yanaşma yalnız məhsuldarlığın artırılmasına xidmət etmir, eyni zamanda məhsulun həm daxili bazarda, həm də xarici bazarlarda rəqabət qabiliyyətini yüksəldir, eləcə də əlavə dəyərin yaradılmasını və aqrar sektorun səmərəliliyinin optimallaşdırılmasını təmin edir. Beləliklə regional ixtisas-

laşma kənd təsərrüfatı strategiyasının səmərliliyini artıran əsas mexanizmlərdən biri kimi çıxış edir.

5.2. Rəqəmsallaşma və "AqroTexnologiya" həllərinin tətbiqi

Kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqi – aqrar sığorta platformaları, elektron subsidiya sistemləri, aqro-məlumat bazaları və "ağıllı kənd təsərrüfatı" modelləri bazar fəaliyyətinin şəffaflığını artırır. Bu, həm də resurslardan (su, gübrə, toxum) daha səmərəli istifadəyə və məhsuldarlığın yüksəldilməsinə imkan yaradır.

5.3. Kooperativlərin inkişafı və fermer əməkdaşlığı

Kooperasiya hərəkatı kənd təsərrüfatında digər təsərrüfatçılıq modellərinə alternativ olaraq inkişaf edən səmərəli bir model kimi qiymətləndirilir və sağlam rəqabətin formalaşmasında mühüm rol oynayır [13, s. 253]. Kiçik və orta fermer təsərrüfatlarının bazarda rəqabət qabiliyyətini artırmaq üçün kooperativlərin təşviqi strateji əhəmiyyət daşıyır. Kooperativlər vasitəsilə istehsal xərclərinin azaldılması, emal müəssisələrinə çıxışın asanlaşdırılması və məhsulların ixrac imkanlarının genişləndirilməsi mümkündür. Bundan əlavə, kooperativ strukturların tətbiqi regional səviyyədə kənd yerlərində məşğulluğun artırılmasına, fermerlərin bazar payının möhkəmləndirilməsinə və məhsulun dəyər zəncirində daha yüksək əlavə dəyər əldə etməsinə şərait yaradır. Beynəlxalq təcrübə göstərir ki, aqrar kooperativlər yalnız iqtisadi səmərəliliyi artırmır, həm də fermerlər arasında əməkdaşlıq və bilik mübadiləsini təşviq edərək kənd təsərrüfatının davamlı inkişafını dəstəkləyir.

5.4. Logistika mərkəzləri və bazar infrastrukturunun gücləndirilməsi

Ərzaq məh-sullarının keyfiyyətinin qorunması, qablaşdırılması və vaxtında çatdırılması üçün müasir logistika mərkəzlərinin yaradılması zəruridir. Xüsusilə Bakı və digər iri şəhərlər ətrafında soyuducu anbarlar, topdansatış bazaları və aqroparkların fəaliy-yətinin gücləndirilməsi daxili bazarın dayanıqlığını təmin edir və ixrac potensialını artırır [14, s. 238; 242]. Müasir logistika mərkəzləri yalnız məhsulun saxlanması və daşınması üçün deyil, həm də emal müəssisələrinə vaxtında və səmərəli çatdırıl-masını təmin edir. Bu yanaşma məhsulun keyfiyyətinə nəzarət və dəyər zəncirində əlavə dəyərin yaradılması baxımından strateji əhəmiyyət daşıyır. Bazar infrastrukturunun gücləndirilməsi regional fermer təsərrüfatlarının bazar imkanlarından tam istifadə etməsinə və yerli istehsalın rəqabət qabiliyyətinin yüksəlməsinə imkan yaradır.

Eyni zamanda kənd təsərrüfatının rayonlar və ya kəndlər üzrə ixtisaslaşması istehsalın əsas sahələr üzrə optimallaşdırılmasına, əmək ehtiyatlarından səmərəli

istifadəyə və sahədə çalışanların peşəkarlığının artırılmasına şərait yaradır. İxtisaslaşma kənd təsərrüfatı istehsalının strukturunu təkmilləşdirir, məhsul istehsalçılarının və işçilərin gəlirlərinin artmasına, əhalinin mühüm kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsinə imkan verir və torpaq, texnika, texnologiya və digər resurslardan daha səmərəli istifadəni təmin edir [15, s. 36].

Bu yanaşma, məhsulların səmərəli satışının təşkili və ixtisaslaşan təsərrü-fatların davamlı fəaliyyətinin təmin olunması baxımından da vacibdir. Azərbaycanda bu istiqamətdə görülən tədbirlərdən biri "Meyvəli" topdansatış bazasının yaradıl-ması, şəhərlərdə yarmarkaların təşkili və 2018-ci il 400 №-li Fərmanla "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətə başlamasıdır. Lakin regionlarda satışın hələ də nizamsız aparılması ixtisaslaşmanın sürətini ləngidir və fermerlərin gəlirlərinə mənfi təsir göstərir.

5.5. İnnovasiyalar və texnoloji modernləşmə

Aqrar sahədə innovasiya, elmi araşdırmalara əsaslanan seleksiya işləri, aqrokimya, müasir texnika və texnologiyalar, heyvan cinslərinin təkmilləşdirilməsi, kimyəvi və bioloji preparatların istifadəsi, eləcə də yeni ideyaların və qabaqcıl təcrübələrin məhsul növlərinə tətbiqi, istehsalın təşkili və idarə edilməsinə çevrilməsi və istifadəsi prosesini əhatə edən kompleks fəaliyyət kimi müəyyən edilir. Bu proses nəticəsində kənd təsərrüfatı və emal məhsulları, eləcə də əlaqəli xidmətlər rəqabət qabiliyyətli hala gəlir [16, s. 431]. Müasir seleksiya və genetik tədqiqatların nəticələrinin tətbiqi, suya qənaət edən texnologiyaların istifadəsi, bioloji gübrələrdən və ekoloji təmiz istehsal metodlarından yararlanmaq aqrar bazarda rəqabət üstünlüyü təmin edir. Bundan əlavə, beynəlxalq dəyər zəncirlərinə inteqrasiya üçün məhsulun keyfiyyət sertifikatlarının alınması və beynəlxalq standartlara uyğun istehsalın tətbiqi strateji əhəmiyyət kəsb edir. Bu yanaşma yalnız məhsulun rəqabət qabiliyyətini artırmır, həm də Azərbaycan aqrar sektorunun dünya bazarında dayanıqlı mövqeyini gücləndirir.

Bu strateji istiqamətlər Azərbaycanın aqrar-ərzaq bazarının qlobal iqtisadi sistemə inteqrasiyasını gücləndirməklə yanaşı, daxili ərzaq təhlükəsizliyini təmin edəcək və kənd təsərrüfatı sektorunda uzunmüddətli dayanıqlı inkişaf üçün institusional baza formalaşdıracaqdır.

NƏTİCƏ VƏ TƏKLİFLƏR

Nəticələr:

1. 2020–2024-cü illərdə Azərbaycanda aqrar sahənin inkişafı həm bitkiçilik, həm də heyvandarlıq məhsullarının istehsalını artırmış, ərzaq məhsullarının qiymət və təklif dinamikasına birbaşa təsir göstərmişdir. Xüsusilə ət, süd, yumurta və tərəvəz istehsalında stabillik təmin edilmişdir.
2. Aqrar-ərzaq sektorunda əsas çətinliklər struktur (emal sənayesinin zəif inkişafı, bazar infrastrukturunun yetərsizliyi), istehsal və təchizat (iqlim dəyişiklikləri, məhsulun qeyri-sabit təklifi) və iqtisadi-siyasi (subsidiyaların optimal olmaması, ixracın emal olunmuş məhsullardan aşağı səviyyədə olması) istiqamətlərdə toplanmışdır.
3. 2020–2026-cı illərdə tətbiq olunan əkin, məhsul və toxum əmsalları, həmçinin xüsusi dəstək mexanizmləri aqrar-ərzaq bazarının sabitləşdirilməsinə və fermerlərin gəlirlərinin artırılmasına müsbət təsir göstərmişdir. Lakin subsidiya transfer səmərəliliyi hələ də optimal səviyyədə deyil və resursların daha məqsədli yönləndirilməsi tələb olunur.
4. Regional ixtisaslaşma, rəqəmsallaşma, kooperativlərin inkişafı, logistika mərkəzlərinin gücləndirilməsi, innovasiya və texnoloji modernləşmə aqrar-ərzaq bazarının dayanıqlı inkişafı və qlobal inteqrasiyası üçün əsas mexanizmlərdir.

Təkliflər:

1. Diferensial və ünvanlı subsidiyaların tətbiqi ilə yanaşı, transfer səmərəliliyi və təsir gücü artırılmalıdır. Fermerlərin gəlirlərinin qorunması və bazar sabitliyinin təmin edilməsi üçün əkin və məhsul əmsalları daha da optimallaşdırılmalıdır.
2. Aqrar sahədə yüksək əlavə dəyərli məhsulların istehsalını və ixrac potensialını artırmaq məqsədilə emal müəssisələrinin sayı artırılmalı, müasir texnologiyalar tətbiq edilməli və istehsal səmərəliliyi yüksəldilməlidir.
3. Soyuducu anbarlar, topdansatış bazaları və logistika mərkəzləri regionlarda yaradılmalı, aqroparkların fəaliyyəti təkmilləşdirilməli və mövcud infrastrukturun səmərəliliyi artırılmalıdır.
4. Elektron subsidiya sistemləri, aqro-məlumat bazaları, aqrar sığorta platformaları və müasir texnologiyaların tətbiqi istehsalın səmərəliliyini artırmalı və bazar şəffaflığını təmin etməlidir.
5. Kiçik və orta təsərrüfatların bazarda rəqabət qabiliyyətinin artırılması üçün kooperativləşmənin təşviqi, kooperativlərin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və emal müəssisələrinə səmərəli çıxış imkanlarının yaradılması vacibdir.

6. İstehsalın təbii-iqlim resursları, torpaq və su potensialı nəzərə alınaraq ixtisaslaşmış zonaların inkişaf etdirilməsi daxili bazarın sabitliyini və ixrac potensialını artıracaqdır.
7. Qlobal bazarlara inteqrasiya, keyfiyyət sertifikatlarının əldə edilməsi və beynəlxalq standartlara uyğun istehsal təşviq olunmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/price_tarif/
2. Azərbaycan Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/agriculture/
3. Hüseyn, R.Z. Aqrar sahədə rəqabətqabiliyyətli məhsul istehsalı: qloballaşmanın çağırışları və inkişaf imkanları. / R.Z, Hüseyn, Monoqrafiya, Bakı, "Avropa" nəşriyyatı, - 2018. 408 s.
4. Azərbaycan iqlim riskləri fonunda ərzaq təhlükəsizliyini gücləndirir https://caliber.az/en/post/azerbaijan-strengthens-food-security-amid-climate-risks
5. Hacıyeva S.İ. Kənd təsərrüfatı sektorunda bazar riskləri və risklərin idarə edilməsi: Azərbaycan üçün problemlər,
https://www.researchgate.net/publication/389901201_Market_risks_and_risk_management_in_the_agricultural_sector_challenges_for_Azerbaijan
6. World Bank. (2023). *Climate change and agriculture in Azerbaijan*. World Bank. https://www.worldbank.org/en/country/azerbaijan
7. Quliyev E.Ə. Azərbaycanda "yaşil" kənd təsərrüfatina keçidin sürətləndirilməsi imkanları, / E.Ə. Quliyev, Aqrar Tədqiqatlar Mərkəzinin "Kənd Təsərrüfatının İqtisadiyyatı" elmi-praktik jurnalının Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunmuş XÜSUSİ BURAXILIŞI. № 1 (45), Bakı.- 2024
8. Azərbaycanın 2023 – cü ildə kartof yığımı problemlərlə üzləşir: məhsul, məhsuldarlığına və iqtisadi təsirə daha yaxından baxış.
https://potatoes.news/azerbaijans-potato-harvest-faces-challenges-in-2023-a-closer-look-at-crop-yields-and-economic-impact/
9. Taşkin, K. Türk tariminda destekleme ödemelerinin transfer etkinliği, DPT-Uzmanlık Tezleri Ankara 2009,
https://www.sbb.gov.tr/wp-content/uploads/2022/08/Turk-Tariminda-Destekleme-Odemelerinin-Transfer-Etkinligi-Kutluhan-Taskin.pdf
10. https://www.agro.gov.az/az/news/010920254
11. Kənd təsərrüfatı və qida məhsulları bazarının fəaliyyətinin inkişafı sahəsində əlavə tədbirlər haqqında, Prezident İlham Əliyevin 2014-cü il 16 yanvar tarixli Sərəncamı, https://e-qanun.az/framework/26976
12. Quliyev, E.Ə. Kənd təsərrüfatının və kəndin inkişafının mövcud vəziyyəti və inkişaf perspektivləri, / E.Ə. Quliyev, "KOOPERASİYA" ELMİ-PRAKTİKİ JURNALI №1(72)-2024, 217 s. (s 123-131). https://www.kooperasiya-journal.az/wp-content/uploads/2024/03/1-72-2024.pdf
13. Quliyev, E.A. Kooperasiya hərəkatı: təkamülü, mövcud durumu və inkişaf meylləri, / B.X., Ataşov, E.B., Ələkbərov, Monoqrafiya, Bakı, "Kooperasiya" nəşriyyatı, - 2021. 344 s.
14. World Bank. (2023). World Development Indicators.
https://databank.worldbank.org/source/world-development-indicator
15. Quliyev, E.Ə., Səfərov, C.N. Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktik jurnal, № 2 (46) BAKI – 2024, https://atm.gov.az/pdf/magazine/jurnal-n2-2024-online-son856.pdf
16. İbrahimov, İ.H. Aqrar sahənin iqtisadiyyatı, / İ.H. İbrahimov, Monoqrafiya, Bakı, - 2016. 655 s.

UNEC, İl 13, Cild 13, oktyabr – dekabr, 2025, səh. 77-98
UNEC, Year 13, Volume 13, October – December 2025, pp. 77-98

ADVANCING ECONOMIC PROSPERITY THROUGH INNOVATION: THE AZERBAIJANI MODEL OF INNOVATION-DRIVEN ECONOMIC GROWTH

Daxil olub: 26 avqust 2025-ci il
Qəbul olunub: 1 dekabr 2025-ci il

Received: 26 August 2025
Accepted: 1 December 2025

Namig Abbasov
Ph.D. student, Institute of economics
namig.abbasov@gmail.com
https://orcid.org/0000-0002-5196-0488

DOI: https://doi.org/10.30546/UNECSR.2025.04.3012

Abstract

This study proposes a novel economic development model for Azerbaijan, leveraging the "Quintuple Helix" framework to drive innovation-based growth and ensure long-term sustainability. As Azerbaijan transitions from a resource-dependent economy to one driven by innovation, competitiveness, and diversification, this research provides an analysis of both domestic innovation activities and international best practices to formulate a comprehensive model.

The proposed model emphasizes the integrated collaboration of five key stakeholders: government, private sector, research and educational institutions, civil society, and ecological sustainability. Such collaboration is essential for the successful implementation of innovation-led economic transformation. Strategic priorities identified within the model include renewable energy, development of the startup ecosystem, growth of small and medium-sized enterprises (SMEs), and expansion of the digital economy.

This research underscores the critical role of coordinated policy measures and regulatory reforms in fostering a robust innovation ecosystem. The findings provide valuable insights for policymakers, business leaders, and academic institutions, offering a structured approach to enhancing Azerbaijan's competitiveness and sustainability in a rapidly evolving global economy.

The study also calls for future research that incorporates empirical case studies and quantitative evaluations to assess the practical impact of the proposed model.

Keywords: *innovation, technological innovation, research and development, innovation policy, green technology, start up, macroeconomic policy coordination, development.*

JEL Classification: *O31, O32, O38, Q55, L26, E61*

İNNOVASİYA VASİTƏSİ İLƏ İQTİSADİ RİFAHIN İNKİŞAFI: İNNOVASİYALI İQTİSADİ ARTIMIN AZƏRBAYCAN MODELİ

Namiq Abbasov
doktorant, İqtisadiyyat İnstitutu

Xülasə

Bu tədqiqat Azərbaycanda innovasiyaya əsaslanan iqtisadi artımı stimullaşdırmaq və uzunmüddətli dayanıqlılığı təmin etmək məqsədilə "Beşli Spiral" yanaşmasına söykənən yeni iqtisadi inkişaf modelini təklif edir. Azərbaycanın resurslara əsaslanan iqtisadiyyatdan innovasiyalı iqtisadiyyata və iqtisadiyyatın diversifikasiya olunmasına keçid mərhələsində olduğu bir vaxtda, bu araşdırma həm ölkədaxili innovasiya fəaliyyətlərini, həm də beynəlxalq təcrübələri təhlil edərək hərtərəfli yeni model formalaşdırır.

Təklif olunan model hökumət, özəl sektor, elm (tədqiqat və təhsil), vətəndaş cəmiyyəti və ekoloji dayanıqlılıqdan ibarət beş əsas elementin inteqrasiyalı əməkdaşlığını vurğulayır. Bu əməkdaşlıq innovasiyaya əsaslanan iqtisadi transformasiyanın uğurlu icrası üçün həlledici əhəmiyyət daşıyır. Model çərçivəsində müəyyən edilən strateji prioritetlərə bərpa olunan enerji, startap ekosisteminin inkişafı, kiçik və orta sahibkarlığın böyüməsi və rəqəmsal iqtisadiyyatın genişlənməsi daxildir.

Araşdırma daxilində güclü innovasiya ekosisteminin formalaşmasında koordinasiyalı siyasət tədbirlərinin və normativ-hüquqi islahatların mühüm rol oynaması vurğulanır. Nəticədə siyasətçilər, biznes liderləri və akademik müəssisələr üçün dəyərli tövsiyələr təqdim edilir, Azərbaycanın sürətlə dəyişən qlobal iqtisadiyyatda rəqabət qabiliyyətini və dayanıqlılığını artırmaq üçün strukturlaşdırılmış yanaşma təklif edilir.

Açar sözlər: *innovasiya, texnoloji innovasiya, elmi tədqiqat, innovasiya siyasəti, yaşıl texnologiya, startap, makroiqtisadi siyasətin koordinasiyası, inkişaf.*

РАЗВИТИЕ ЭКОНОМИЧЕСКОГО БЛАГОСОСТОЯНИЯ ПОСРЕДСТВОМ ИННОВАЦИЙ: АЗЕРБАЙДЖАНСКАЯ МОДЕЛЬ ИННОВАЦИОННОГО ЭКОНОМИЧЕСКОГО РОСТА

Намиг Аббасов
докторант, Институт Экономиики

Резюме

Данное исследование предлагает новую модель экономического развития Азербайджана, основанную на концепции «Пятикратной спирали», с целью стимулирования инновационного экономического роста и обеспечения долго-

срочной устойчивости. В период перехода Азербайджана от ресурсозависимой экономики к инновационной и диверсифицированной экономике данное исследование анализирует как внутреннюю инновационную деятельность, так и международный опыт, формируя комплексную модель.
Предлагаемая модель акцентирует интегрированное сотрудничество пяти ключевых элементов: государства, частного сектора, науки (исследовательских и образовательных институтов), гражданского общества и экологической устойчивости. Такое сотрудничество имеет решающее значение для успешной реализации инновационно-ориентированной экономической трансформации. В рамках модели стратегическими приоритетами определены возобновляемая энергетика, развитие стартап-экосистемы, рост малого и среднего предпринимательства, а также расширение цифровой экономики.
В исследовании подчеркивается важная роль координированных мер государственной политики и нормативно-правовых реформ в формировании сильной инновационной экосистемы. В результате для политиков, бизнес-лидеров и академических институтов представлены ценные рекомендации, предлагающие структурированный подход к повышению конкурентоспособности и устойчивости Азербайджана в условиях стремительно меняющейся глобальной экономики.

Ключевые слова: *инновация, технологическая инновация, научное исследование, инновационная политика, зеленые технологии, стартап, координация макроэкономической политики, развитие.*

INTRODUCTION

In the contemporary era, innovation has become a fundamental driver of economic growth and long-term prosperity. Countries that effectively integrate innovation into their economic policies gain a significant competitive advantage in the global market. The rapid advancement of digital technologies, artificial intelligence, and automation has transformed traditional economic structures, making knowledge and technological capabilities essential components of sustainable development. In this context, fostering an innovation-driven economy is no longer a choice but a necessity for nations seeking to achieve long-term economic resilience, higher productivity, and diversification of income sources.
For Azerbaijan, a country with a historically resource-dependent economy, transitioning towards an innovation-led growth model is a strategic imperative. The nation has experienced significant economic expansion over the past few decades,

primarily driven by oil and gas revenues. However, heavy reliance on natural resources presents inherent risks, including price volatility in global energy markets and the eventual depletion of fossil fuel reserves. To mitigate these challenges and secure sustainable economic progress, Azerbaijan must embrace a well-structured, innovation-driven growth strategy that aligns with its national priorities and long-term vision.

An effective innovation-based economic model for Azerbaijan should be tailored to its specific economic, social, and institutional characteristics. This model should prioritise the development of a knowledge-based economy by fostering a strong research and development (R&D) ecosystem, investing in human capital, supporting entrepreneurship, and enhancing technological capabilities across various sectors. Additionally, strengthening linkages between academia, industry, and government institutions is crucial for fostering an environment conducive to innovation and commercialisation of research.

This study aims to explore the concept of innovation-driven economic growth in both theoretical and practical contexts, assessing its potential impact on the Azerbaijani economy. By examining global best practices and analysing Azerbaijan's unique economic conditions, the research seeks to identify optimal strategies for fostering innovation-led development. The findings of this study will provide valuable insights into how Azerbaijan can effectively leverage innovation to enhance economic resilience, improve competitiveness, and achieve long-term prosperity in the face of global economic transformations.

LITERATURE REVIEW

The concept of innovation-driven economic growth has been extensively studied as one of the fundamental research areas in modern economics. Innovation is widely recognised as a key determinant of long-term economic growth, driving productivity enhancements, industrial transformation, and technological progress. Over the past century, numerous economic theories have explored the role of innovation in shaping national economies, emphasising the mechanisms through which technological advancements contribute to sustainable development. The experiences of developed economies have provided empirical evidence on the effectiveness of innovation-led policies in fostering economic resilience, competitiveness, and structural transformation.

One of the foundational theories explaining the intricate relationship between innovation and economic growth is Joseph Schumpeter's concept of "creative

destruction" (Schumpeter, 1942) [25]. Schumpeter argues that innovation serves as a disruptive force that continuously replaces obsolete production processes with more efficient and advanced technologies. This process not only fuels economic dynamism but also fosters entrepreneurial activity, leading to the emergence of new industries and business models. Schumpeter's insights laid the groundwork for numerous studies exploring how technology-driven change stimulates economic progress.

Building upon Schumpeter's ideas, economists such as Robert Solow (1956) [26], Paul Romer (1990) [23], and Philippe Aghion & Peter Howitt (1992) [15] have further examined the role of innovation in economic development. Solow's neoclassical growth model posits that technological progress is an exogenous factor influencing long-term economic growth. In contrast, Romer's endogenous growth theory (1994) [24] shifts the focus towards internal drivers of innovation, arguing that knowledge accumulation and investment in human capital are critical to sustained economic expansion. Aghion and Howitt (1992) expand on these ideas by integrating Schumpeterian creative destruction into growth theory, demonstrating how competition and technological advancements lead to higher productivity levels.

Empirical research based on the experiences of high-income economies underscores that innovation is a fundamental prerequisite for transitioning from a resource-based to a knowledge-driven economic model. Michael Porter (1990) [13] approaches innovative economic development from the perspective of competitive advantage, emphasising the necessity of increasing R&D expenditures and fostering a dynamic business environment for sustained national growth. Porter's diamond model illustrates how innovation-intensive economies thrive by leveraging strong institutional frameworks, skilled labour, and strategic industry-government collaboration.

International organisations such as the OECD, the World Bank, and the World Economic Forum have conducted extensive studies on innovation policies, confirming that digital transformation, investment in scientific research, and the development of startup ecosystems play a crucial role in economic prosperity. Reports from these institutions emphasise that economies investing in cutting-edge technologies, artificial intelligence, and sustainable energy solutions experience higher productivity gains and long-term stability. Additionally, the Global Innovation Index serves as a key benchmark for assessing national innovation capabilities, highlighting the role of innovation policies in shaping economic trajectories.

Academic research has also explored Azerbaijan's innovation landscape, identifying key challenges and opportunities. Studies by A. Huseynova (2020) [8] and N. Abbasov (2019, 2022) [1, 2] analyse various aspects of innovation-driven economic growth in Azerbaijan, focusing on policy implementation, institutional frameworks, and the role of foreign direct investment (FDI) in technological advancement. Additionally, reports from the Centre for Analysis of Economic Reforms and Communication emphasize the significance of venture capital development, startup ecosystem support, and digitalization in fostering an innovation-led economy. Despite these efforts, Azerbaijan faces several obstacles, including relatively low R&D expenditure as a percentage of GDP, limited university-industry collaboration, and the need for more structured incentive mechanisms to promote private-sector innovation.

Governments play a crucial role in shaping national innovation ecosystems by providing financial support, establishing regulatory frameworks, and fostering collaboration between key stakeholders. According to Abbasov (2023) [3], the state is not merely responsible for setting legal and institutional conditions but also directly engages in funding and implementing incentive policies that stimulate research, technological development, and entrepreneurship. Government intervention is particularly essential in emerging economies, where private-sector investment in innovation remains limited due to high risks and uncertain returns.

International studies highlight various models of state involvement in innovation-driven economic growth. The OECD (2024) [14] discusses how governments worldwide balance financial support for innovation while addressing broader policy objectives such as productivity enhancement, environmental sustainability, and digital inclusion. Many governments adopt a mission-orientated innovation policy, directing investments toward strategic sectors such as renewable energy, biotechnology, and artificial intelligence. Countries with well-established national innovation strategies—such as South Korea, Israel, and Finland—demonstrate that sustained public investment in R&D and strong institutional coordination significantly contribute to long-term economic competitiveness.
The development of innovation ecosystems, encompassing infrastructure, institutions, and networks that support innovative activities, has become a critical area of research in recent years. Autio & Thomas (2014) [4] argue that effective innovation ecosystems rely on close collaboration between government agencies, private enterprises, universities, and research institutions. This triple-helix model [7] suggests that a well-functioning innovation ecosystem is not limited to technology

hubs or startup incubators but requires an integrated approach that considers economic, social, and institutional dimensions.

METHODOLOGY

The primary methodology in this study is based on a systematic and integrative analysis of the innovation-driven economic growth model. This systematic approach examines the interrelationships between various elements of the innovation ecosystem, ensuring that the model reflects the complex and dynamic nature of the innovation process. The analysis emphasizes the importance of collaboration between government, academia, industry, civil society, and environmental factors. By examining these elements within Azerbaijan's context, the study aims to formulate a model that accelerates innovation-led economic development while addressing national challenges.

The innovation model presented here is constructed with a focus on socio-economic development through the promotion of technological advancement, entrepreneurship, and the creation of a knowledge-based economy. This approach is grounded in the understanding that successful economic growth is increasingly dependent on the ability of countries to adapt to technological advancements and foster innovation at all levels of society.

RESULTS

To conduct a comparative analysis of innovation activities in Azerbaijan, the key input and output components are examined in relation to other countries. A comparison is made between Azerbaijan and three countries with similar populations, as well as three Baltic countries. The relevant indicators for 2023 are shown in Table 1.

Table 1. Comparison of key indicators characterizing innovation activities in Azerbaijan and other 7 countries for 2023

Indicators	Azerbaijan	Georgia	Belarus	Austria	Israel	Latvia	Lithuania	Estonia
Some indicators of innovation inputs								
Number of researchers per million inhabitants (full-time equivalent).	1741.1	1623.7	1417.7	6163	5557	2403.6	3940.7	4037.4
Expenditure on scientific research as a share of GDP, in percentage.	0.2	0.3	0.5	3.2	5.6	0.7	1.1	1.8

Expenditure on education as a share of GDP, in percentage.	3.5	3.6	4.7	5.2	6.1	4.4	4	5.3
Import of ICT services as a share of total trade, in percentage.	0.4	1	1	3.4	2.2	1.5	1.3	10
Patent applications (residents and abroad).	248	112	430	10866	15410	236	449	282
By residents.	235	96	377	4134	1435	167	195	96
Abroad.	13	16	53	6732	13975	69	254	186
Ranking position of patent applications.	72	81	65	19	15	75	61	70
International applications for Patent Cooperation Treaty (PCT) agreements.	10	6	16	1547	1906	30	42	32
Some indicators of innovation outputs.								
Patent Grants.	108	122	302	1151	5358	71	93	9
Active patents.	250	892	1490	143690	38145	11282	12990	11752
Patents by origin / billion PPP$ GDP.	0.9	1.4	1.8	7.8	3.6	1.9	1.3	1.7
Scientific and technical articles as a share of GDP in billion PPP dollars.	4.1	11.6	5.8	29.5	29.5	18	23.7	36.3
Cited documents, H-index.	5.9	10.8	10.2	44.4	46.7	9.8	13.6	18.5
High-tech production, in percentage.	12.3	10.4	29.5	45.7	38	18	24.5	29.9
High-tech exports as a share of total trade, in percentage.	0.1	1	1.8	7.9	12.3	7.7	6.1	9.7
Export of ICT services as a share of total trade, in percentage.	0.5	2.3	6.8	3.6	19.2	4.5	2.9	7.2

Source: Global Innovation Index (GII) Report 2023 [29], WIPI, 2023 [30].

In 2023, the number of full-time equivalent (FTE) scientific researchers per million population in Azerbaijan was 1,741.1. In comparison, this figure stood at 6,163 in Austria, 5,557 in Israel, 4,037.4 in Estonia, 2,403.6 in Latvia, 3,940.7 in Lithuania, 1,623.7 in Georgia, and 1,417.7 in Belarus. These statistics indicate that the number of scientific researchers in developed countries is significantly higher than in Azerbaijan. For instance, in Austria, it is 3.5 times higher, and in Israel, it is 3.2 times higher.

The share of research and development (R&D) expenditures in GDP further underscores this disparity. In Azerbaijan, R&D expenditures constitute only 0.2% of

GDP, whereas in Austria, this share is 3.2%; in Israel, it reaches 5.6%; in Estonia, 1.8%; and in Lithuania, 1.1%. Among the selected countries, Azerbaijan exhibits the lowest R&D expenditure relative to GDP. Similarly, education expenditures as a percentage of GDP highlight Azerbaijan's comparatively lower investment in human capital. While Azerbaijan allocates 3.5% of its GDP to education, this proportion stands at 6.1% in Israel, 5.3% in Estonia, 5.2% in Austria, and 4.7% in Belarus, positioning Azerbaijan at the lowest rank among these countries.

With regard to the import of information and communication technology (ICT) services as a proportion of total trade, Azerbaijan again demonstrates the lowest figures. Specifically, ICT service imports in Azerbaijan account for 0.4% of total trade, whereas in Austria, this figure is 3.4%; in Israel, 2.2%; in Estonia, 10%; in Georgia and Belarus, 1%; in Latvia, 1.5%; and in Lithuania, 1.3%. These statistics suggest that Azerbaijan relies less on imported ICT services compared to the other countries under review.

In the global ranking of patent applications, Azerbaijan holds the 72nd position with 248 applications, ranking higher than Georgia (112 applications) and Latvia (236 applications) but falling behind the other countries analysed.

Beyond these statistical indicators, it is important to consider Azerbaijan's overall performance in innovation. According to the Global Innovation Index (GII) 2023 report, Azerbaijan's innovation input indicators are considerably lower than those of the other selected countries. Furthermore, data from the State Statistical Committee of Azerbaijan (SSC) reveal that in 2023, investments in fixed capital within the industrial sector amounted to 8.4 billion manat, representing 26.2% of total investments (Investments, 2023). The trends in fixed capital investments in industry and expenditures on technological innovations from 2010 to 2023, along with their share in total investments, are presented in Table 2.

Table 2. Dynamics of expenditures on technological innovations in Azerbaijan from 2010 to 2023.

Years.	Investments directed to fixed capital in industry, thousand AZN. (1USD=1.7AZN or 1.7 manat)	Expenditures on technological innovations, thousand AZN.	Share of expenditures on technological innovations in investment, in percentage.
2010	4276000	8139	0.19
2015	8499900	35179.1	0.41
2020	9065300	35919.8	0.39
2021	7507300	5848.3	0.078

2022	7172100	22540.4	0.314
2023	8405700	11666.7	0.138

Source: Compiled by the author according to the database of SSC [10, 11].

Compared to 2010, investments directed toward fixed capital in the industrial sector increased by 1.96 times in 2023, reaching 8,405.7 million manats. However, the share of expenditures on technological innovations within total investments exhibited a declining trend, constituting only 0.14% in 2023, compared to 0.19% in 2010 and 0.5% in 2019. Notably, in absolute terms, expenditures on technological innovations decreased to 11.66 million manats in 2023, underscoring the persistently low levels of investment in this domain.

To assess the effectiveness of innovation efforts, it is essential to examine key innovation output indicators. So, in 2023, the number of patents per unit of GDP (in purchasing power parity, PPP dollars) by origin was 0.9 in Azerbaijan, 1.8 in Belarus, 1.4 in Georgia, 7.8 in Austria, 3.6 in Israel, 1.9 in Latvia, 1.3 in Lithuania, and 1.7 in Estonia. The total number of active patents was recorded as follows: 250 in Azerbaijan, 892 in Georgia, 1,490 in Belarus, 143,690 in Austria, 38,145 in Israel, 11,282 in Latvia, 12,990 in Lithuania, and 11,752 in Estonia (GII 2023).

In terms of scientific and technical article output per billion PPP dollars of GDP, Azerbaijan reported 4.1 articles, significantly lower than the figures observed in other countries: 11.6 in Georgia, 5.8 in Belarus, 29.5 in Austria, 29.5 in Israel, 18 in Latvia, 23.7 in Lithuania, and 36.3 in Estonia.

The share of high-tech production in total manufacturing serves as another critical indicator of innovation performance. In 2023, this share stood at 12.3% in Azerbaijan, which was higher than Georgia's 10.4% but considerably lower than Belarus (29.5%), Austria (45.7%), Israel (38%), Latvia (18%), Lithuania (24%), and Estonia (29.9%). For further context, high-tech manufacturing accounted for a significantly larger proportion in G7 economies, including 42.4% in the U.S., 54.6% in Japan, 52.9% in Germany, 42.9% in the U.K., 34.7% in Canada, 48.8% in France, and 38.3% in Italy.

The performance of Azerbaijan in high-tech exports is also comparatively weaker. The share of high-tech exports in total trade was a mere 0.1% in Azerbaijan, whereas this figure was 1% in Georgia, 1.8% in Belarus, 7.9% in Austria, 12.3% in Israel, 7.7% in Latvia, 6.1% in Lithuania, and 9.7% in Estonia.

Based on the analysis of these innovation output indicators, it can be concluded that Azerbaijan's performance remains considerably below that of developed countries. In the following section, the efficiency of innovation outcomes relative to innovation inputs in 2023 will be analysed through a comparative assessment of various countries, as illustrated in Graph 1.



Graph 1. Comparison of Innovation Activity Outcomes in Selected Countries (2023)
Source: Prepared by the author based on statistical indicators from the 2023 GII report.

Further promote the standardization of AI technology, especially in key areas such as intelligent manufacturing and autonomous driving, promote the docking and unification of domestic and foreign technical standards, and provide stable technical support for industrial development.

Increase support for AI talent training and innovation

Continue to increase the training of AI talents, and cultivate more AI talents with an international perspective through the collaborative cooperation of universities, research institutions and enterprises. At the same time, it is recommended to increase funding for the research and development of core technologies to promote breakthroughs in basic research and applied technologies.

Strengthen intellectual property protection and legal protection

Improve the intellectual property protection mechanism in the field of AI, especially in the process of technological innovation, to protect the legitimate rights and interests of inventors and enterprises. At the same time, accelerate the formulation and implementation of AI-related laws and regulations to provide legal protection for the healthy development of AI technology.

Current status and strategic path of Azerbaijan's artificial intelligence policy

Before entering the mid-2020s, Azerbaijan had not yet formed a complete artificial intelligence policy system. AI technologies were mostly scattered in relevant strategic documents such as digitalization, ICT (information and communication technology) and education, lacking a coordinated deployment at the national level. However, with the enhancement of digital sovereignty, governance modernization and national strategic awareness of technology, the Azerbaijani government officially approved the "Artificial Intelligence Strategy (2025-2028)" in 2025, marking a new stage of institutionalization and systematization of artificial intelligence policy. This strategy and the subsequent "Artificial Intelligence Strategy Implementation Plan" together constitute the starting point of the country's AI policy system, and its content reflects a strong policy logic of basic capability orientation and institutional construction priority [5].

Starting from the macro-goals of national development, this strategy clearly regards AI technology as an important tool to promote economic diversification, improve national governance effectiveness and participate in global scientific and technological competition. The document proposes four strategic goals: first, to consolidate the technical infrastructure, including the upgrade of data centers,

computing resources and network systems; second, to build a talent ecosystem, and promote colleges and universities and scientific research institutions to add AI-related courses and set up joint laboratories; third, to encourage the guiding application of AI in specific industries, especially in areas with social foundation effects such as agricultural modernization, financial technology and public health; fourth, to build an ethical governance and international coordination framework, emphasizing the sharing of standards and interoperable technologies with countries in the Eurasian region [6].

It is worth noting that unlike China's systemic evolution led by the state and promoted in stages, Azerbaijan's policy is more inclined to the path of "scenario-driven-capability catching up". At the current stage, its artificial intelligence strategy reflects the structural characteristics of the trinity of "policy planning-capacity building-international cooperation", showing a strong learning-oriented national policy style. Although the policy tools are limited, the direction is clear and the rhythm is tight, which provides a good starting point for the construction of the medium- and long-term AI governance system.

From the market perspective, according to public data, the valuation of Azerbaijan's artificial intelligence-related market in 2023 is about US$50 million, and it is expected to grow to US$150 million by 2027, with an average annual growth rate of about 22-25% [7]. AI is mainly used in traffic monitoring, smart agriculture, financial risk control and health data management. Relevant higher education institutions such as ADA University and Baku Engineering University have opened artificial intelligence courses, and gradually promoted talent training in line with national strategies. According to the "AI Readiness Index" released by the ResearchGate platform, Azerbaijan's total score in 2023 is 48.15, with uneven performance in the four dimensions of government execution ability, infrastructure, technical level and data ability, especially in terms of technology maturity and industrial mobilization [8].

In terms of legal and institutional construction, as of early 2025, Azerbaijan has not yet formulated special AI regulations, but there are relevant general laws (such as data protection and cybersecurity laws) that can be applied to AI scenarios. The country plans to promote the construction of AI ethical standards during the strategic implementation period, and introduce international experience by signing memorandums of cooperation on technology and governance with countries such as Israel and South Korea.

In general, Azerbaijan's AI policy system is still in the stage of "initial strategic

framework - establishment of implementation mechanism", with the following prominent features: highly centralized top-level planning, emphasis on international cooperation and talent introduction, and emphasis on pilot-oriented scenario-based applications of AI. Although this strategic path is different from China's development model, it reflects the country's high attention to the governance of emerging technologies and its willingness to act. In the future, with the enhancement of infrastructure and technological accumulation, Azerbaijan is expected to move towards a more systematic and self-organizing policy stage.

Table 1: Azerbaijan AI Industry Development Analysis

Dimension	2023	2027 Forecast
Market Size	$50 million	$150 million
Key Areas	Transportation, healthcare, finance	Same, with deeper penetration
Government Strategy	"AI Strategy (2025-2028)" approved	Strategy in progress
Talent Development	AI courses at ADA, Baku Engineering	More AI training programs
Legal Framework	No dedicated laws yet	Laws to be established
International Cooperation	Agreements with Israel	Expanded international partnerships

Comparative Analysis and Policy Recommendations of China-Azerbaijan Artificial Intelligence Policy Systems

Through the systematic review and structural evaluation of China and Azerbaijan's artificial intelligence policy systems, it can be seen that the two countries have obvious similarities and differences in AI governance concepts, strategic deployment, institutional execution and policy tool configuration. This difference is not only due to differences in national systems, but also deeply reflects the structural differences between the two countries in development stages, resource endowments and technological capabilities. This chapter attempts to compare the AI policy systems of China and Azerbaijan from three dimensions: strategic design logic, institutional governance model and policy implementation path, and on this basis, proposes institutional optimization suggestions applicable to Azerbaijan and cooperation directions for China-Azerbaijan coordinated development.

From the perspective of strategic design, China's AI policy system presents the characteristics of "top-level design-stage advancement-policy differentiation", emphasizing the compatibility of strategic foresight and path dependence. Since the

release of the "New Generation Artificial Intelligence Development Plan" in 2017, China has continuously built a hierarchical and classified policy system through five-year plans, industry-oriented policies and local guidance mechanisms, achieving vertical connection and horizontal coordination between technology research and development, industrialization and governance mechanisms. Azerbaijan will enter the construction period of AI policy around 2025. The strategic logic is mainly based on "capacity building first, scenario introduction leading", and is still in the construction stage dominated by macro-strategy and gradually matched with specific policy tools.

In terms of institutional implementation mechanism, China's AI policy system relies on a strong central-local interaction system, and achieves hierarchical implementation and dynamic correction of policy goals through scientific research funds, industrial funds, data openness and other means [4]. However, Azerbaijan's current implementation mechanism is still in the centralized planning period, led by the Presidential Office and the National Economic Reform and Communication Analysis Center, focusing on planning release and preliminary pilots, and the flexible adjustment and dynamic feedback mechanism of the system are still being improved. This "planning-led-implementation-centralized" model helps to improve execution efficiency in the context of limited resources, but there are also problems of insufficient policy response flexibility and weak local adaptation capabilities [6].

From the perspective of resource mobilization and policy tool configuration, China's AI development is deeply driven by large-scale financial support and the joint innovation mechanism of universities and enterprises. Data shows that from 2017 to 2020, China's AI-related investment doubled, and the number of patents jumped from 5,000 to 12,000 during the same period. However, Azerbaijan's resource allocation is still concentrated on infrastructure investment and education system reform, and technology industrialization, application pilots and ethical governance still rely on international technology input and cooperation. This structural difference determines the focus of the two countries in the use of policy tools: China focuses on promoting system integration and collaborative governance, while Azerbaijan needs more "few but fine" key breakthroughs and institutional construction.

Based on the above comparison, this article puts forward the following policy optimization suggestions for Azerbaijan:

- First, the current AI strategy should be further decomposed into phased tasks, such as "infrastructure improvement period-talent training and accumulation period-industry integration pilot period" to clarify the main direction and

supporting policies at different stages. We can learn from China's policy logic of "time-space-industry" three-dimensional linkage, formulate a roadmap with time nodes and target indicators, and enhance the operability and execution feedback mechanism of strategic implementation.

- Secondly, it is recommended to build a cross-departmental AI coordination mechanism with clear division of labor. At present, the implementation of Azerbaijan's AI policy is mainly concentrated at the central government level, lacking departmental coordination and local feedback mechanisms. We can refer to China's "Ministry of Science and Technology-Ministry of Industry and Information Technology-Local Government" coordination framework to establish a national AI coordination committee to coordinate functional sectors such as technology research and development, data policy, education system and ethical review.
- Secondly, promote scenario-based pilot projects of AI in areas with high social returns. For example, in the fields of smart agriculture, telemedicine, public transportation, etc., there is a real demand basis in Azerbaijan and it does not rely on high-tech barriers. Through cooperation with China on smart projects under the "Belt and Road" initiative, we will carry out China-Azerbaijan joint application demonstration projects to achieve the simultaneous advancement of technology introduction and governance capacity cultivation in a "soft output" manner.
- Finally, we should start to establish a local AI legal and ethical framework as soon as possible to ensure data sovereignty, privacy protection and social justice in the process of technology expansion. We can introduce China's legislative experience in the "Personal Information Protection Law" and "Artificial Intelligence Governance Principles", and at the same time combine the country's legal system and religious culture to create a local applicable AI governance foundation.

In general, as an "emerging country" in the construction of AI policy system, Azerbaijan is in a critical period of transition from "cognitive stage" to "institutional stage". China's experience is of great reference value to it, but what is more critical is to build a local path that is "absorbable, matchable and executable". Through a structural comparison of the macro policy system, this study reveals the institutional commonalities and differences between China and Azerbaijan in the process of AI policy evolution, and provides a feasible framework and path suggestions for how Azerbaijan can position its AI development strategy in digital governance, scientific

and technological innovation and foreign cooperation in the future.

CONCLUSION

Against the global background of the continuous development of artificial intelligence technology, building a systematic national policy system has become the key to promoting the implementation of AI strategy [9]. Focusing on the two core dimensions of "policy evolution path" and "strategic structure", this paper systematically compares the construction logic and institutional characteristics of China and Azerbaijan's artificial intelligence policy systems, revealing the systematic differences between the two countries in policy maturity, resource allocation and governance structure.

The study found that China's AI policy system was formed earlier, with the characteristics of high institutionalization and phased evolution, relying on central-local linkage to achieve full-chain management from technology research and development to industrial governance. Since Azerbaijan established its national AI strategy in 2025, it has started a policy construction phase oriented towards capacity building, focusing on infrastructure, talent training and international cooperation, reflecting the path characteristics of scenario guidance and strategy first.

The differences between China and Azerbaijan's policy systems not only reflect different institutional environments, but also reflect the objective divisions in governance tools and development stages. China focuses on top-level design and coordinated implementation, while Azerbaijan actively explores in the practice of "strategy setting-capability matching", showing strong policy absorption and transformation capabilities. The gap between the two also provides Azerbaijan with experience to learn from in building a more feasible local AI policy system.

This article constructs a "vertical evolution + horizontal structure" analysis framework, which enriches the research paradigm of cross-national AI policy comparison in theory; in practice, it provides policy recommendations for the optimization of Azerbaijan's AI governance system. Future research can further focus on local governance differences, policy industry influence mechanisms, and more horizontal comparisons among emerging countries to explore the diversified evolution paths of the global AI policy system.

Artificial intelligence not only represents technological competitiveness, but also reflects the institutional capabilities of a country. The complementarity and mutual learning between China and Azerbaijan in the policy system will not only help Azerbaijan achieve institutional transition, but also provide a useful reference for the

diversified development of global AI governance.

REFERENCES

1. State Council of the People's Republic of China. (2017). New Generation Artificial Intelligence Development Plan. http://www.gov.cn/zhengce/content/2017-07/20/content_5211996.htm
2. State Council of the People's Republic of China. (2021). The 14th Five-Year Plan for National Economic and Social Development of the People's Republic of China and the Long-Range Objectives Through the Year 2035.
3. Zhang, H. (2020). China Artificial Intelligence Industry Development Report (2020). Science and Innovation, 25(3), 12–22.
4. National Development and Reform Commission. (2025). Special Action Plan on "AI +" Industry Applications. Beijing: NDRC Policy Release.
5. Office of the President of the Republic of Azerbaijan. (2025). Artificial Intelligence Strategy of the Republic of Azerbaijan (2025–2028). Baku.
6. Office of the President of the Republic of Azerbaijan. (2025). Implementation Plan for the Artificial Intelligence Strategy. Baku.
7. Savaş, O. (2025). Intelligence Rising: Artificial Intelligence in the Azerbaijani Market. LinkedIn Article. https://www.linkedin.com/pulse/intelligence-rising-artificial-azerbaijani-market-in2025
8. ResearchGate. (2025). AI Readiness Index Results for Azerbaijan.https://www.researchgate.net/
9. United Nations Development Programme (UNDP). (2020). Global AI Governance Framework: Promoting International Cooperation in AI Regulation. UNDP China.

UNEC, İl 13, Cild 13, oktyabr – dekabr, 2025, səh. 116-126
UNEC, Year 13, Volume 13, October – December 2025, pp. 116-126

YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASINDA DİZAYN VƏ BRENDİNQƏ YÖNƏLMİŞ İNVESTİSİYALARIN ROLU

Daxil olub: 9 sentyabr 2025-ci il
Qəbul olunub: 5 dekabr 2025-ci il
Received: 9 September 2025
Accepted: 5 December 2025

Günay Həşimova
doktorant, Bakı Biznes Universiteti
gunay.hesimova07@gmail.com
https://orcid.org/0009-0002-7036-0020

DOI: https://doi.org/10.30546/UNECSR.2025.04.3027

Xülasə
Bu məqalədə yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində dizayn və brendinqə yönəlmiş investisiyaların rolu araşdırılır. Müasir qlobal bazarlarda yalnız istehsal gücü deyil, həm də məhsulların estetik dəyəri, fərqləndirici xüsusiyyətləri və brend kapitalı əsas rəqabət üstünlüyü kimi çıxış edir. Məqalədə ilk olaraq dizayn və brendinqin iqtisadi məzmunu, onların müəssisələrin bazar mövqeyinə təsir mexanizmləri izah olunur. Daha sonra Azərbaycanda yüngül sənaye sektorunun mövcud vəziyyəti, dizayn mərkəzlərinin fəaliyyəti, brend yaradılması prosesində qarşıya çıxan institusional və maliyyə məhdudiyyətləri təhlil olunur. Əldə edilən nəticələr göstərir ki, dizayn və brendinqə yönəlmiş məqsədli investisiyalar istehsalın sadəcə həcmini artırmaqla kifayətlənmir, həm də ixrac potensialının genişlənməsinə, "Made in Azerbaijan" konsepsiyasının möhkəmlənməsinə, iş yerlərinin yaradılmasına və beynəlxalq bazarlarda dayanıqlı mövqenin əldə edilməsinə imkan yaradır. Məqalə nəticə olaraq, dövlətin dəstəkləyici siyasətlərinin gücləndirilməsini, KOS-lar üçün dizayn və brendinq laboratoriyalarının qurulması, texnoparklarda innovativ dəstək mexanizmlərinin genişləndirilməsini təklif edir.

Açar sözlər: *dizayn, brendinq, investisiya, yüngül sənaye, rəqabət qabiliyyəti.*

THE ROLE OF INVESTMENTS IN DESIGN AND BRANDING IN ENHANCING THE COMPETITIVENESS OF LIGHT INDUSTRY ENTERPRISES

Gunay Hashimova
Ph.D. Student, Baku Business University

Abstract
This article examines the role of investments directed towards design and branding in enhancing the competitiveness of light industry enterprises. In modern global markets, not only production capacity but also the aesthetic value of products, their

distinctive features, and brand capital emerge as key sources of competitive advantage. The article first explains the economic essence of design and branding and their mechanisms of influence on the market position of enterprises. It then analyzes the current state of the light industry sector in Azerbaijan, the functioning of design centers, and the institutional and financial constraints encountered in the process of brand creationThe findings reveal that targeted investments in design and branding not only increase the volume of production but also contribute to the expansion of export potential, the strengthening of the "Made in Azerbaijan" concept, the creation of new jobs, and the establishment of a sustainable position in international markets. As a result, the article recommends strengthening supportive state policies, establishing design and branding laboratories for SMEs, and expanding innovative support mechanisms in technoparks.

Keywords: *design, branding, light industry, competitiveness, investment.*

РОЛЬ ИНВЕСТИЦИЙ В ДИЗАЙН И БРЕНДИНГ В ПОВЫШЕНИИ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРЕДПРИЯТИЙ ЛЁГКОЙ ПРОМЫШЛЕННОСТИ

Гюнай Гашимова
докторант, Бакинский университет бизнеса

Резюме

В данной статье исследуется роль инвестиций, направленных на дизайн и брендинг, в повышении конкурентоспособности предприятий лёгкой промышленности. В современных глобальных рынках ключевым источником конкурентного преимущества выступает не только производственный потенциал, но и эстетическая ценность продукции, её отличительные характеристики и брендовый капитал. В статье, прежде всего, раскрывается экономическая сущность дизайна и брендинга, а также механизмы их влияния на рыночное положение предприятий. Далее анализируется текущее состояние сектора лёгкой промышленности Азербайджана, деятельность дизайн-центров и институциональные и финансовые ограничения, возникающие в процессе создания брендов. Полученные результаты показывают, что целевые инвестиции в дизайн и брендинг не только увеличивают объём производства, но и способствуют расширению экспортного потенциала, укреплению концепции «Made in Azerbaijan», созданию новых рабочих мест и формированию устойчивых позиций на международных рынках. В заклю-чение в статье предлагается усиление государственной поддержи-вающей политики, создание для МСП лабораторий дизайна и брендинга, а также расширение инновационных механизмов поддержки в технопарках.

Ключевые слова: *дизайн, брендинг, конкурентоспособность., лёгкая промышленность, инвестиции.*

GİRİŞ

Müasir qlobal iqtisadiyyatda rəqabət mübarizəsinin intensivləşməsi istehsal müəssisələrindən yalnız ucuz işçi qüvvəsinə və xammal üstünlüklərinə deyil, həm də məhsulların fərqləndirici xüsusiyyətlərinə, dizayn keyfiyyətinə və güclü brend imicinə malik olmağı tələb edir. İstehlakçı davranışlarının sürətlə dəyişdiyi dövrdə alıcıların qərarvermə prosesinə təsir edən ən mühüm amillərdən biri məhsulun xarici görünüşü, təqdimat tərzi və brendə olan inamdır. Xüsusən yüngül sənaye – tekstil, geyim, ayaqqabı və dəri məmulatları sahəsində rəqabət qabiliyyətli olmaq üçün dizayn və brendinqə yönəlmiş investisiyalar artıq zərurətə çevrilmişdir. Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun şaxələndirilməsi siyasəti çərçivəsində yüngül sənaye prioritet istiqamətlərdən biri hesab olunur və bu sahədə məhsulların dünya bazarına çıxışı yalnız dizayn və brend kapitalı ilə mümkün ola bilər.

Qlobal təcrübə göstərir ki, İtaliya, Türkiyə, Yaponiya və Cənubi Koreya kimi ölkələrin yüngül sənaye müəssisələrinin uğurunun əsas sirri məhsulun yalnız funksional keyfiyyətlərində deyil, həm də estetik və emosional dəyərindədir. "*Made in Italy*" və ya "*Turkish Textile*" kimi brend ifadələri dünya bazarında keyfiyyət rəmzinə çevrilmişdir. Azərbaycanda isə istehsal gücü artmasına baxmayaraq, dizayn mərkəzlərinin azlığı, brend yaratma bacarıqlarının məhdudluğu və beynəlxalq standartlara uyğunlaşdırma prosesinin ləngliyi ixrac imkanlarını məhdudlaşdırır. Yerli istehsalçılar daha çox fason istehsal etmək və ya iri xarici şirkətlərin sifarişlərini yerinə yetirməklə kifayətlənirlər. Bu isə ölkə daxilində milli brendlərin formalaşmasına, əlavə dəyərin ölkə iqtisadiyyatında qalmasına mane olur. Bu səbəbdən dizayn və brendinq sahəsinə yönəlmiş investisiyalar milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaqla yanaşı, Azərbaycanın beynəlxalq imicinin formalaşmasına da xidmət edəcəkdir [1, s.48-49].

Məqalənin əsas məqsədi yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsində dizayn və brendinqə yönəlmiş investisiyaların rolunu araşdırmaq və bu sahədə strateji tövsiyələr irəli sürməkdir. Bu məqsədlə məqalə aşağıdakı suallara cavab tapmağa çalışır:

- Dizayn və brendinqin iqtisadi məzmunu nədir və müəssisələrin bazar mövqeyinə necə təsir edir?
- Azərbaycanda yüngül sənaye müəssisələrinin dizayn və brendinq imkanları hansı vəziyyətdədir?
- Bu istiqamətdə beynəlxalq təcrübədən hansı dərslər götürülə bilər?
- Dövlət dəstəyi və xüsusi investisiya proqramları vasitəsilə KOS-ların brend və dizayn potensialını necə gücləndirmək olar?

Tədqiqatda müqayisəli təhlil metodu ilə beynəlxalq təcrübə öyrənilmiş, İtaliya, Türkiyə və Yaponiyanın uğurlu brend və dizayn modelləri Azərbaycan reallıqları ilə tutuşdurulmuşdur. Empirik hissədə isə Dövlət Statistika Komitəsinin və KOBİA-nın

rəsmi məlumatlarından, həmçinin yerli tekstil müəssisələrinin maliyyə göstəricilərindən istifadə edilmişdir.

Dizayn və brendinq anlayışlarının nəzəri əsasları

Dizayn anlayışı təkcə məhsulun estetik görünüşünü formalaşdırmaqla məhdudlaşmır; o, həm də məhsulun funksional keyfiyyətlərini, istehlakçı rahatlığını və bazarda rəqabət qabiliyyətini təmin edən multidimensional bir konsepsiya kimi qiymətləndirilir. Müasir dizayn nəzəriyyələrinə görə, məhsulun forması, rəngi, toxuması və vizual təqdimatı istehlakçının məhsulu qəbul etməsi və onunla əlaqə qurması baxımından mühüm rol oynayır. Lakin dizayn yalnız vizual aspekt deyil; o, məhsulun istifadəsi zamanı yaranan təcrübəni, ergonomik xüsusiyyətləri, texnoloji uyğunluğu və hətta ekoloji cəhətdən davamlı istehsal proseslərini də əhatə edir. Beləliklə, dizayn məhsulun bazar dəyərinin artırılmasında, fərqlənməsində və istehlakçının məhsula olan bağlılığının formalaşmasında strateji vasitə rolunu oynayır.

Brendinq isə məhsulun bazarda fərdi imicini və dəyərini formalaşdıran iqtisadi və korporativ fəaliyyət sahəsidir. Brend yalnız loqo və ad deyil; o, istehlakçının məhsula dair emosional, sosial və funksional təcrübələrinin toplamıdır. Brend imici istehlakçı ilə məhsul arasında uzunmüddətli emosional bağ yaradır, şirkətin bazar payını möhkəmləndirir və müştəri loyallığını təmin edir. Brend kapitalı (*brand equity*) isə bu prosesin ölçü vahidi hesab olunur və müəssisənin bazar dəyərinin əsas komponentlərindən biri kimi qiymətləndirilir. Yüksək brend kapitalı olan məhsullar istehlakçı tərəfindən yüksəkkeyfiyyətli, etibarlı və prestijli hesab edilir, nəticədə istehlakçı daha yüksək qiymət ödəməyə hazır olur.

Müasir marketinq nəzəriyyələrinə görə, brend kapitalı bir neçə əsas komponentdən ibarətdir: marka şüuru (*brand awareness*), marka imici (*brand image*), müştəri təcrübəsi və marka bağlılığı. Bu komponentlər birgə istehsal olunan məhsul və xidmətlərin əlavə dəyər yaratma mexanizmini gücləndirir, məhsulun bazar mövqeyini möhkəmləndirir və şirkətin uzunmüddətli rentabelliyini təmin edir. İstehlakçı davranışının öyrənilməsi göstərir ki, insanlar artıq yalnız məhsulun funksional keyfiyyətlərini nəzərə almır, həm də onun sosial və mədəni kontekstdə dəyərini, həmçinin brendin təqdim etdiyi prestij və status faktorlarını qiymətləndirirlər.

Xüsusilə yüngül sənaye sahəsində dizayn və brendinq strategiyalarının rolu daha da əhəmiyyətlidir. Tekstil, geyim, ayaqqabı və dəri məmulatları kimi məhsullar yüksək rəqabətli bazarda istehlakçının diqqətini cəlb etməli, fərqli estetik və funksional xüsusiyyətləri ilə seçilməlidir. Bu sahədə uğurlu dizayn yalnız vizual cəlbediciliyi deyil, həm də funksionallığı, rahatlığı və ekoloji uyğunluğu təmin etməklə məhsulun bazar dəyərini artırır. Brendinq isə istehlakçının məhsula bağlılığını gücləndirir, markaya etibar və sosial identifikasiya yaradır, nəticədə şirkət məhsullarını bazarda daha yüksək qiymətə və geniş auditoriyaya təqdim edə bilir.

Dizayn və brendinq yalnız estetika və reklam aləti deyil, həm də strateji iqtisadi vasitələr olaraq, müəssisənin innovasiya potensialını və bazar rəqabətini artıran mühüm elementlərdir. Onların inteqrasiya olunmuş tətbiqi yüngül sənaye müəssisələrinin məhsul portfelini zəngin-ləşdirir, əlavə dəyər yaratmaq imkanlarını genişləndirir və ölkənin qeyri-neft sektorunun rəqabət qabiliyyətini gücləndirir [2, s.210-213].

Yüngül sənayenin mövcud vəziyyəti və investisiya potensialı

Son illərdə Azərbaycanda yüngül sənaye istehsalında artım müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2019–2024-cü illərdə tekstil və geyim məhsullarının istehsalı orta hesabla illik 7–9% artım tempi nümayiş etdirmişdir. Xüsusilə Mingəçevir Tekstil Parkı və Bakı Tekstil Fabriki kimi müəssisələrdə istehsal güclərinin modernləşdirilməsi sahənin inkişafına müsbət təsir göstərmişdir. Bununla belə, brendli məhsulların ixrac payı hələ də ümumi ixracın cəmi 10–12%-ni təşkil edir.

Azərbaycan yüngül sənaye məhsulları əsasən Rusiya, Gürcüstan, Qazaxıstan və Türkiyə bazarlarına ixrac olunur. Lakin beynəlxalq rəqabətdə Türkiyə, Çin, Vyetnam və Banqladeş kimi ölkələrlə müqayisədə milli məhsulların dizayn və brend gücü zəif qalır. Bu da göstərir ki, ixracın davamlı artımı üçün dizayn və brendinq sahəsinə daha böyük həcmdə investisiya tələb olunur [3, s.151-154].

Cədvəl 1. Azərbaycanda yüngül sənaye sektorunun 2019–2024-cü illər üzrə inkişaf dinamikası və ixrac göstəriciləri

İllər	Tekstil və geyim istehsalı (mln manatla)	Artım tempi (%)	İxrac (mln ABŞ dolları)	Brend məhsulların ixrac payı (%)
2019	820	0.0	220	9.5
2020	870	6.1	200	9.8
2021	940	8.0	250	10.2
2022	1010	7.4	310	10.8
2023	1115	10.4	355	11.5
2024	1200	7.6	390	10.2

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır [4, s.17-25].

2019–2024-cü illərdə Azərbaycanda tekstil və geyim istehsalı 820 milyon manatdan 1,2 milyard manata yüksələrək illik orta hesabla 6–10 faiz artım nümayiş etdirmiş, ixrac isə 220 milyon ABŞ dollarından 390 milyon dollara çatmışdır. Bu dinamika istehsalın və xarici satışların genişləndiyini göstərsə də, brendli məhsulların ixrac payı 9,5%-dən 11,5%-ə qədər artsa da, 2024-cü ildə yenidən 10,2%-ə enməsi qeyri-sabitlikdən xəbər verir. Nəticə etibarilə, artım daha çox həcmi əks etdirir, keyfiyyət göstəriciləri isə zəif qalır. Deməli, beynəlxalq rəqabətdə mövqeləri gücləndirmək üçün istehsal gücünü artırmaqla yanaşı, dizayn, brendinq və əlavə dəyər yaratmağa yönəlmiş investisiyaların həcminin artırılması zəruridir.

Dizayn və brendinqə yönəlmiş investisiyaların təsir mexanizmləri

Dizayna və brendinqə yatırılan investisiyalar məhsulun sadəcə istehsal dəyərini deyil, bazar dəyərini də artırır. İqtisadi nəzəriyyələrdə "əlavə dəyər" anlayışı yalnız fiziki istehsal prosesindən yaranmır, həm də istehlakçının məhsula olan qavrayışından formalaşır. Məsələn, eyni materialdan hazırlanmış geyimin sadə fasonu ilə dizayner tərəfindən işlənmiş versiyası arasında bazar qiymətində 30–40%-ə qədər fərq ola bilər. Bu fərq dizayn və brend kapitalı ilə yaranan əlavə dəyərin bariz nümunəsidir. Beynəlxalq təcrübədə "*Zara*" və "*H&M*" kimi şirkətlər istehsal xərclərini minimal saxlayaraq dizayn və sürətli brend yeniləməyə böyük investisiya yatırır, nəticədə məhsullarını yüksək qiymətlərlə bazara çıxarmağı bacarırlar. Azərbaycanda isə Mingəçevir Tekstil Parkının istehsal etdiyi pambıq parçaların xarici bazarlarda əsasən xammal kimi satılması, brendləşmiş geyim formasında isə əlavə dəyərin xarici şirkətlərin payına düşməsi bu mexanizmin hələ tam reallaşmadığını göstərir.

Brendinq yalnız məhsulun tanıdılması deyil, həm də müştəri ilə uzunmüddətli emosional əlaqənin qurulmasıdır. Güclü brend istehlakçıya məhsuldan daha çox dəyər hiss etdirir və təkrar alış vərdişi formalaşdırır. Məsələn, "*Nike*" və "*Adidas*" markaları təkcə idman geyimləri satmır, həm də müştərilərə həyat tərzi və dəyərlər təqdim edirlər. Bu səbəbdən istehlakçılar həmin markaları seçməklə yalnız geyim deyil, sosial kimlik qazanırlar. Azərbaycanda isə bu sahədə müəyyən addımlar atılsa da, hələlik genişmiqyaslı milli brendlər formalaşmayıb. Yerli bazarda "Gilan Tekstil Parkı"nın məhsulları regionlarda tanınsa da, beynəlxalq istehlakçı loyallığını təmin edə biləcək brend imicinə malik deyil. Bu isə KOS-ların dizayn və brendinqə daha çox investisiya yatırmalarını zəruri edir [5, s.77-80].

Rəqəmsal transformasiya dövründə brendinq yalnız fiziki mağazalarla məhdudlaşmır. Onlayn platformalar, sosial media, mobil tətbiqlər və e-ticarət saytları məhsulların təqdimatı üçün əsas vasitəyə çevrilmişdir. Dünyada "*Amazon*", "*Alibaba*" və "*Etsy*" kimi platformalar vasitəsilə satılan məhsulların dəyəri trilyonlarla dollar təşkil edir. Bu platformalarda uğur qazanmaq üçün yalnız keyfiyyətli məhsul kifayət deyil, həm də vizual dizayn, onlayn brend imici və rəqəmsal reklam mühüm rol oynayır. Azərbaycanda son illərdə "*Bravo*", "*Baku Textile Factory*" və bir sıra dizayner evlərinin "*Instagram shop*" və "*Facebook marketplace*" üzərindən satış imkanlarından yararlandığı müşahidə olunur. Lakin milli məhsulların "*Amazon*" və "*Alibaba*" kimi qlobal platformalarda geniş təqdimatı hələ də məhdud səviyyədədir. Bu boşluğun aradan qaldırılması üçün dövlət tərəfindən KOS-lara rəqəmsal marketinq və e-ticarət sahəsində təlim və texniki dəstək proqramlarının gücləndirilməsi zəruridir [6, s.80-83].



Sxem 1. Dizayn və brendinqə yönəldilmiş investisiyaların təsir mexanizmi
Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Beynəlxalq təcrübə: İtaliya, Türkiyə, Yaponiya

İtaliya yüngül sənaye və xüsusilə də moda sahəsində dünyanın aparıcı ölkələrindən biridir. Burada uğurun əsas səbəblərindən biri "moda klasterləri" adlanan regional istehsal şəbəkələridir. Məsələn, Milan, Florensiya və Prato şəhərlərində yerləşən klasterlərdə dizaynerlər, istehsalçılar, logistika şirkətləri və satış mərkəzləri vahid ekosistem daxilində fəaliyyət göstərirlər. Klasterlər dövlətin və bələdiyyələrin dəstəyi ilə formalaşdırılır, KOS-lar üçün ortaq infrastruktur (dizayn studiyaları, sərgi salonları, test laboratoriyaları) yaradılır. Bu model nəticəsində kiçik müəssisələr belə yüksək dizayn və brend səviyyəsinə malik məhsullar istehsal edə bilir və "Made in Italy" etiketi altında qlobal bazara çıxış əldə edirlər.

Türkiyədə də moda və tekstil sahəsi əsasən İstanbul, Bursa və İzmir bölgələrində klaster prinsipi əsasında inkişaf etmişdir. Burada "Osmanbey Moda Mərkəzi" kimi regional strukturlar vasitəsilə dizaynerlər, parça istehsalçıları və pərakəndə satış şirkətləri sıx əməkdaşlıq edir. Bu, Türkiyə tekstilinin yalnız Yaxın Şərqdə deyil, Avropa bazarlarında da rəqabət gücünü artırır.

Yaponiyada moda klasterləri daha çox texnologiya ilə inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərir. Osaka və Tokyo ətrafında formalaşmış moda mərkəzlərində nanoteknologiya, ağıllı tekstil və ekoloji təmiz materialların dizaynla sintezi həyata keçirilir. Bu model Yaponiya məhsullarını funksional, texnoloji və estetik baxımdan üstün mövqeyə gətirmişdir.

İtaliyada dizayn və brendinq fəaliyyətləri yalnız fərdi müəssisələrlə məhdudlaşmır, texnoparklarda və universitetlərdə xüsusi dizayn laboratoriyaları yaradılmışdır. Məsələn, "*Politecnico di Milano*" universitetinin Dizayn fakültəsi ilə sənaye müəssisələri arasında qurulan əməkdaşlıq yeni məhsulların hazırlanmasında və brend konsepsiyalarının inkişafında mühüm rol oynayır.

Türkiyədə dövlətin təşəbbüsü ilə "TÜBİTAK Marmara Araşdırma Mərkəzi" və "Teknopark İstanbul" kimi strukturlarda tekstil və moda dizayn laboratoriyaları fəaliyyət göstərir. Burada rəqəmsal dizayn texnologiyaları, 3D modelləşdirmə, yeni materialların sınaqdan keçirilməsi və e-ticarət platformaları üçün brend strategiyalar hazırlanır. Bu laboratoriyalar həm startaplara, həm də KOS-lara açıqdır və innovasiyalı məhsulların bazara çıxışına şərait yaradır.

Yaponiyada isə texnoparklar daha çox yüksək texnologiyalı dizayn həllərinə fokuslanır. Osaka Tekstil Texnoparkında yaradılmış "*Smart Textile Lab*" ağıllı geyimlərin hazırlanması, sensorlu parça və ekoloji davamlı materialların inkişafı ilə məşğul olur. Bu laboratoriyalar yalnız texniki yeniliklər deyil, həm də brend dəyəri yüksək məhsullar istehsal etmək üçün yaradılmışdır.

İtaliyada brend yaratma siyasəti milli səviyyədə həyata keçirilir. Dövlət dəstəyi ilə "*Italian Trade Agency*" beynəlxalq sərgilərdə milli brendlərin tanıdılmasına və ixrac potensialının artırılmasına yardım göstərir. Kiçik müəssisələr belə bu təşviq-lərdən faydalanaraq "*Made in Italy*" etiketi altında məhsullarını yüksək premium seqmentdə satmağı bacarırlar.

Türkiyə isə bu sahədə unikal bir dövlət proqramı – "*Turquality*" proqramını tətbiq edir. Bu proqram çərçivəsində seçilmiş türk şirkətlərinə dövlət tərəfindən beynəlxalq bazarlarda brendləşmə, marketinq, dizayn, reklam və distribusiya fəaliyyətləri üçün maliyyə dəstəyi göstərilir. Beləliklə, "*Mavi Jeans*", "*Vakko*", "*Koton*" kimi markalar qlobal moda bazarında tanınmış adlara çevrilmişdir.

Yaponiyada brend yaratma mexanizmi texnologiya və innovasiya ilə sıx bağlıdır. Burada məhsulların brendləşməsi yalnız dizayn və reklam vasitəsilə deyil, həm də texniki üstünlüklərin bazarda düzgün mövqeləndirilməsi yolu ilə həyata keçirilir. "*Uniqlo*" brendi buna parlaq nümunədir: sadə dizayn, yüksək keyfiyyət və innovativ material texnologiyası ilə bu marka Asiya bazarından çıxaraq qlobal moda liderlərindən birinə çevrilmişdir [7, s.109-115].

Azərbaycanda mövcud çağırışlar və imkanlar

Azərbaycanın yüngül sənaye sektorunda son illərdə mühüm inkişaf perspektivləri formalaşsa da, dizayn və brendinq sahəsində bir sıra institusional və praktik məhdudiyyətlər qalmaqdadır. Əsas çətinliklərdən biri kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının məhdud olmasıdır. Bank kreditlərinin yüksək faiz dərəcələri, sərt girov tələbləri və uzunmüddətli investisiya vəsaitlərinin çatışmazlığı müəssisələrin dizayn və brendinq fəaliyyətlərinə sərmayə yatırmasını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Nəticədə, məhsulun əlavə dəyər yaradan xüsusiyyətlərinin inkişaf etdirilməsi və bazarda fərqlənməsi prosesi zəifləyir.

Dizayn sahəsində ixtisaslı kadr çatışmazlığı və beynəlxalq standartlara uyğun peşəkar təlim imkanlarının yetərsizliyi də sektor üçün ciddi problem olaraq qalır. Universitetlərdə və texniki məktəblərdə müvafiq ixtisaslaşmış təhsil proqramları olsa da, bu kadrlar sənaye müəssisələrinin real ehtiyaclarına uyğun hazırlanmır. Brend menecment üzrə milli məsləhət və dəstək xidmətlərinin zəif inkişafı isə müəssisələrin bazar strategiyalarını optimallaşdırmasına, məhsulların dəyərini artırmasına və beynəlxalq bazarlarda mövqelərini gücləndirməsinə əngəl törədir.

Bununla yanaşı, dövlət səviyyəsində sektorun inkişafı üçün mühüm təşəbbüslər həyata keçirilir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) startapların dəstəklənməsi və innovasiya layihələrinə qrant proqramlarının təqdim edilməsi vasitəsilə müəssisələrin yeni texnologiyalara və dizayn ideyalarına investisiya qoymasına imkan yaradır. Sahibkarlığın İnkişafı Fondu (SİF) güzəştli kreditlər vasitəsilə KOS-ların maliyyələşməsini təmin edir və onların innovativ məhsul inkişafına sərmayə qoymasını asanlaşdırır. Eyni zamanda, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində qeyri-neft ixracının artırılması, milli məhsulların beynəlxalq bazarlarda tanıdılması və innovativ texnologiyaların tətbiqi strateji prioritetlər kimi müəyyən edilmişdir. Bu proqramlar dizayn və brendinq sahəsində investisiyaların stimullaşdırılmasına əsaslı zəmin yaradır, lakin onların icrasının daha məqsədyönlü və praktik yönümlü olması zəruridir.

Milli məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq məqsədilə həyata keçirilən "*Made in Azerbaijan*" strategiyası da bu baxımdan önəm daşıyır. Strategiya çərçivəsində ixrac təşviqi mexanizmləri, xarici sərgilərdə iştirak üçün maliyyə dəstəyi və marketinq imkanları təmin edilir. Lakin hazırda ixrac olunan məhsulların böyük hissəsi fason istehsal və ya xammal formasında xarici bazarlara çıxarılır. Əgər bu məhsullar dizayn və brend kapitalı ilə möhkəmlənsəydi, onların əlavə dəyəri ən azı 20–30 % artmaq potensialına sahib olardı.

"*Made in Azerbaijan*" strategiyası təkcə məhsulun mənşə etiketini simvolizə etməməli, həm də keyfiyyət, innovasiya və dizayn identifikatoru kimi təqdim edilməlidir. Bunun üçün dövlət və özəl sektor birgə fəaliyyət göstərməli, milli brendlərin beynəlxalq arenada tanıdılması üçün hədəfli və professional marketinq kampaniyaları həyata keçirilməlidir. Eyni zamanda, sənaye müəssi-sələrinin R&D və dizayn fəaliyyətlərinə investisiyaları təşviq edən mexanizmlərin gücləndiril-məsi, ixtisaslı kadr hazırlığının genişləndirilməsi və brend strategiyalarının hazırlanması üçün konsaltinq və təlim xidmətlərinin artırılması vacibdir.

Azərbaycanın yüngül sənayesi həm strateji çağırışlarla, həm də böyük inkişaf imkanları ilə üz-üzədir. Məhsulun dizayn və brendinq istiqamətində inkişaf etdirilməsi yalnız şirkətlərin əlavə dəyər yaratmasına deyil, həm də ölkənin qeyri-neft sektorunun beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəlməsinə xidmət edəcək. Dövlət proqramları və strategiyalar, əgər məqsədyönlü və koordinasiyalı

şəkildə həyata keçirilsə, yüngül sənaye sektorunda innovasiya və brend kapitalının artırılması üçün effektiv platforma yarada bilər [s.48-91].

Elmi yenilik və tətbiqi əhəmiyyət

Tədqiqat nəticəsində dizayn və brendinqə yönəlmiş investisiyaların kiçik və orta sahibkarlıq (KOS) müəssisələrinin rəqabət qabiliyyətinə təsir mexanizmi ilk dəfə sistemli şəkildə modelləşdirilmişdir. Bu modeldə investisiya → dizayn və brendinq → əlavə dəyər → istehlakçı loyallığı → ixrac potensialı → rəqabət üstünlüyü ardıcıllığı müəyyən olunmuşdur. Bundan əlavə, Azərbaycanda yüngül sənaye müəssisələrinin innovativ inkişaf səviyyəsini qiymətləndirmək üçün xüsusi **"**Dizayn və Brendinq İnnovasiya İndeksi" təklif olunmuşdur. Bu indeks müəssisələrin dizayn fəaliyyəti, brend kapitalı, ixrac payı və rəqəmsal brendinq göstəricilərinə əsaslanaraq rəqabət qabiliyyətinin ölçülməsinə imkan verir.

Tədqiqat nəticələri praktiki baxımdan bir neçə istiqamətdə faydalıdır. İlk növbədə ixrac imkanlarının genişləndirilməsinə xidmət edir, çünki brendləşmiş məhsullar beynəlxalq bazarlarda daha yüksək əlavə dəyər gətirir. İkincisi, dizayn və brendinqə yönəlmiş investisiyalar yeni iş yerlərinin yaradılmasına və yaradıcı sənayelərin inkişafına təkan verir. Üçüncüsü, milli brendlərin təşviqi Azərbaycanın beynəlxalq iqtisadi imicini gücləndirir və qeyri-neft sektorunun şaxələndirilməsinə mühüm töhfə verir.

Dizayn və brendinq sahəsinə edilən sərmayələr nəticəsində əlavə dəyər artımı təmin olunur, məhsullar daha yüksək qiymət seqmentində satılır və ixracdan əldə edilən gəlirlər çoxalır. Bu isə ölkənin xarici ticarət balansına müsbət təsir göstərir. Eyni zamanda, rəqabət üstünlüyünün möhkəmlənməsi sayəsində Azərbaycan yüngül sənaye məhsulları beynəlxalq bazarlarda daha dayanıqlı mövqe qazanır. Uzun-müddətli perspektivdə bu, qeyri-neft sektorunun ÜDM-də xüsusi çəkisinin artmasına, iqtisadi dayanıqlığın güclənməsinə və milli rifahın yüksəlməsinə xidmət edir.

NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, dizayn və brendinqə yönəlmiş investisiyalar yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsində həlledici rol oynayır. 2019–2024-cü illərin statistik təhlili sübut edir ki, istehsal həcmi və ixrac göstəriciləri ardıcıl artım nümayiş etsə də, brendli məhsulların ixrac payı hələ də aşağı səviyyədədir. Bu isə sektorun daha çox xammal və fason istehsala əsaslandığını göstərir. Beynəlxalq təcrübə (İtaliya, Türkiyə, Yaponiya) sübut edir ki, yüksək brend kapitalı, dizayn mərkəzlərinin fəaliyyəti və dövlət dəstəyi olmadan yüngül sənaye müəssisələrinin beynəlxalq rəqabətdə dayanıqlı mövqe tutması mümkün deyil. Azərbaycanda KOBİA, SİF və "Azərbaycan 2030" proqramları bu sahədə mühüm imkanlar yaratsa da, institusional və maliyyə məhdudiyyətləri hələ də ciddi problem olaraq qalır. "*Made in Azerbaijan*" strategiyası isə milli brendlərin beynəlxalq

bazarlarda tanıdılması üçün unikal bir fürsət təqdim edir, lakin bu istiqamətdə daha məqsədyönlü fəaliyyət tələb olunur.

Yüngül sənayenin rəqabət qabiliyyətini yüksəltmək üçün dizayn və brendinq sahəsində bir sıra strateji addımların atılması zəruridir:

- Milli dizayn və brendinq mərkəzlərinin yaradılması: KOS-ların ortaq istifadəsi üçün texnoparklarda və sənaye zonalarında dizayn laboratoriyaları və brendinq inkubatorları fəaliyyətə başlamalıdır. Bu, kiçik müəssisələrin də innovativ imkanlardan faydalanmasına şərait yaradacaq.
- Maliyyə dəstəyinin gücləndirilməsi: Sahibkarlığın İnkişafı Fondu və kommersiya bankları tərəfindən dizayn və brendinq layihələrinə güzəştli kreditlər ayrılmalı, risklərin azaldılması üçün dövlət zəmanət mexanizmləri tətbiq olunmalıdır.
- "*Made in Azerbaijan*" konsepsiyasının dərinləşdirilməsi: milli məhsulların yalnız mənşə etiketlənməsi ilə kifayətlənməyib, beynəlxalq bazarlarda keyfiyyət, innovasiya və estetik dəyər simvolu kimi mövqeləndirilməsi təmin edilməlidir. Bunun üçün dövlət tərəfindən beynəlxalq sərgilərdə iştirak, brend tanıtımı və reklam kampaniyaları maliyyələşdirilməlidir.
- Rəqəmsal brendinq və e-ticarət imkanlarının genişləndirilməsi: Azərbaycan məhsullarının "*Amazon*", "*Alibaba*" kimi beynəlxalq platformalarda aktiv iştirakı təşviq edilməli, KOS-lara rəqəmsal marketinq təlimləri və texniki dəstək proqramları təqdim olunmalıdır.
- Kadr hazırlığı və təcrübə mübadiləsi: universitetlərdə dizayn, brend menecment və rəqəmsal marketinq ixtisasları gücləndirilməli, beynəlxalq təcrübə mübadiləsi proqramları vasitəsilə mütəxəssis hazırlığı sürətləndirilməlidir.

ƏDƏBİYYAT

1. Əliyev, Z. (2019). Azərbaycan iqtisadiyyatının diversifikasiyası və innovasiya siyasəti (s. 45–67). Bakı: Elm və Təhsil Nəşriyyatı.
2. Qasımova, N. (2017). Brendinqin iqtisadi mexanizmləri və bazar rəqabətinə təsiri (s. 201–225). Bakı: İqtisadiyyat və Menecment İnstitutu.
3. Əliyeva, G. (2022). İnnovasiya və rəqabətqabiliyyət: Azərbaycan yüngül sənayesi nümunəsində (s. 141–165). Bakı: Elm və Təhsil.
4. Ministry of Economy of the Republic of Azerbaijan. (2024). Development strategy for the light industry (pp. 15–30). Baku.
5. Hacıyev, N. (2016). Azərbaycan sənayesində klasterləşmə və innovativ inkişaf (s. 75–96). Bakı: ADİU Nəşriyyatı.
6. Kapferer, J. N. (2015). Kapferer on luxury: How luxury brands can grow yet remain rare (pp. 73–92). Kogan Page Publishers.
7. Schwab, K. (2018). The fourth industrial revolution (pp. 101–118). World Economic Forum.
8. Həsənov, Ə. (2021). Kiçik və orta sahibkarlığın maliyyələşmə mexanizmləri (s. 89–104). Bakı: İqtisad Universiteti Nəşriyyatı.
9. Məmmədov, R. (2018). Azərbaycanın qeyri-neft sektorunda investisiya mühiti və inkişaf imkanları (s. 57–83). Bakı: İqtisadi Araşdırmalar Mərkəzi.
10. KOBİA. (2023). Azərbaycan KOS-larının inkişaf strategiyası (s. 44–59). Bakı.

UNEC, İl 13, Cild 13, oktyabr – dekabr, 2025, səh. 127-136
UNEC, Year 13, Volume 13, October – December 2025, pp. 127-136

RƏQƏMSAL TRANSFORMASİYANIN NEFT-QAZ SEKTORUNA TƏSİRİ

Daxil olub: 12 sentyabr 2025-ci il
Qəbul olunub: 12 dekabr 2025-ci il

Received: 12 September 2025
Accepted: 12 December 2025

Cəmilə Musayeva
i.f.d., dosent, UNEC
jamila_musayeva@unec.edu.az
https://orcid.org/0000-0003-4096-2338

DOI: https://doi.org/10.30546/UNECSR.2025.04.3030

Xülasə

Məqalədə neft-qaz sektorunda rəqəmsal transformasiyanın çağırışlarına uyğun rəqəmsal texnologiyaların tətbiq imkanları, əsas istiqamətləri və rəqəmsallaşmanın tətbiqi ilə yarana biləcək problemlər nəzərdən keçirilmişdir. Rəqəmsal texnologiyaların neft-qaz şirkətlərinin əməliyyatlarının idarə edilməsində, əməliyyat xərclərinin azaldılmasında və optimallaşdıma qərarlarının verilməsində rolu təhlil edilmişdir. Həmçinin qlobal sənaye üsulu ilə hasil edilmiş karbohidrogen ehtiyatlarının potensial artımına, enerji təhlükəsizliyində sabitliyin təmin edilməsinə və enerji sektorunun yeni üsullarla idarə edilməsinə verə biləcəyi faydalılığı əsaslandırılmışdır. Tədqiqatın məqsədi neft-qaz sektorunda rəqəmsal transformasiya prosesinin CO_2 emissiyasının azaldılmasına və "xalis sıfır" strategiyasına uyğunlaşdırılması və beynəlxalq neft-qaz şirkətlərinin rəqəmsallaşma strategiyalarını təhlil etməklə rəqəmsal texnologiyaların tətbiq imkanlarını müəyyən etməkdir. Məqalədə analiz, sistemli yanaşma, sintez və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Açar sözlər: *rəqəmsallaşma, neft-qaz sektoru, rəqəmsal texnologiyalar, CO2 emissiyası, neft-qaz şirkəti.*

IMPACT OF DIGITAL TRANSFORMATION ON THE OIL AND GAS SECTOR

Jamila Musayeva
Ph.D., Assoc. Prof., UNEC

Abstract

The article reviews the application possibilities of digital technologies in line with the challenges of digital transformation in the oil and gas sector, their main directions and the problems that may arise with the application of digitalization. The role of digital technologies in managing the operations of oil and gas companies, reducing operating costs and making optimization decisions is analyzed. It also substantiates the usefulness that they can bring to the potential growth of hydrocarbon reserves

produced by the global industrial method, ensuring stability in energy security and managing the energy sector in new ways. The purpose of the study is to adapt the digital transformation process in the oil and gas sector to the reduction of CO_2 emissions and the "net zero" strategy and to determine the application possibilities of digital technologies by analyzing the digitalization strategies of international oil and gas companies. The article uses the methods of analysis, systematic approach, synthesis and comparative analysis.

Keywords: *digitization, oil and gas sector, digital technologies, CO2 emission, oil and gas company.*

ВЛИЯНИЕ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ НА НЕФТЕГАЗОВЫЙ СЕКТОР

Джамила Мусаева
д.ф.э., доцент, UNEC

Резюме

В статье рассматриваются возможности применения цифровых технологий в свете задач цифровой трансформации в нефтегазовом секторе, их основные направления и проблемы, которые могут возникнуть при применении цифровизации. Проанализирована роль цифровых технологий в управлении деятельностью нефтегазовых компаний, снижении операционных затрат и принятии оптимизационных решений. Обоснована их польза для потенциаль-ного роста запасов углеводородов, добываемых глобальным промышленным способом, обеспечения стабильности энергетической безопасности и управления энергетическим сектором новыми способами. Целью исследования является адаптация процесса цифровой трансформации в нефтегазовом секторе к сокращению выбросов CO_2 и стратегии «чистого нуля» и определение возможностей применения цифровых технологий путем анализа стратегий цифровизации международных нефтегазовых компаний. В статье использованы методы анализа, системного подхода, синтеза и сравнительного анализа.

Ключевые слова: *цифровизация, нефтегазовый сектор, цифровые технологии, выбросы CO2, нефтегазовая компания.*

GİRİŞ

Dünyada baş verən rəqəmsallaşma rəqəmsal texnologiyaların və alətlərin geniş istifadəsinə əsaslanır. Rəqəmsal transformasiya yeni sənaye və biznes modellərinin yaradılmasına gətirib çıxarır. İnformasiya texnologiyalarının biznes əməliyyatlarına inteqrasiya etməsi enerji, o cümlədən neft-qaz sektoru üçün rəqəmsal alətlərin və

texnologiyaların tətbiqini zəruri edir. Dünya bazarında neftin qiymətinin aşağı düşməsi səbəbindən şirkətlər xərclərin azaldılmasına və əməliyyatların səmərəliliyinin artırılmasına daha çox diqqət yetirirlər. Enerji sahəsində rəqəmsal texnologiyaların tətbiqi məhsuldarlığın artmasına, yataqların işlənməsinə və neft hasilatına yatırılan investisiyaların gəlirliliyinin artmasına gətirib çıxarır. Rəqəmsallaşma həmçinin əməliyyatların idarə edilməsində optimal qərarların verilməsi və rəqabət potensialının genişləndirilməsi imkanlarını yaradır. Enerji dayanıqlığını yaxşılaşdıran texnologiyalar sayəsində enerji təhlükəsizliyi artırıla bilər və enerji istehsalında yüksək tərəddüdlərin qarşısını almaq, tarazlığı qorumaq mümkün olur. Şirkətlərdə sistem balansına nəzarət etmək üçün məlumatları "smart" şəbəkələr ötürür, sistemdə nasazlığı aşkar edir, hətta məsafədən idarə olunmasına imkan verir [1].

ƏDƏBİYYATA BAXIŞ

Tədqiqatlara görə, neft istehsal edən şirkətlər informasiya texnologiyalarından kompleks şəkildə istifadə edərsə, neft vermə əmsalını 2-7% artıra bilər. Tükənmiş yataqlardan neft hasilatının həcminin azalmasını kompensasiya edir və geoloji kəşfiyyatın səmərəliliyini artırır. Beynəlxalq Enerji Agentliyinin məlumatlarına görə, rəqəmsal texnologiyalar istehsal xərclərinin təxminən 20%-ni azalda bilər və 2025-ci ilə kimi 100 milyard - 1 trilyon ABŞ dolları məbləğində əsaslı məsrəflərdə, əməliyyat xərclərində qənaət etmək olar [2].

2017-ci ilin yanvarında dərc edilən Dünya İqtisadi Forumunun "ağ sənədlərinə" görə, neft və qaz sənayesində rəqəmsal transformasiya on il ərzində sənaye, onun müştəriləri və daha geniş cəmiyyət üçün təxminən 1,6 trilyon dollar dəyər verə bilər. Mövcud təşkilati və əməliyyat məhdudiyyətləri yumşaldıldıqda "rəqəmsal" texnologiyaların təsiri nəzərə alınarsa, bu ümumi təxmin edilən dəyər daha da 2,5 trilyon dollara qədər arta bilər. Ümumi dəyəri 1,6 trilyon dollar olan rəqəmsallaşma neft və qaz firmaları üçün təxminən 1 trilyon dollar dəyər yaratmaq və cəmiyyətlər üçün təxminən 640 milyard dollar dəyərində faydalar yaratmaq potensialına malikdir. Bura müştərilər üçün təxminən 170 milyard dollar qənaət, təxminən 10 milyard dollar məhsuldarlığın yaxşılaşdırılması, 30 milyard dollar su istifadəsinin azaldılması və 430 milyard dollar tullantıların azaldılması daxildir [3].

Rəqəmsallaşdırmanın neft-qaz sektoruna təsirini araşdıran tədqiqatçılar enerji sektorunda mövcud vəziyyəti tədqiq etmiş, şirkətlərin rəqəmsal strategiyalarını təhlil etməklə rəqəmsallaşmaya mane olan amilləri müəyyənləşdirmiş və ən yaxşı strategiyası olan Norveçin "Equinor" iri neft şirkətinin təcrübəsinin faydalarını qeyd etmişlər. Şirkətin rəqəmsal strategiyasında innovasiya və texnologiyalara davamlı

investisiya qoyuluşu, mütəxəssislərin cəlb olunması, rəqəmsal bacarıqların təkmilləşdirilməsi və rəqəmsallaşma mədəniyyətinin genişləndirilməsi dəstəklənir [4].

Tədqiqatların birində neft-qaz şirkətlərində idarəetmənin planlaşdırılmasında, təşkilində və koordinasiyanın qurulmasında rəqəmsal texnologiyaların tətbiqinin müsbət təsirləri və effektivliyin artırılması, nəzarətin təkmilləşdirilməsi baxımından praktikliyi əsaslandırılmışdır [5]. Digər bir məqalədə tədqiqatçılar böyük enerji şirkətlərin timsalında rəqəmsal enerjiyə transformasiyanın mexanizmlərini nəzərdən keçirmiş, neft biznesinin rəqəmsal transformasiya imkanlarını təhlil etmiş və enerjiyə keçidin motivlərini araşdırmışlar [6]. Bəzi tədqiqatlarda davamlı inkişaf məqsədlərindən biri olan "iqlim dəyişmələri"nin təsirinin azaldılması məqsədinə nail olmaq üçün görülən tədbirlərin və rəqəmsal texnologiyalardan istifadənin şirkətlərin dayanıqlı inkişafa strateji baxımdan faydalılığı qeyd olunur. Eyni zamanda böyük verilənlərin, süni intellekt və maşın öyrənməsi tətbiqlərinin, robotlar, blokçeyn kimi texnologiyaların CO_2 emissiyasının azaldılmasında rolu araşdırılır [7].

Rəqəmsallaşmanın iqtisadi və ekoloji təsirinin təhlili

Qlobal enerjidən yaranan CO_2 emissiyasının təxminən 15%-i neft-qaz əməliyyatları ilə bağlıdır. 2022-ci ildə neft və qazın hasilatı nəticəsində 5,1 milyard ton CO_2 emissiyası yaranmışdı. Beynəlxalq Enerji Agentliyinin "Xalis sıfır karbon emissiyası" ssenarisinə görə, 2030-cu ilə kimi neft-qaz əməliyyatlarından yaranan karbon emissiyasının 60%-65%, emisssiya intensivliyinin isə 50-55% azalması nəzərdə tutulur (Qrafik 1). Bu dövr ərzində emissiya nəzarət texnologiyalarının, rəqəmsal nəzarət sisteminin tətbiqi və emissiyanın optimizasiyasının həyata keçirilməsi sayəsində karbon göstəricilərinin minimallaşdırılması hədəfi prioritet götürülüb. Rəqəmsal texnologiyalardan geniş istifadə olunması ekologiyaya vurulan zərərin qarşısını alacaq və CO_2 emissiyalarının neytrallaşdırılmasına faydasını verəcək.



a) neft-qaz ekvivalentində CO_2 (kg CO_2/boe)

b) Neft və qaz əməliyyatlarının ümumi emissiyaları($GtCO_2$-eg)

Qrafik 1. Xalis sıfır karbon emissiyası ssenarisində neft və qaz əməliyyatlarının emissiya intensivliyi və karbon emissiyası

Mənbə: Beynəlxalq Enerji Agentliyinin məlumatları əsasında tərtib edilib (https://www.iea.org/reports/the-oil-and-gas-industry-in-net-zero-transitions)

Rəqəmsal texnologiyalar neft-qaz məhsullarının istehsal və hasilat üsuluna təsir göstərir. Dərin qatlarda qazma işləri müasir texnologiyalara ehtiyac duyur və rəqəmsal alətlərin tətbiqi ilə qurğuların modernləşdirilməsini tələb edir. Miniatürləş-dirilmiş və fiber optik sensorlar dərin qatlardan neft və qazın çıxarılmasını sürətləndirir. Eləcə də əlçatanlığı asan olmayan qurğuların təmirində, suda infra-strukturun və nasazlıqların yoxlanılmasında avtomatlaşdırılmış robotlardan istifadə edilir. Yeni yataqların işlənməsində və qazma sahəsində texnologiyaların tətbiqi sayəsində neft-qaz hasilatının dinamikasında artım olmuş və yeni rəqəmsal platformaya uyğun neft quyuları istismara verilmişdir. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına əsasən qeyd etmək olar ki, texnologiyaların hesabına karbohidrogen ehtiyatlarının çıxarılması təxminən 5% artırıla bilər və bu artım yerin dərinliyində qaya laylarının arasında qalan şist qazının əldə olunmasına töhfə verəcək. Global sənaye üsulu ilə hasil edilən neft-qaz resurslarının rəqəmsallaşmaya uyğun potensial artımı təxminən 3% qiymətləndirilir. Rəqəmsallaşmanın sənaye üsulu ilə hasil olunan neft və qaz ehtiyatlarına təsiri 11 milyon tondur (Qrafik 2).



Qrafik 2. Rəqəmsallaşmanın qlobal sənaye üsulu ilə hasil olunan karbohidrogen ehtiyatlarına potensial təsiri (mln. ton)

Mənbə: https://www.iea.org/data-and-statistics/charts/potential-impact-of-digitalisation-on-global-technically-recoverable-oil-and-gas-resources,IEA. Licence: CC BY 4.0

Neft-qaz sektorunda əməliyyatların təkmilləşdirilməsində, emal prosesinin sürətlən-dirilməsində rəqəmsal proqramların tətbiqi neft-qaz şirkətlərinin qarşısında geniş imkanlar yaradır. Qlobal neft şirkətləri süni intellektin tətbiqinə can atır, əməliyyat xərclərinin azaldılmasını və strategiyalarına uyğun xalis karbon emissiyasını diqqətdə saxlayırlar. Rəqəmsallaşmaya keçid fonunda çağırışlara cavab vermək üçün neft şirkətləri yeni platformaların yaradılmasına investisiya yatırır və robot texnika-sından istifadə edirlər. Bu alətlər qlobal enerji şirkətlərinin rəqəmsallaşma strategi-yalarının əsas komponentlərinə çevrilmiş və dayanıqlı enerji modelini yaradırlar (cədvəl 1).

Rəqəmsal platformaya sərmayə yatıran enerji şirkətlərindən biri BP-dir. Platforma süni intellektlə təchiz edilmişdir və Gried Edge proqram təminatı sayəsində enerji xərclərini optimallaşdırmaq və enerji istehlakını modelləşdirmək mümkündür. Xərclərin azaldılması ilə yanaşı, CO_2 emissiyasını orta hesabla 10-12% azaldır. Quyuların məhsuldarlığını artırmaqla bərabər, qərarların qəbul edilməsi üçün analiz müddətinin 60%-dək azaldılmasında, quyuların idarə edilməsində BP "Wells Assistant" və "AWTO (Automated Well Testing Optimization)" kimi süni intellekt alətlərindən istifadə edir. BP "AIP – Advanced Intelligence Platform" sistemini tətbiq edərək istehsal göstəricilərinin, texniki nasazlıqların izlənməsinə və təhlükəli vəziyyətdə insan faktorunun iştirakını minimallaşdırmağa nail olmuşdur. 2023-cü ilin məlumatalrına əsasən, BP-nin rəqəmsallaşmadan əldə etdiyi gəlir 1.1 milyard dollar olmuşdur [8]. Rəqəmsal layihələrin ekoloji baxımdan təsirləri şirkətin "Xalis sıfır emissiya" strategiyasına uyğun imicinə əhəmiyyətli təsir etmişdir. 2019–2024 illər ərzində hasilat obyektlərində CO_2 emissiyası 15%-dən çox azalmış, hər il

təxminən 300 min ton CO_2ekvivalentinə bərabər qaz sızmalarının qarşısı alınmış və alternativ enerji istehsalında 20% artım əldə edilmişdir [9].

Norveçin ən böyük neft-qaz şirkəti olan Equinor mərkəzləşdirilmiş və inteqrasiya oluna bilən rəqəmsal proqrama malikdir. Əməliyyatları rəqəmsallaşdırmaq üçün bulud texnologiyasına, əşyaların internetinə və "big data"ların istifadəsinə üstünlük verir. Şirkətin məqsədi səmərəliliyi və təhlükəsizliyi artırmaq, karbon emissiyalarını azaltmaq və robot texnikasından istifadəni artırmaqdır. Rəqəmsal strategiaysında altı istiqamət üzrə hədəflər müəyyən edilmişdir:

1) Təhlükəsizlik və davamlılıq;
2) Sahə dizaynı və smart konsept;
3) Məlumat əsaslı əməliyyatlar;
4) Proseslərin rəqəmsallaşdırılması;
5) Neft-qaz sənayesində yeraltı geoloji və geofiziki qatların rəqəmsal təhlili;
6) Neft-qaz quyularının layihələndirilməsi, qazılması və idarə olunması proseslərinin rəqəmsallaşdırılması və avtomatlaşdırılması.

Şirkətin 2024-cü il hesabatına əsasən, qeyd etmək olar ki, 2015-ci ildən etibarən scope 1 (birbaşa emissiya) və scope 2 (dolayı emissiya) emissiyalarında 34% azalma olub [10].

Səudiyyə Ərəbistanının neft şirkəti olan Saudi Aramco şirkəti enerji istehlakını, təhlükəsizliyi yaxşılaşdırmaq, idarəetmə və əməliyyat xərclərini optimallaşdırmaq və digər şirkətlər kimi CO_2 emissiyasını azaltmaq məqsədilə rəqəmsal şəbəkədən istifadə edir. Rəqəmsal və enerji transformasiyası fonunda dünyanın böyük neft-qaz şirkətləri rəqəmsal və "Xalis sıfır emissiya" strategiyalarına uyğun rəqəmsallaşma, aşağı karbon xərclərini artırır. İKT xərclərinin əsas hissəsi İKT xidmətlərinə, avadanlıqların və proqram təminatının alınmasına yönəlib. "AI on the edge", "Digital twin" və "Direct Air Capture" (DAC) şirkətin uğurlu rəqəmsal layihələri olub. Bu texnologiyalar vasitəsilə neft emalı zavodlarında və hasilat sahələrindən real vaxt məlumatları toplanılır, analiz edilir, hasilat planlaşdırılır, quyuların monitorinqi aparılır və texniki xidmətlər göstərilir. Eyni zamanda obyektlərdə nasazlıqların qabaqcadan aşkar edilməsinə və xərclərin azaldılmasına imkan yaranır [11].

Cədvəl 1. Rəqəmsallaşmaya keçid strategiyasına uyğun bəzi göstəricilər

Şirkətlər	İllik İKT xərcləri (ABŞ dolları)	Karbon intensivliyi
BP	879,5 mln*	2050-yə qədər 50% azalma
Equinor ASA	1,1 mlrd*	2050-yə qədər 100% azalma
Chevron	2,1 mlrd***	2028-ə qədər 5% azalma
Exxon Mobil	1.9 mlrd*	-
Shell	3.1 mlrd**	2050-yə qədər 100% azalma
Total Energies	2.9 mlrd**	2050-yə qədər 60% azalma

Saudi Arabian Oil Co	13,8 mlrd***	-
Petro China Co Ltd	21 mln**	-

Mənbə: https://www.globaldata.com və şirkətlərin hesabatları əsasında tərtib olunub
*Qeyd: * 2023 cü il,** 2022-ci il, *** 2021-ci il*

Azərbaycanın böyük neft şirkəti olan SOCAR 2021-ci ildə enerji təhlükəsizliyinin və biznesin davamlılığının təmin edilməsi və rəqəmsallaşmanın tətbiqi ilə bağlı "SOCAR-2035" korporativ strategiyasını qəbul etmişdir. Rəqəmsal texnologiyalar, süni intellektin tətbiqi ilə səmərəliliyin və çevikliyin artırılması kimi strateji hədəflər qarşıya qoyulmuşdur. Bu məqsədlə 2021-ci ildə "SOCAR TOWER"-də Vizuali-zasiya Mərkəzi yaradılıb və mərkəzin funksiyası istehsalat əməliyyatlarının mərkəz-dən idarə olunması, operativ qərarların verilməsi və böhran-fövqəladə halların idarə edilməsidir. Hazırda istismar olunan və istismardan çıxarılan 44 min quyunun 50%-dən çoxu rəqəmsallaşdırılıb və proqram təminatı vasitəsilə yataqların modelləri qurulur [12].

Neft-qaz sektorunda rəqəmsallaşma problemləri

Tədqiqatların birində qeyd edilir ki, rəqəmsallaşma istehsal prosesində insan müdaxiləsini minimuma endirdiyi üçün ənənəvi iş yerlərinin, işçi qüvvəsinin azalmasına səbəb ola bilər. Bu zaman yarana biləcək problemlərdən biri rəqəmsal-laşmanın potensialı ilə bağlı insanların təfəkküründə dəyişiklikləri qəbul etməmək ola bilər [13]. Digər sahələrlə müqayisədə neft-qaz sektorunda rəqəmsallaşmanın aşağı səviyyədə olması səbəblərindən biri məlumatların keyfiyyətli təhlil edilmə-məsidir. Strukturlaşdırılmamış məlumatları təhlil etmək çətin olur və bu sahədə düzgün idarəetməyə ehtiyac var. Şirkətlərin rəqəmsal texnologiyalara olan güvəni artmalıdır və insanlara rəqəmsal dəyişikliyi aşılamalıdır.
Beləliklə, rəqəmallaşmanın tətbiqi zamanı yarana biləcək bir neçə problemləri göstərmək olar:

- texnologiyaların alınmasına, yaradılmasına, infrastrukturun qurulmasına böyük investisiya tələbinin olması. Neft qiymətlərinin aşağı olduğu zaman gəlirlərin azalması səbəbindən şirkətlər üçün investisiya yatırımı çətin olur;
- yeni texnologiyaların prosesə inteqrasiyasında yarana biləcək maneələr;
- texnologiyalardan istifadə etmək üçün ixtisaslı mütəxəssis çatışmazlığı;
- kibertəhlükəsizlik problemləri. Rəqəmsal texnologiyalar böyük həcmdə infor-masiyaların məxfiliyi və təhlükəsizliyini təmin etməlidir;
- təşkilati və mədəni dəyişikliklər. Rəqəmsal texnologiyaların tətbiqi innovasi-yalar və daim təkmilləşdirmə vasitəsilə şirkətlərdə təşkilat mədəniyyətində dəyişikliklər tələb edir və s.

Hər bir şirkət üçün problemlər spesifik ola bilər və bu problemləri aradan qaldırmaq, neft-qaz sektorunda dayanıqlığı təmin etmək, qərarlar vermək şirkətlərin öz imkanları, strategiyaları və tədbirləri çərçivəsində mümkün olur.

NƏTİCƏ

Davamlı inkişafın və enerji keçidinin şərtləri dünyada qlobal şirkətləri ənənəvi biznesində dəyişikliklər etməyə və ekoloji ehtiyaclara uyğun yeni strategiyalar qurmağa, hədəfləri tələblərə uyğunlaşdırmağa vadar edir. Neft sənayesində rəqəmsallaşma və rəqəmsal tətbiqlərin son on ildə artmasına baxmayaraq neft sənayesi iqtisadiyyatın digər sahələrinə nisbətən geridədir. Rəqəmsallaşma neft-qaz sektoru üçün prioritet olmalıdır, çünki biznesin səmərəliliyinin artırılması, xərclərin azaldılması üçün rəqəmsal texnoloji həllər və tətbiqlər vacibdir. Rəqəmsal texnologiyalar enerji transformasiyasında əsas rol oynayır və əməliyyatların idarə olunmasının optimallaşdırılmasında, enerji təchizatı zəncirində problemlərin həllində və ələlxüsus karbon emissiyasının azaldılmasında istifadə olunur. Enerji şirkətləri tərəfindən rəqəmsal texnologiyalardan istifadə istiqamətləri rəqəmsallaşmaya əhəmiyyətli təsir göstərir. Bunlara enerji sistemi ilə istehlakçılar arasında möhkəm əlaqələrin qurulması, əməliyyat modellərinin rəqəmsallaşdırılması, real vaxt rejimində tələb dəyişiklikləri haqqında analitik məlumatları nəzərə alaraq tələbin proqnozlaşdırılması, neft-qaz hasilatı ilə bağlı xərclərin azaldılması və neft-qaz yataqlarının effektiv, komleks idarə edilməsi, neftin nəqli və email üzrə marketinq və logistika prosesinin avtomatlaşdırılması, risklərin idarə olunması prosesinin avtomatlaşdırılması daxildir. Bununla rəqəmsalşadırmaya gedən yol çətindir və maneələr vardır. Rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı ilkin xərclərin yüksək olması, mövcud avadanlıqların rəqəmsallaşdırılmasının mümkünsüzlüyü və potensialın düzgün qiymətləndirilməməsi problemlərinin aradan qaldırılmasına diqqət edilməlidir. Eyni zamanda rəqəmsal texnologiyalardan istifadə perspektivlərini müəyyən etmək vacibdir. Süni intellektlə idarə olunan vasitələrin tətbiqi şirkətə daha yaxşı qərarlar qəbul etməyə, işçi qüvvəsi, texniki resurslar və vaxt baxımından israfı azaltmağa və əməliyyatların səmərəliliyini artırmağa imkan verir. Nəticədə sənaye nəinki davamlı inkişafın tələblərinə cavab verə bilər, həm də sürətlə dəyişən enerji dəyişikliklərinə uyğunlaşa bilər.

ƏDƏBİYYAT

1. Justyna Swiatowiec-Szczepa ´nska ´, B. S. (2022). Drivers of digitalization in the Energy Sector—The Managerial. Energies , 1-25
2. https://www.strategyand.pwc.com/gx/en/insights/2018/drilling-for-data.html

3. https://report.weforum.org/digital-transformation/wp-content/blogs.dir/94/mp/files/pages/files/white-paper-2017-dti-oil-gas.pdf
4. Chourouk , H., & Andras, N. (2023). Digital Transformation in Oil and Gas Industry: Opportunities and Challenges. Periodica Polytechnica Social and Management Sciences, 1-16
5. Sheveleva, A. T. (2021). Digital strategies in a global market: Navigating the fourth industrial revolution . 151-171
6. Daneeva, Y., Glebova, A., Daneev, O., & Zvonova, E. (2020). Digital transformation of oil and gas companies: energy transition. In Russian Conference on Digital Economy and Knowledge Management. 199-2055
7. Sheveleva, A. V., & Cherevik, M. V. (2022). Digital technologies in the oil and gas sector and their contribution to UN climate action goal. In Industry 4.0: Fighting Climate Change in the Economy of the Future. Springer International Publishing., 307-315
8. https://www.bp.com/content/dam/bp/businesssites/en/global/corporate/pdfs/energy-economics/energy-outlook/bp-energy-outlook-2023.pdf
9. BP Net Zero Progress Report, 2024
10. https://www.hartenergy.com/ep/exclusives/embracing-full-scale-digitalization-177092/?utm_source=chatgpt.com
11. Aramco Digitalization Report, 2023
12. https://socar.az/az/page/davamli-inkisaf-hesabatlari
13. Al-Rbeawi, S. (2023). A Review of Modern Approaches of Digitalization in Oil and Gas Industry. Upstream Oil and Gas Technology.

UNEC, İl 13, Cild 13, oktyabr – dekabr, 2025, səh. 137-149
UNEC, Year 13, Volume 13, October – December 2025, pp. 137-149

QLOBAL QİDA TULLANTILARI VƏ ONLARIN SƏMƏRƏLİ İDARƏ EDİLMƏSİNİN SOSİAL-İQTİSADİ ƏHƏMİYYƏTİ

Daxil olub: 26 noyabr 2025-ci il
Qəbul olunub: 18 dekabr 2025-ci il

Received: 26 November 2025
Accepted: 18 December 2025

Aytən Şükürova
i.f.d., dosent,
Azərbaycan Kooperasiya Universiteti
shukurovaayten@mail.ru
https://orcid.org/0009-0004-0092-1288

DOI: https://doi.org/10.30546/UNECSR.2025.04.3041

Xülasə

Məqalədə tullantı və itkilər, xüsusilə qida tullantıları və itkilərin mahiyyəti, həcmi, zərərsizləşdirilməsi, utilizasiyası və istifadə imkanları beynəlxalq təcrübə öyrənilməklə elmi-metodoloji aspektdən tədqiq edilmişdir. Qlobal şəraitdə qida tullantılarının yaranması və insanların xeyli hissəsinin hələ də aclıq və sağlamlıq baxımından normal qidalanmamasının qarşılıqlı əlaqəsi ilə bağlı mühüm problemlər ön plana çəkilərək tullantı və itkilərin idarə olunmasının araşdırılmasının zəruriliyi elmi cəhətdən əsaslandırılmışdır.

Tədqiqat prosesində qida tullantılarının təsnifatı, yaranma sahələri və səbəbləri, ekoloji və texnoloji norma və standartların tələblərinə bəzən əməl edilməməsinin nəticələri reallıq nəzərə alınmaqla öyrənilmişdir.

Dünya və Azərbaycan miqyasında qida tullantıları və itkilərin həcmi, onların səmərəli idarə edilməsi – utilizasiyası mexanizmləri təhlil edilərək müasir rəqəmsal texnologiyaların geniş tətbiqi imkanları göstərilmişdir.

Qida tullantılarının azaldılması məqsədilə tədarük və qida zənciri obyektlərində yaranan–məhsulların saxlanması, qidalanma mədəniyyəti, qablaşdırma, nəqliyyat-loqistika, utilizasiya və digər proseslərin səmərələşdirilməsi, onlardan yaşıl enerji, bitkiçilikdə gübrə və heyvandarlıqda yem əlavələri, yardımçı sahələrdə xammal kimi istifadənin sosial-iqtisadi əhəmiyyəti öz əksini tapmışdır.

Bununla yanaşı, məqalədə həmçinin qida tullantılarının idarə edilməsində innovativ texnologiyaların tətbiqi və qabaqcıl beynəlxalq təcrübədən istifadə əsasında dünyada və ölkəmizdə əhalinin qida məhsulları ilə təminatının yaxşılaşdırılması, ən başlıcası isə qida təhlükəsizliyinin və ətraf mühitin qorunmasına sərf edilən xərclərin minimuma endirilməsi və nəhayət, onların sosial-iqtisadi və ekoloji əhəmiyyəti elmi cəhətdən əsaslandırılaraq müvafiq təkliflər verilmişdir.

Açar sözlər: *qida tullantıları, idarəetmə, utilizasiya, ətraf mühit, iqtisadi səmərə.*

GLOBAL FOOD WASTE AND ITS SOCIO-ECONOMIC IMPORTANCE OF EFFECTIVE MANAGEMENT

Ayten Shukurova
Ph. D., Ass. prof., Azerbaijan Cooperation University

Abstract

The article examines the nature, volume, neutralization, and utilization of waste and losses, especially food waste and losses, from a scientific and methodological perspective, drawing on international experience. The need to study the management of waste and losses is scientifically substantiated by highlighting important problems related to the interaction between the generation of food waste under global conditions and the fact that a significant part of people still suffer from hunger and malnutrition.

In the research process, the classification of food waste, its areas of occurrence and causes, and the consequences of sometimes not complying with the requirements of environmental and technological norms and standards were scientifically studied, taking into account reality.

The volume of food waste and losses on a global and Azerbaijani scale, the mechanisms for their effective management and utilization were analyzed, and the possibilities of wide application of modern digital technologies were shown. In order to reduce food waste, the socio-economic importance of rationalizing storage, nutrition culture, packaging, transport and logistics, disposal, and other processes related to products generated in supply and food chain facilities, as well as their use as raw materials for green energy, fertilizer in crop production, and feed additives in livestock farming in auxiliary areas, has been reflected.

In addition, the article also discusses the application of innovative technologies in food waste management and the use of advanced international experience to improve the supply of food products to the population in the world and in our country, and, most importantly, to minimize the costs spent on food safety and environmental protection; finally, their socio-economic and ecological importance has been scientifically substantiated and relevant proposals have been made.

Keywords: *food waste, management, disposal, environment, economic efficiency.*

ГЛОБАЛЬНЫЕ ПИЩЕВЫЕ ОТХОДЫ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ ИХ ЭФФЕКТИВНОГО УПРАВЛЕНИЯ

Айтен Шукюрова
д.ф.э., доцент, Азербайджанский Университет Кооперации

Резюме

В статье рассматриваются, с научно-методической точки зрения, с изучением зарубежного опыта вопросы сущности, объемов, обезвреживания, утилизации и использования отходов и потерь, особенно пищевых отходов и потерь. Необходимость изучения управления отходами и потерями научно обоснована путём выявления важных проблем, связанных с взаимодействием между образованием пищевых отходов в глобальных условиях и тем фактом, что значительная часть населения по-прежнему страдает от голода и недоедания.

В процессе исследования были научно изучены классификация пищевых отходов, области их возникновения и причины их возникновения, а также последствия несоблюдения требований экологических и технологических норм и стандартов, учитывающие реальные условия. Проанализированы объёмы пищевых отходов и потерь в мировом и масштабах Азербайджана, механизмы их эффективного управления и утилизации, а также показаны возможности широкого применения современных цифровых технологий.

В целях сокращения пищевых отходов отражено социально-экономическое значение рационализации хранения, культуры питания, упаковки, транспортно-логистических, утилизационных и других процессов продуктов, образующихся на объектах снабжения и пищевой цепи, их использования в качестве сырья в зеленой энергетике, удобрений в растениеводстве и кормовых добавок в животноводстве во вспомогательных сферах.

Кроме того, в статье рассматриваются вопросы применения инновационных технологий в управлении пищевыми отходами и использования передового международного опыта для улучшения продовольственного снабжения населения в мире и нашей стране, а главное – минимизации затрат на обеспечение безопасности пищевых продуктов и охрану окружающей среды, и, наконец, научно обосновано их социально-экономическое и экологическое значение и внесены соответствующие предложения.

Ключевые слова: *пищевые отходы, управление, утилизация, окружающая среда, экономическая эффективность.*

GİRİŞ

Qlobal sosial-iqtisadi və ekoloji böhran şəraitində tullantı və itkilərin araşdırılması, onların utilizasiyası, səmərəli istifadə və ya idarə edilməsi prosesləri sadəcə mühüm məsələ kimi deyil, ən başlıcası insan həyatının zəruri aspektlərindən birinə çevrilmisidir. Belə ki, onların minimuma endirilməsi, qidalanma və sağlamlıq baxımından düzgün idarə edilməsi ətraf mühitə neqativ təsirin xeyli azaldılmasına və həyat keyfiyyətinin yaxşılaşdırılmasına səbəb ola bilər.

"Tullantılar haqqında" və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunlarına əsasən əhalinin sağlamlığının və ətraf mühitin ekoloji tarazlığının qorunması, onların və iqtisadi maraqların təmin olunmasının elmi cəhətdən əsaslandırılması və tullantıların idarə olunması sahəsində fəaliyyət göstərən müəssisələrin yaradılması, bu sahədə dövlət siyasətinin başlıca prinsipləridir [1]. Məhz bu problemin qlobal xarakteri və əhəmiyyətini nəzərə alaraq, tədqiqat obyekti kimi "Tullantı" anlayışının məzmunu ilə bağlı verilən çoxsaylı mütəxəssis araşdırmalarının nəticəsini ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, tədarük və qida zəncirində yaranan tullantılar xammalın, materialların, yarımfabrikatların və digər məişət və xidmət sahələrində yaranan qida məhsulları daxil olmaqla bütün məsulların istifadəsi zamanı özlərinin istehlak xüsusiyyətlərini tam və ya qismən itirməsi nəticəsində istifadəyə yararsız qalıqlardan ibarətdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Tulantıların statistik təsnifatı"nda "Tullantılar–kənarlaşdırılan, kənarlaşdırma üçün nəzərdə tutulan, kənarlaşdırılmalı olan maddə və əşyalar" kimi xarakterizə edilir [2, s.4]. Mütəxəssis araşdırmaları və beynəlxalq təcrübə də təsdiq edir ki, tullantıların səmərəli idarə edilməsi yalnız bu sahədə bilikləri deyil, həm də vərdişləri və problemin zəruriliyini başa düşməyi tələb edir. Elmi ədəbiyyatlarda tullantıların səmərəli idarə edilməsinin "3R"–(Reduce) –Azalma–istehsal tullantılarının həcminin azaldılması, (Reuse)–Təkrar istifadə–əşyalardan təkrar istifadə və (Recycie)–Emal–tullantıların utilizasiyası prinsiplərinə daha tez-tez rast gəlinir [3].

Bununla yanaşı, qeyd etmək lazımdır ki tutullantıların idarə edilməsi prosesində məhsulların çeşidlənməsinin rəqəmsallaşdırılması, biotexnologiya və "ağıllı konteyner" müasir texnologiyaların tətbiqinin forma və metodları da mühüm rol oynayır. Tullantıların utilizasiyası təbii sərvətlərimizi qorumaqla onları gələcək nəslə saxlamağa, yeni iş yerlərinin açılmasına, təbii xammala qənaətə, başqa sözlə, ölkəmizdə ekoloji siyasətin əsas istiqamətləri kimi, həm də ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə imkan verir. Bu da öz növbə-

sində qlobal iqlim dəyişikliyi problemi şəraitində ölkə ərazisində yüksəkkeyfiyyətli ekoloji mühit və "yaşıl enerji" məkanının formalaşmasını təmin edir.

Beləliklə, yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, ərzaq təhlükəsizliyinin təminatının vasitələrindən biri kimi, tullantı və itkilərin azaldılması məqsədilə onların səmərəli idarə edilməsi dayanıqlı və ekoloji təhlükəsizliyin yaradılmasında mühüm elementlərdən biridir.

Tullantıların yaranmasının minimuma endirilməsi və onların emalının maksimumlaşdırılması tənzimlənən iqtisadiyyat konsepsiyasında mərkəzi yerlərdən birini tutur. Məhz bu baxımdan, beynəlxalq təcrübəyə əsaslanaraq demək olar ki, tullantıların səmərəli idarə olunması problemi müxtəlif ölkələrdə fərqli yollarla həll edilir. Belə ki, hazırda ölkələrin əksəriyyətində ekoloji tarazlığı qorumaq məqsədilə müasir texnologiyaların tətbiqi əsasında tullantıların utilizasiyası–emalında ekoloji və iqtisadi prinsiplərə daha çox üstünlük verilir.
Elmi araşdırmalara görə, Avropa ölkələrində tullantıların 23 faizi utilizasiya prosesinə cəlb olunur. Buna baxmayaraq, dünyada hər il 700 mln ton tullantı yaranır ki, bunlardan da 1,5 mln tona yaxını istehsalat və məişət tullantıları, sonuncunun isə 80 faizi qida tullantıları [4], təxminən 300 mln tonu (20 faiz) emal məhsulu kimi Azərbaycanın payına düşür.

Bununla yanaşı, iqlim dəyişmələri–istiləşmə şəraitində tullantıların həcminin azaldılması, onların utilizasiyası və zərərsizləşdirilməsinə yönəlmiş texnoloji proseslərin ətraf mühit üçün təhlükəsizliyi və s. kimi mühüm şərtlər nəzərə alınmalıdır.

Ərzaq tullantıları və qida itkilərinin yaranma səbəbləri

Məlum olduğu kimi, dünya əhalisinin sayı hər il durmadan artır, təbii resurslar isə getdikcə azalır. Bu səbəbdən də qlobal yoxsulluq və aclıq qarşısıalınmaz bir prosesə çevrilir. Kənd təsərrüfatı məhsullarının istehsalı son 50 ildə təxminən 300 faiz artsa da, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) "Dünyada ərzaq təhlükəsizliyi və qidalanmada vəziyyət 2023" adlı hesabatında qeyd olunan son məlumatlara görə, dünyada orta hesabla 735 mln insan aclıqdan və qidalanmadan əziyyət çəkir. Buna baxmayaraq, həm də xeyli yeməyə yararlı qida itkiyə və tullantıya çevrilir. İtirilən və israf edilən qidanı yetişdirmək üçün lazım olan suyun bütün həcmi Rusiyadakı Volqa çayının illik axınına bərabərdir və ya Cenevrə gölünün həcmindən 3 dəfə böyükdür. Hesablamalara görə, qida tullantıları məişət tullantılarının ümumi həcminin 80 faizini təşkil edir və hər il tullantıya cevrilən qida məhsullarını yetişdirmək üçün Çinin ərazisinə bərabər torpaqdan, dünyada dövr edən şirin suyun 25 faizindən istifadə olunur [5].

Yuxarıda qeyd edilənlərə əsaslanaraq təsdiq etmək olar ki, bərk məişət tullantılarının tərkib hissələrindən biri kimi, qida tullantılarına saxlama və emal prosesində zəruri xassələrini itirmiş, yararlılıq müddəti keçmiş, satışı qanunla qadağan edilən qusurlu və ya qeyri-adekvat keyfiyyətə malik qida məhsulları, həmçinin ictimai iaşə müəssisələrində yaranan qida qalıqları və zibilləri aid etmək olar. Fikrimizcə, onların sosial-ekoloji və digər baxımdan təhlükəsi əsasən ondan ibarətdir ki, ətraf mühitdə xoşagəlməz qoxu mənbəyinə çevrilir və bakteriyaların çoxalmasına münbit şərait yaradır.

Beləliklə, tədqiqatımızın ilkin nəticəsi olaraq tədarük və qida zəncirində, qida tullantılarına həm istehsal prosesi, həm məhsulların əhaliyə satışının bütün mərhələlərində yaranan tullantılar, məhsul yığımından sonrakı qalıqlar, həmçinin istehlak olunmamış qidaları (quru çörək, kartof qabıqları, soyuducuda xarab olmuş meyvə və tərəvəzləri və s.) aid etmək məqdədəuyğun hesab edilə bilər.

İnnovativ texnologiyaların sürətli və davamlı inkişafı şəraitində qlobal miqyasda qida məhsullarının itkisi, israfı və tullantılarının əmələ gəlməsini insan fəaliyyətinin qaçılmaz nəticəsi hesab etmək olar. Bu məhsulların sənaye emalından başlayaraq məişət istehlakınadək tullantıların ekoloji tarazlığın pozulmasına təsiri mühüm problemlərdən biri olaraq qalır. Onlar sahə mütəxəssislərinin elmi araşdırmalarında göstərdikləri kimi, bioloji parçalana bilən zərərsiz maddə kimi görünsə də, çürüdükdə və tələb olunan səviyyədə idarə edilmədikdə ətraf mühitə metan emissiyaları buraxırlar. Ekspertlərin fikirncə, poliqonlarda israf edilən qida qlobal emissiyaların təxminən 8 faizinə malikdir. Bununla yanaşı, dünyada istifadə edilən kənd təsərrüfatına yararlı torpaq sahələrinin üçdə biri və ya təxminən 3,4 milyon hektarı və suyun 70 faizi həmin israf edilən–itirilən qida məhsullarının yetişdirilməsinə sərf edilir [6].

Problemin ciddiliyini nəzərə alan prof. B.X.Ataşov elmi araşdırmalarında ölkəmizdə ərzaq təhlükəsizliyinin mühüm istiqamətlərindən biri kimi, qida tullantı və itkilərinin azaldılmasının zəruriliyini əsaslandıraraq qeyd edir: "Ən böyük qəbahətimiz qənaət rejiminə əməl etməməyimizdir. İstehsal–istehlak zəncirində ən çox istifadə olunan çörək, ət, süd və meyvə-tərəvəz məhsullarının dörddə biri təsərrüfatsızlığımız və səhlənkarlığımız səbəbindən itkiyə gedir" [7, s.105]. Alimin bu fikri ilə razılaşaraq deyə bilərik ki, həqiqətən qida itki və tullantılarının yaranmasında iqtisadi infrastrukturun qənaətbəxş olmaması, qida və tədarük zəncirinin qeyri-mükəməlliyi və müasir texnologiyaların zəif tətbiqi kimi mühüm amillərin təsiri vardır. Ümumiyyətlə, istehlak bazarının tədqiqi və təhlilinin nəticələri göstərir ki, tədarük zəncirinin

bütün mərhələlərində–istehsal, daşıma, saxlama və istehlak prosesində qida itkisi və tullantıları yaranır.

BMT-nin "Ətraf Mühit Proqramı"nın məlumatlarına görə, Türkiyədə hər il ev təsərrüfatlarında istehlak nəticəsində qida israfı 7,7 mln ton təşkil edir ki, bu da adambaşına düşən illik qida tullantılarının 3 kq olduğunu göstərir [8].

Qeyd etmək lazımdır ki, qida tullantıları həyatın bir çox sahələrinə–qlobal ərzaq böhranı və aclığa, istehsal, nəqliyyat-loqistika xidmətində yanacaq itkilərinə, əkin sahələrinin məhsuldarlığının azalmasına, elektrik enerjisi və su ehtiyatlarının tullantılarına, işçi qüvvəsi və maliyyə itkilərinə səbəb olur. Bunun üçün "ağıllı istehlakçı" kimi qida istehlakı mədəniyyəti, davranışı və vərdişlərinin mənim-sənilməsi, eləcə də davamlı həyat tərzi itki və israfın qarşısının alınmasına imkan verə bilər.

Aparılmış tədqiqatlar və onların elmi cəhətdən əsaslandırılmış nəticələrinə görə, ərzaq məhsullarının itkisi və qida tullantılarının azaldılması iqlim, qida təhlükəsizliyi və ərzaq sistemimizin davamlılığı baxımından üç mühüm üstünlüklərə –təbii ehtiyatların məhdudluğu, dünyada ərzaq çatışmazlığı, qidalanma və aclığın artmasına malikdir. Məhz bu səbəbdən ərzaq təhlükəsi, qidalanma və aclığın artdığı bir vaxtda bu məsələ prioritet olmalıdır.

Tədqiqat obyektimiz üzrə problemin sosial-iqtisadi əhəmiyyətini nəzərə alaraq demək olar ki, innovativ texnologiyaların sürətli və davamlı inkişafı, eyni zamanda rəqabət mübarizəsinin kəskinləşməsi şəraitində bir çoxumuz üçün ərzaq məsələsi təbii qəbul olunur. Lakin aclıq çəkən və ya normal qidalanmayan milyonlarla insanlar üçün qidanın mövcudluğuna zəmanət verilmir. İqlim dəyişmələri və Ukraynada müharibə qlobal ərzaq təhlükəsizliyi sisteminin fəaliyyətini pozmaqla miyonlarla insanı qida təhlükəsizliyi təminatının olmaması şəraiti qarşısında qoyur.

Fikrimizcə, qida itki və tullantılarının yaranması həm iqtisadi, həm də ekoloji və sosial baxımdan ciddi problemlərə səbəb olur. Bununla yanaşı, unutmaq olmaz ki, ekoloji baxımdan qida tullantılarının parçalanması nəticəsində atmosferə karbon qazı və metan kimi istixana qazları yayılaraq iqlim dəyişmələrinə ciddi təsir göstərir.

Bir çox Azərbaycan və xarici ölkə alimləri BMT-nin və Dünya Bankının hesablamalarına əsaslanaraq, 2016-cı ildən 2050-ci ilədək dünyada məişət tullantılarının həcminin təxminən 1,4 mlrd ton artacağını proqnozlaşdırırlar [9]. Bu əsasən sürətli iqtisadi inkişaf, rəqabət və əhalinin artımı ilə sıx əlaqədardır. Bununla belə, qida və sənaye tullantılarının çox olmasına, innovativ texnologiyaların sürətli və davamlı inkişafına baxmayaraq, onların yalnız az hissəsi təkrar emal edilir.

"Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritretlər"də "Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq, ekoloji təmiz texnologiyaların tətbiqi, ... tullantıların təkrar emalı" və 2030-cu ilədək "Dayanıqlı İnkişaf Məqsədləri" çərçivəsində adambaşına düşən qida tullantılarının həcminin 2 dəfəyədək azal-dılması mühüm vəzifə kimi qarşıya qoyulmuşdur [10].

Dünyada bir sıra ölkələrdə aparılmış tədqiqatlar bizə imkan verir ki, ərzaq təhlükəsizliyi kontekstində qida israfı və tullantıların yaranma səbəblərindən bəzilərini həm də aşağıdakı kimi xarakterizə edək:

- - əhalinin ərzaq təminatının mükəmməl olmaması və tullantıların səmərəsiz idarə edilməsi;
- - insanların öz qida ehtiyaclarını düzgün müəyyən etməməsi;
- - "ağıllı" alış-verişin azlığı, ərzağın düzgün qablaşdırılmaması və saxlanması, qida qalıqlarının obyektiv qiymətləndirilməməsi və s.

Qeyd etmək lazımdır ki, son vaxtlar dünyada tullantıların idarə edilməsi ilə bağlı sosial-iqtisadi problemlər və onların müxtəlif həlli yollarının tədqiqi onu deməyə əsas verir ki, qida tullantıları yalnız resursların tükənməsinə, aclığa və yoxsulluğa yol açmır, eyni zamanda ciddi ekoloji problemlər yaradır. Belə ki, elektron resurslara əsasən, atmosferdəki zərərli qazların təxminən 10 faizi məhz qida tullantılarından qaynaqlanır. Həmin mənbələrdən əldə edilmiş digər rəsmi araşdırmalar təsdiq edir ki, BMT-nin "Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı"nın (FAO) hesabatının nəticələrinə görə, 2019-cu il ərzində Azərbaycanda adambaşına 93 kq, toplam halda isə 935 min ton qida tullantısı yaranmışdır. Müqayisə üçün deyək ki, bu göstərici Amerika qitəsi ölkələrində 69, Şərqi Avropada 61, Qərbi Avropada 65, Cənubi Asiyada 66, Şərqi Asiyada 64 kq olmuşdur [5].

Mövcud elmi ədəbiyyatların və tədqiqatların araşdırılması nəticəsində müəyyən edilmişdir ki, böyük həcmdə qida tullantıları zibilxanalara atılaraq çürüyür və qlobal istiləşmə adlandırdığımız təbiət hadisələri kompleksini təmin edən istixana qazına çevrilir. Əlbəttə bu istixana qazının artmasının əsas səbəbi olmasa da, ona xeyli təsiri vardır.

Ərzaq təhlükəsizliyinin təminatı və qida tullantılarının azaldılmsı

Qida məhsullarından ibarət üzvi (orqanik) tullantıların həcminin azaldılmasına müasir texnologiyaların tətbiqi ilə yanaşı, ən başlıcası səmərərli və şüurlu istehlak norması prinsiplərinə əməl etməklə yüksək iqisadi səmərəyə və qənaətə nail olmaq mümkündür. Bu da öz növbəsində ərzaq təhlükəsizliyi, iqlim dəyişmələri, torpaq-

ların deqradasiyası və biomüxtəlifliyin azalması problemlərinin həlli, resurslara qənaət və tullantıların səmərəli idarə edilməsi kimi üstünlüklərə imkan verir. Ekspertlərin fikrincə, əgər istehsalın həcmi azalmazsa, 34 ildən sonra 60 faizdən çox qida tələb olunacaq. Eyni zamanda tullantılarla bağlı problem həll edilərsə, qidaya tələbat cəmi 28 faiz arta bilər [11]. Problemin belə kəskin qoyuluşunu nəzərə alan iqtisadçı alim, professor E.Quliyev elmi araşdırmalarında qeyd edir: "Qida itkilərinin azaldılması məqsədilə yüksək texnologiyaların tətbiqi məsələlərinin reallaşdırılması üçün iri qida layihələri və proqramları hazırlanaraq həyata keçirilməlidir [12, s.45]. Alimin qeyd edilən problemin həllinə elmi yanaşması onu deməyə imkan verir ki, dünyada əhalinin sürətlə artdığı, təbii ehtiyatların tükəndiyi bir şəraitdə ərzaq təhlükəsizliyinin təmina-tının əsas istiqamətlərindən biri kimi, qida itki və tullantılarının idarə edilməsi problemi özünü daha kəskin şəkildə biruzə verməkdədir. Bu problemin qlobal miqyasda kəskin xarakter almasından sonra qeyd edilən məsələ istənilən dövlət, o cümlədən Azərbaycanın milli təhlükəsizliyinin tərkib hissələrindən birinə çevril-mişdir. Belə ki, problemin həlli ilk növbədə ərzaq təminatı, qida tullantılarının azaldılması məqsədilə idarə edilməsinin onların təkrar emalının iqtisadi səmərəsinin artırılması ilə bağlıdır.

ABŞ-də ətraf mühitin mühafizəsi üzrə Agentlik (YRA) qida tullantılarına "Ərzaq mağazalarında, restoran, kafe və mətbəxlərdə, eləcə də ictimai iaşə müəssisələrində qida hazırlanmasından yaranan qida və qida tullantılarını" aid edirlər [13]. Bu təşkilatın milli agentlik olmasına baxmayaraq, burada hər bir ştat milli siyasətə uyğun olaraq, qida tullantılarının mahiyyətinə digər təriflərə zidd olmayan öz mövqelərini bildirmək imkanına malikdirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ildə ölkəmizdə 4365 min ton və ya əvvəlki illə müqayisədə 6,8 faiz çox tullantı əmələ gəlmiş və onların ümumi həcmindən 69,3 faizini bərk məişət tullantıları, 30,7 faizini isə istehsalat tullantıları təşkil etmişdir. Təkcə 2023-cü ildə yaranmış 3025,4 min ton bərk məişət tullantılarının 80,5 faizi zərərsizləşdirilməsi məqsədilə poliqonlara daşınmış, 19,2 faizi enerji əldə edilməsi üçün istifadə edilmiş və 0,3 faizi daxili bazarda satılmışdır. Məhz onlardan istifadə (19,2 faiz) hesabına 232,5 mln. kVt/saat və ya əvvəlki illə müqayisədə 4,3 faiz çox elektrik enerjisi istehsal edilmişdir [14].

Respublikamızda tullantıların yaranması, toplanması, zərərsizləşdirilməsi və ümumiyyətlə səmərəli istifadəsi–təkrar emalı ilə bağlı mövcud vəziyyəti aşağıdakı cədvəl məlumatları daha aydın göstərir (cədvəl 1).

Cədvəl 1. 2010–2024-cü illərdə Azərbaycanda istehsal və istehlak tullantılarının vəziyyəti (min ton)

S/s	Tullantılar	2010	2015	2020	2024	2024-cü ildə 2010-cu ilə nisbəti faizlə
1	Yaranmış tullantılar–cəmi	2281,5	2350,4	3452,3	4365,0	1.9 dəfə
	o cümlədən:					
	bir nəfərə düşən (kq)	252	247	346	427,8	1,7 dəfə
	ev təsrrüfatlarında (kq)	1609,3	1534,7	23500	3025,4	1,9 dəfə
	məişət tulantıları (mln m^3)	6,7	6,4	9,8	12,6	1,9 dəfə
2	İstifadə edilmiş və zərərsizləşdirilmiş tullantılar – cəmi	476,1	771,7	792,1	1148.4	2,4 dəfə
	O cümlədən					
	bir nəfərə düşən	53	81	79	112,6	2,1 dəfə

Mənbə: Cədvəl DSK-nin məlumatı əsasında müəllif tərəfindən tərtib edilmişdir. stat.gov.az/news/index.php? Lang=az.id=6259 [14].

Cədvəldə əks olunmuş məlumatları təhlil edərək qeyd etmək lazımdır ki, son illər iqlim dəyişiklikləri və ətraf mühitin qorunması istiqamətində aparılan dövlət səviyyəli tədbirlər hesabına ölkəmizdə təbii olaraq yaranmış və toplanmış tullantıların həcmi 2024-cü ildə 2010-cu il ilə müqayisədə 1,9 dəfə artsa da, həmin dövrdə onlardan səmərəli istifadə və zərərsizləşdirilməsi, başqa sözlə, təkrar emalının həcmi 2,4 dəfə yüksəlməsidir. Ekspertlərin fikrincə, "Tullantıların idarə edilməsinin əsas məqsədi onların əmələ gəlməsini azaltmaq, təkrar emal və təkrar istifadə yolu ilə resursların bərpasını optimallaşdırmaq, ... təmin etməkdir" [15, s.35].

Ümumiyyətlə, "Tullantı"lar anlayışının mahiyyəti və məzmunu ilə bağlı olan araşdırmalardan sonra əsas tədqiqat məqsədimiz olan qida tulantıları və itkilərin idarə edilməsinin sosial-iqtisadi əhəmiyyətinə diqqət yetirək.

Fikrimizcə, apardığımız tədqiqatların nəticəsi olaraq təsdiq etmək olar ki, itkilər qida məhsullarının tədarükü və ya izafi dəyərin yaranması zəncirinin bütün mərhələlərində yaranır. Bununla yanaşı, xarici ölkə müəlliflərinin araşdırmalarının təhlili də onu deməyə əsas verir ki, gəlirləri aşağı səviyyəli ölkələrdə itkilərin çox hissəsi istehsal prosesində baş verir. Bununla belə, inkişaf etmiş ölkələrdə isə ildə adambaşına 100 kq-dək qida istehlak mərhələsində israf olunur [13].

Qeyd etmək lazımdır ki, müasir şəraitdə qida itki və tullantılarnın azaldılması problemləri qlobal iqtisadiyyat və ətraf mühit üçün çox ciddi əhəmiyyət kəsb edir. Ölkəmizdə əhali artımı, şəhərsalma və pərakəndə ticarətin genişləndirilməsi ilə birilkdə, qeyd edilən tullantıların həcmi də atmaqdadır. Bu isə onu deməyə əsas verir ki, həm istehlakçı, həm də dövlət səviyyəsində qida tulantılarının optimal idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə böyük ehtiyac vardır.

Məlum olduğu kimi, rəqəmsal və innovativ texnologiyaların sürətli inkişafı qida tullantı və itkilərinin azaldılması istiqamətində özünü büruzə verir. Bu baxımdan, ilk növbədə rəqəmsal platformalar və süni intellekt texnologiyaları vasitəsilə qida və tədarük zəncirində real vaxt monitorinqi keçirmək mümkündür.

Azəbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) məlumatına əsasən, 2023-cü ildə "Foodini" MMC-nin istehlaka yararsız və müddəti bitmiş ümumi çəkisi 7,355 ton müxtəlif növ qida məhsulu tullantısı məhv edilmişdir. Bununla yanaşı, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Analitik Ekspertiza Mərkəzinin nəzdində "Ölkədə qida təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan 17 laboratoriya fəaliyyət göstərir" [16].

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun "2021-ci ildə dünyada təqribən 2,3 milyard insan orta və ya ağır dərəcədə qida çatışmazlığı yaşayıb. Hazırda 820 milyondan artıq insan aclıqdan əziyyət çəkir. BMT-nin UNEP–Ərzaq Mühiti Proqramının Ərzaq Tullantıları İndeksi Hesabatına əsasən, qlobal ərzaq istehsalının 17 faizi israf edilir ki, bu tullantıların da 43 faizi ev təsərrüfatlarında, 26 faizi qida xidmətlərində və 13 faizi pərakəndə ticarətdə yaranır. Dünyada əhalinin sayı sürətlə artır. Bu da resursların azalmasına və qida itki və tullantılarının artmasına səbəb olur. Bu tullantıların 2030-cu ilədək 30 faiz artaraq 82 mln tona, 2050-ci ilədək isə dünya əhalisinin sayının 9,8 milyarda çatacağı proqnozlaşdırılır ki, buna uyğun olaraq ərzaq istehsalı indiki dövrlə müqayisədə 60 faiz artmalıdır. Bununla yanaşı, qlobal istixana qazı emissiyalarının 8–10 faizinin insanlar üçün istehsal edilən, lakin istehlak olunmayan qidalardan ibarət olduğu təxmin edilir [17].

Qida tullantıları və itkilərin idarə edilməsinin zəruriliyi

Elmi ədəbiyyatlarda və internet resurslarında qida itkiləri və tullantılarının meyvə və tərəvəzlərdə, eləcə də taxılda ən yüksək nisbətə malik olması ilə qarşılaşırıq. Belə ki, aparılmış tədqiqatların nəticəsi olaraq, qida məhsulu kimi, tərəvəz və meyvə tullantılarının parçalanma müddəti olduqca qısadır və bu müddətdə o, təbiətə zərərdən daha çox fayda verərək torpaqdakı mineralları artırır. Burada əsas problem qida itkisi və ya israfının qarşısını almaq üçün ciddi tədbirlər görməyə ehtiyac olduğunu göstərir ki, onlardan biri də qidaların qablaşdırılmasıdır. Ekspertlərin fikrincə, Türkiyədə qida itkisinin 4-5 faizini düyü təşkil etdiyi halda, Azərbaycanda bu itkinin həcmi 14 faizdən çox, buğda 12 faiz, kartof 10 faiz təşkil edir [16].

Beləliklə, yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, dünya əhalisinin getdikcə artdığı bir dövrdə təbii ehtiyatları qorumaq və əhalini kifayət qədər qida

məhsulları ilə təmin etmək məqsədilə qlobal qida istehsalı texnologiyalarının təkmilləşdirilməsi və tədarük zəncirində itki və israfın minimuma endiriməsi kimi daha dayanıqlı sistemlərə keçilməsi zərurəti yaranmışdır.

Apardığımız tədqiqatların nəticəsi göstərir ki, qida itkisi və israfı ilə bağlı problemlərin aradan qaldirilması yalnız institusional və hüquqi çərçivədə, istehsal–satış metodlarının təkmilləşdirilməsi, qida məhsullarının saxlanılması və bölgüsünə deyil, həm də istehlak daxil olmaqla qida məhsullarının istehsal–istehlak zəncirində bütün iştirakçılarının maarifləndirilmə–bilik səviyyəsinin yüksəldilməsi ilə yanaşı, istehlakın resurstutumlu modelindəki dəyişiklikləri nəzərə almağı tələb edir. Məlum olduğu kimi, müasir dövrümüzdə texnologiyaların sürətli inkişafına baxma-yaraq, qida tullantıları dünyada böyük ekoloji və iqtisadi problem olaraq qalır. Onların azaldılması isə ətraf mühit, iqtisadiyyat və cəmiyyət üçün ciddi narahat-çılıqlar yaradır.

NƏTİCƏ

Beləliklə, tədqiqatın yekunu olaraq aşağıdakı nəticəyə gəlmək olar:

- şəxsi istifadə üçün məhsul (xidmət) alan, son "istehlakçıların (əhali) ehtiyaclarının müəyyən edilməsi, "ağıllı" bazarlıq (alış-veriş) qidanın düzgün saxlanılması, qiymətləndirilməsi, həmçinin əmtəəlik məhsul istehsalı və onun digər istehlakçılara təkrar satışı məqsədilə məhsul alan və ya xidmət göstərən istehlakçı-təşkilatlar sənaye müəssisələri və müxtəlif təsərrüfat subyektlərinin qida tullantılarının ekoloji və sosial təsirləri, həmçinin onların iqtisadi nəticələri haqqında maarifləndirilməsi;
- istehsal–istehlak (təchizat) və qida zəncirinin və ya infrastruktur, nəqliyyat–logistika xidmətinin təkmilləşdirilməsi;
- beynəlxalq təcrübəyə əsalanaraq, ərzaq bərpa proqramlarının (ev təsərrüfatları, qida xidmətləri və pərakəndə ticarətdə yaranan artıq ərzaqları toplayan, ərzaq banklarına və yoxsullara xidmət göstərən təşkilatlara yenidən paylayan) yaradılması;
- artıq qidanın yenidən səmərəli bölüşdürülməsi, tullantıların idarə edilməsi, azaldılması və yoxsulluğun həlli məqsədilə artıq ərzaq istehsalçılarını qidaya ehtiyacı olanlarla mobil proqramlar və onlayn platformalar vasitəsilə əlaqələndirmək üçün müasir informasiya texnologiyalarından istifadə;
- ərzaq banklarına və qida tullantılarının azaldılmasına xidmət təşkilatlarına maliyyə və maddi-texniki dəstək göstərilməsi;
- istehlakçı davranışını (istehlakçıların ehtiyacları daxilində ərzaq almağa, düzgün saxlamağa və səmərəli istifadəyə) sağlam qida istehlakı normalarına həvəsləndirmək;

- qida itkiləri və tullantıların insanların rifahı naminə azaldılmasını hədəf seçmək;
- otel-qonaqpərvərlik və turizm biznesi və sənayesində qida tullantılarının azaldılması təcrübələrinin tətbiqi;
- qida məhsullarının mühafizəsi, qablaşdırma vasitələri və utilizasiyası üçün yeni rəqəmsal texnologiyaların inkişafına sərmayə qoyuluşu;
- ehtiyacımız qədər qida almalı, onları düzgün saxlanmağa və artıq qidaları israf etmədən yenidən istifadə etmək.

Bütün bunlarla yanaşı, son nəticədə qida tullantı və itkilərinin optimal idarə edilməsi–qida, tədarük və nəqliyyat–loqistika zəncirində xərclərin azaldılması iqtisadi cəhətdən faydalı hesab edilə bilər.

ƏDƏBİYYAT

1. "Tullantılar haqqında Azərbaycan Respublikasının Qanunu"/ 2018-ci il 28 dekabr tarixli 1403-VQD nömrəli dəyişikliklər./ "Azərbaycan" qəzeti 31 yanvar 2019-cu il.
2. Tullantıların statistik təsnifatı. ARDSK /Rəsmi nəşr./Bakı-2023
3. Эффективное обращения с отходами – кратко о главном. [Elektron resurs] : // btrud.ru/blog/tpost/nmqado 3j61
4. [Elektron resurs]: https://www.un.org.
5. [Elektron resurs]: https://afn.az/144683-tek-torpagin-deyil-havaninda
6. Nayibova T.M. , Ömərova N.A. Qida məhsulları tullantılarının ətraf mühitə təsiri. [Elektron resurs]: https:82.194.3.83/1spui/bitstream.pdf(2024).
7. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) Bakı-2017 , "Kooperasiya" nəşriyyatı, 536 s.
8. Qida tullantıları nədir, niyə baş verir. Qida israfının qarşısını necə alaq? [Elektron resurs]: https://az.rayhaber.com/2022/or/qida...
9. Переработка отходов. [Электронный ресурс]: calltonch.ru/blog// II-noveysh-tehnoloqiy-v-biznese.
10. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər./ Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir./Xalq qəzeti, 03 fevral 2021-ci il.
11. Пищевые отходы : kp.ru/family/ecology/pishchevye-otkhody.
12. Quliyev, E.A. Qida təhlükəsizlinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya . Bakı, 2020. "Kooperasiya" nəşriyyatı, 464 s.
13. Пищевые отходы. [Электронный ресурс]: ru.wikipedia.org/wiki/ Пищевые _ отходы. Milionen Tonnen fwr die Tonne/ Arxivirovano 12 декабря 2019 года.
14. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2024-cü ildə tullantıların hərəkəti haqqında. [Elektron resurs]:https://stat.gov.az/ news/index. php3
Lang=az/d=6259.
15. Həsənov R., Tullantıların idarə edilməsi və təkrar emalı: Ümumi baxış. İpək yolu, №3, 2023, səh.35-40.
16. İstehlaka yararsız qida tullantıları. [Elektron resurs]: https://qafqazinfo.az/news/ defail/7-tondan-çox-qida.; afsi.gov.az/az/
17. Sərdarbəyli S.Y. Qidaların qablaşdırılmasının əhəmiyyəti və bu sahədə yeni texnologiyaların tətbiqi. [Elektron resurs]: https://afsa.gov.az/qidaların.

UNEC, İl 13, Cild 13, oktyabr – dekabr, 2025, səh. 150-160
UNEC, Year 13, Volume 13, October – December 2025, pp. 150-160

AZƏRBAYCAN ŞİRKƏTLƏRİNDƏ KORPORATİV İDARƏETMƏNİN MODERNLƏŞDİRİLMƏSİ VƏ TƏTBİQ PROBLEMLƏRİNİN TƏHLİLİ

Daxil olub: 3 noyabr 2025-ci il
Qəbul olunub: 5 dekabr 2025-ci il

Received: 3 November 2025
Accepted: 5 December 2025

Fərəh Süleymanova[1], Mircavid Həsənov[2]
[1]magistr, UNEC
[2]müəllim, UNEC
[1]suleymanovafereh2@gmail.com
[2]mirjavid_hasanov@unec.edu.az
[1]https://orcid.org/0009-0004-2461-248X
[2]https://orcid.org/0009-0008-4008-417X8

DOI: https://doi.org/10.30546/UNECSR.2025.04.3046

Xülasə

Bu tədqiqat Azərbaycanda korporativ idarəetmə prinsiplərinə keçid imkanlarının mövcud vəziyyətini qiymətləndirmək və bu sahədə sistemli və funksional transformasiyanı stimullaşdırmaq məqsədi daşıyır. Tədqiqatda həm dövlətə məxsus müəssisələr (DMO), həm də özəl və ailə xarakterli şirkətlər üzrə hüquqi və institusional çərçivələr təhlil edilmişdir. Metodologiya olaraq normativ aktların və sahə hesabatlarının məzmun təhlili, ESG hesabatlarının müqayisəli analizi, OECD və EBRD-nin diaqnostik sənədləri əsasında sektorial fərqlərin müəyyənləşdirilməsi yanaşmaları istifadə olunmuşdur. Araşdırmanın nəticələrinə görə, hüquqi baza (Mülki Məcəllə, BFB qaydaları, Nazirlər Kabinetinin qərarları və s.) mövcud olsa da, şirkət daxilində tətbiq səviyyəsi qeyri-bərabərdir. Şuralarda müstəqil üzvlərin real səlahiyyətlərlə təmin edilməməsi, ESG hesabatlarının səthi qalması və risk çərçivələrinin formal xarakter daşıması əsas problemlər kimi qeyd edilir. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, "keçid modeli" adlı yol xəritəsi hazırlanmış və bu modelə uyğun olaraq, mərhələli strukturlaşdırılmış idarəetmə çərçivəsi təklif olunmuşdur. Praktiki aktuallıq isə odur ki, bu model vasitəsilə şirkətlər daxili siyasətlərini gücləndirib, beynəlxalq investorların gözləntilərinə uyğunlaşa bilərlər.

Açar sözlər: *korporativ idarəetmə, idarəetmə islahatları, Azərbaycan şirkətləri, investisiya cəlbedciliyi.*

АНАЛИЗ ВОЗМОЖНОСТЕЙ ПЕРЕХОДА АЗЕРБАЙДЖАНСКИХ КОМПАНИЙ К ПРИНЦИПАМ КОРПОРАТИВНОГО УПРАВЛЕНИЯ

Ферах Сулейманова[1], Мирджавид Гасанов[2]
[1]магистр, UNEC
[2]преподаватель, UNEC

Резюме

Настоящее исследование направлено на комплексную оценку возможностей перехода к эффективному корпоративному управлению в Азербайджане. Объектом анализа выступают как государственные предприятия, так и частные, включая семейные компании, с целью выявления слабых и сильных сторон существующей системы. Методология основана на контент-анализе нормативно-правовой базы (Гражданский кодекс, правила Бакинской фондовой биржи, решения Кабинета Министров), анализе ESG-отчетов крупнейших компаний, а также сравнительном обзоре рекомендаций международных организаций (OECD, EBRD, МВФ). Результаты показывают, что, несмотря на наличие основательной законодательной базы, уровень фактической реализации принципов корпоративного управления остаётся низким. Среди основных проблем: формальность роли независимых членов совета, поверхностный характер ESG-отчетов и слабые механизмы внутреннего контроля. Научная новизна заключается в разработке поэтапной модели перехода (“дорожной карты”), включающей внедрение типовых положений о комитетах, применение принципа “соблюдай или объясняй” в годовой отчетности, структурирование ESG-индикаторов, начиная с управленческих и социальных аспектов. Практическая значимость исследования состоит в том, что предложенная модель служит инструментом повышения прозрачности, укрепления доверия инвесторов и адаптации местных компаний к международным требованиям. Особое внимание уделяется реалиям стран с переходной экономикой, в том числе проблемам семейного контроля и неформального управления.

Ключевые слова: *корпоративное управление; ESG-отчётность; нормативная база; независимость совета; модель перехода.*

ANALYSIS OF THE TRANSITION OPPORTUNITIES TO CORPORATE GOVERNANCE PRINCIPLES IN AZERBAIJANI COMPANIES

Ferah Suleymanova[1], Mirjavid Hasanov[2]
[1]master, UNEC
[2]teacher, UNEC

Abstract

This research aims to evaluate the current conditions and practical transition pathways to corporate governance standards in Azerbaijan. The focus lies on both state-owned enterprises (SOEs) and private or family-run companies, assessing the effectiveness of regulatory frameworks and internal governance mechanisms. The study applies a mixed-method approach, including document analysis of national legal acts (Civil Code, Listing Rules of the Baku Stock Exchange, Cabinet resolutions), content analysis of ESG reports, and a comparative review of OECD and EBRD country diagnostics. The findings indicate that although a strong regulatory foundation exists, practical implementation varies significantly across sectors. Common weaknesses include the limited authority of independent board members, the superficial nature of ESG disclosures, and underdeveloped internal audit and risk management structures. The scientific novelty of the study lies in proposing a "transition roadmap" that outlines a step-by-step approach to enhancing corporate governance structures within Azerbaijani companies. This roadmap includes adopting model charters for board committees, introducing the "comply or explain" principle into annual reporting, and gradually integrating ESG metrics starting from governance and social indicators. The study's practical relevance is high: it provides actionable guidelines for improving investor confidence, aligning corporate practices with international standards, and strengthening governance transparency and efficiency. In particular, the model addresses the unique characteristics of Azerbaijani firms operating in a transition economy context, where familial ownership and informal decision-making often dominate.

Keywords: *corporate governance, ESG disclosure, regulatory framework, board independence, transition model.*

GİRİŞ

Son on ildə ölkədə korporativ idarəetmə gündəliyi daha aydın şəkil alıb. Dövlət müəssisələrinin portfelini tək mərkəzdə toplamaq və onlarda müasir idarəetmə çərçivəsini qurmaq məqsədi ilə Azərbaycan İnvestisiya Holdinqinin (AİH) təsisi və ardınca aparılan qiymətləndirmələr ümumi mənzərənin "yuxarıdan-aşağıya" istiqamətdə yaxşılaşdırıldığını göstərir (OECD, 2024). Bu qiymətləndirmə təkcə AİH portfeli üçün deyil, həm də geniş mənada dövlət mülkiyyətində olan müəssisələrdə (DMO) şəffaflıq, hesabatlılıq, Müşahidə Şurası səviyyəsində peşəkar nəzarət və mübahisələrin qarşısının alınması kimi mövzuları gündəmə gətirib (OECD, 2024). Bank sektorunda isə prudensial tələblər sərtləşdirildikcə, risk mədəniyyəti və

idarəetmənin keyfiyyəti də paralel güclənib; bu, tənzimləyici orqanların son illərdə qəbul etdiyi standartlarda öz əksini tapır (IMF, 2025).

Bazar infrastrukturunun özəyini təşkil edən Bakı Fond Birjasının (BFB) listinq və ticarət qaydalarında da açıqlama, IFRS tətbiqi, daxili nəzarət və investorun məlumatlandırılması kimi mövzular daha sistemli tərzdə təsbit olunub (BFB, 2025). Qanunvericilik bazası baxımından Mülki Məcəllə, "Qiymətli Kağızlar Bazarı haqqında" Qanun və "Banklar haqqında" Qanun şirkətlərin daxili strukturları, səhmdar hüquqları, emisiya prospekti, açıqlama və banklarda idarəetmə standartlarının mahiyyətini müəyyən edir. İqtisadiyyat Nazirliyi tərəfindən 2011-ci ildə təsdiq olunmuş "Azərbaycan Korporativ İdarəetmə Standartları" isə "riayət et və ya izah et" prinsipinə söykənən, könüllü, lakin yolgöstərici çərçivə rolunu oynayır; burada səhmdarların ümumi yığıncağı, Müşahidə Şurası, icra orqanı, şəffaflıq, daxili audit və risklərin idarə edilməsi ayrıca fəsillərlə sistemləşdirilib (İqtisadiyyat Nazirliyi, 2011).

2019-cu ilin 4 iyun tarixli 257 nömrəli Nazirlər Kabineti Qərarı dövlətin nəzarətində olan hüquqi şəxslərdə korporativ idarəetmə qaydaları və standartlarını təsdiqləməklə, DMO-larda model yanaşmanı hüquqi bazaya bağlayıb. Bu addım xarici auditin məcburiliyi, şura səviyyəsində cavabdehlik və hesabatlılığın ölçülə bilən göstəricilərlə izlənməsi kimi tələbləri aktuallaşdırıb (Nazirlər Kabineti, 2019).
Eyni xətt EBRD-nin 2024 ölkə diaqnostikasında da vurğulanır:

- SOE-lər üçün tövsiyə edilən idarəetmə qaydaları;
- banklar üçün korporativ standartlar;
- onların tətbiqinə dair göstəricilərin tədricən formalaşması qeyd olunur (EBRD, 2024).

Cədvəl 1. **Azərbaycan şirkətlərində korporativ idarəetmə prinsiplərinin tətbiqi göstəriciləri**

Şirkət	Şura üzvlərinin sayı	Müstəqil üzv faizi	İllik iclas sayı	ESG hesabatı	Mənbə
ABB	5	40%	23	Var (2024)	ABB Sustainability Report 2024
AZAL	7	28%	17	Var (2023)	AZAL Sustainability Report 2023
AzerGold	6	33%	20	Var (2024)	AzerGold Sustainability Report 2024

Mənbə: OECD (2024), AZAL (2023), ABB (2024), və AzerGold (2024) hesabatlarına əsaslanan müəllif tərəfindən tərtib olunub.

Bu ümumi mənzərə fonunda əsas sual belədir: Azərbaycan şirkətləri, xüsusən də özəl, ailə xarakterli və orta həcmli müəssisələr korporativ idarəetməyə praktiki keçidi necə sürətləndirə bilər? Məncə cavab üç məntiqi xətt üzrə formalaşır:

(1) normativ baza ilə "şirkətdaxili qaydalar"ın bir-birinə bağlanması;

(2) şura və komitə səviyyəsində bacarıq, müstəqillik və cins müxtəlifliyinin gücləndirilməsi;

(3) açıqlama və ESG - Environment, Social, Governance (yəni "Ətraf mühit, Sosial məsuliyyət və İdarəetmə") hesabatlılığının bazar motivasiyaları ilə uyğunlaşdırılması (Cədvəl 1).

Normativ çərçivədən şirkətdaxili qaydalara keçid

Mülki Məcəllə səhmdar yığıncağını ali idarəetmə orqanı kimi təsbit edir, səhmdar hüquqlarını, nizamnamə kapitalı və hüquqi formaların əsas prinsiplərini müəyyənləşdirir. "Qiymətli Kağızlar Bazarı haqqında" Qanun emissiya prospekti və məlumatların açıqlanması kateqoriyalarını standartlaşdırır. "Banklar haqqında" Qanun isə daxili idarəetmə, risk idarəçiliyi və prudensial nəzarət baxımından banklara ayrıca standartlar yükləyir. Lakin "kağızdakı tələblər"dən "şirkət daxilində yaşayan qaydalar"a keçid adətən iki vacib addım tələb edir.

Birincisi, Müşahidə Şurası, audit və risk komitələri, nominasiya və ödəmə komitələrinə dair "model əsasnamələr"in şirkət nizamnaməsinə və daxili siyasətlərə çevrilməsi. Nazirliyin sənəd toplusunda ("Sənədlər") audit komitəsinin model nizamnaməsi, etik kodeks, Müşahidə Şurasının model əsasnaməsi kimi fayllar yer alır və bunlar praktik keçid üçün hazır çərçivədir (İqtisadiyyat Nazirliyi–"Sənədlər"). İkincisi, "riayət et və ya izah et" məntiqinin korporativ təqvimə yerləşdirilməsi: yəni illik hesabatda hansı Prinsip/Standartlara tam riayət olunduğu, hansılarında isə izah yolu seçildiyi bənd-bənd göstərilməlidir (İqtisadiyyat Nazirliyi, 2011).

BFB-nin listinq qaydaları yerli emitenlər üçün praktik təzyiq yaradır:

- emissiya prospektinin və ya informasiya memorandumunun təsdiqi;
- açıqlamaların Məlumatların Elektron Açıqlanması Sisteminə yüklənməsi;
- IFRS üzrə hesabatların vaxtında dərc edilməsi kimi şərtlər bazar intizamını gücləndirir (BFB, 2025).

Bu mexanizm "çubuq"dan çox "hədəf" kimi anlaşılmalıdır: açıqlamalar və vaxtında hesabat, həm kotirovka siyahısında qalmaq, həm də investor dairəsini genişləndirmək üçün zəruridir.

Şuralar, komitələr və "müstəqilliyin məzmunu"

Aparıcı tədqiqatlar göstərir ki, şuralarda müstəqil üzv payının artması, xüsusilə audit və risk komitələrinin tərkibində müstəqilliyin qorunması məlumatların açıqlanması, ESG göstəricilərinin keyfiyyəti və kapitalın maya dəyəri üzərində müsbət təsir yarada bilir (Lavin və b., 2021). Eyni zamanda, şurada cins müxtəlifliyi və müxtəlif bacarıq profillərinin (maliyyə, audit, hüquq, sektor ekspertizası) balanslaşdırılması investorların etimadına birbaşa təsir edir (Mai və b., 2025). AİH portfelinin OECD qiymətləndirməsi də məhz bu nöqtəyə işarə edir: şuraların tərkibi və səlahiyyət bölgüsü, icra ilə şura arasındakı məsafə, dövlətin "mülkədar" kimi rolu və "tənzimləyici" rolunun ayrılması kimi klassik prinsiplər üzrə irəliləyiş, effektivliyin açarıdır (OECD, 2024).

Bank sektorunda şura və komitə arxitekturası xüsusilə həssasdır: kredit riski, likvidlik, əməliyyat riskləri və uyğunluq funksiyası (compliance) üzrə ayrı mexanizmlər tələb olunur. Tənzimləyicinin tələbləri sərtləşdikcə, bankların risk mədəniyyəti, daxili audit və məlumat riskinin idarə edilməsi sahələrində də sürətli yenilənmə gözlənilən dir (IMF, 2025). Bu dəyişikliklərin məqsədi balans hesabat-larının dayanıqlığı ilə yanaşı, reputasiya riskinin azaldılmasıdır: bazar artıq "kağız üzərində komitə" deyil, "işləyən komitə" görmək istəyir.

Ölkə daxilində ailə xarakterli şirkətlərin geniş yayılması tranzitsiya iqtisadiyyatları üçün tipikdir. Ailə nəzarəti bəzən uzunmüddətli baxışı gücləndirsə də, şura müstəqilliyinin real məzmununu zəiflədə bilər. Buna görə nominasiya və səlahiyyətlərin bölüşdürülməsi siyasətinin açıq yazılması, aidiyyəti şəxslərlə əqdlər üzrə "müstəqil üzvlərin veto hüququ"na yaxın prosedurların təsbit edilməsi, azlıq səhmdarlarının hüquqlarını əməli şəkildə qorumağa kömək edir (BFB, 2025).

Açıqlama və ESG: "bazara danışan" hesabatlar

ESG açıqlamaları üzrə beynəlxalq açıq girişli tədqiqatlar, xüsusilə idarəetmə (G) sütununun iki istiqamətdə rolunu qabardır: i) şura müstəqilliyi və müxtəlifliyi şəffaflıq səviyyəsini yüksəldir; ii) yüksək açıqlama səviyyəsi kapitalın maya dəyərini azaldır (Lavin və b., 2021; Kashani və b., 2022). MDPI platformasında yayımlanan bir sıra tətbiqi araşdırmalar, sosial və idarəetmə göstəricilərinə fokuslanan inkişaf etməkdə olan bazarlarda ESG açıqlamalarının investor davranışına həssas təsir göstərdiyini təsdiq edir (Gonzaga və b., 2024). Yerli praktikada da önəmli nümunələr artır: milli daşıyıcı və iri bankların dayanıqlılıq hesabatlarında korporativ idarəetmə bölmələri, şura strukturu və komitələrin işi, etika kodeksi, antikorrupsiya, maraqlar toqquşması və təchizat zəncirində nəzarət kimi bloklar illik əsasda formalaşır

(AZAL, 2023) (ABB, 2025). PwC-nin 2021-2022 hesabatı və 2024 ESG maarifləndirmə sorğusu isə şirkətlərin ESG mövzularını tədricən "kommunikasiya dilinə" çevirdiyini göstərir (PwC, 2024).

Praktiki addım kimi şirkətlər illik hesabatlarında belə bir strukturu əsas götürə bilərlər:

- "Korporativ İdarəetmə Bəyannaməsi" (riayət et/izah et cədvəli);
- Şura və komitə tərkibi (müstəqil üzvlər, cins müxtəlifliyi, iştirak faizi);
- Aidiyyəti şəxslərlə əməliyyatların açıqlanması;
- Risk idarəetmə çərçivəsi (ERM xəritəsi, risk iştahası (Risk Appetiti));
- Etika və uyğunsuzluq bildiriş mexanizmləri;
- ESG göstəriciləri (GHG konturları varsa, ilkin səviyyədə də olsa).

Belə bir paket həm BFB listinq tələbləri, həm də beynəlxalq investor ünsiyyəti baxımından "bazara danışan" bir çərçivə yaradır (BFB, 2025).

Keçidi sürətləndirən üç alət: xəritə, mexanizm, motivasiya

✓ *Yol xəritəsi.* Şirkətlər üçillik "idarəetmə transformasiyası yol xəritəsi" hazırlamalıdır:

1-ci il - şura və komitələrin formalaşdırılması, daxili siyasətlərin qəbulu;

2-ci il - effektivliyin ölçülməsi (şura özünüqiymətləndirmə, auditor rəyləri), açıq "riayət/izah" cədvəli;

3-cü il - ESG göstəricilərinin sistemləşdirilməsi, təchizatda etika və audit zənciri. Dövlət müəssisələrində bu xəritə AİH qiymətləndirmələrinin nəticələri ilə sinxronlaşdırıla bilər (OECD, 2024).

✓ *İnstitusional mexanizm.* "Korporativ idarəetmə üzrə müşavir" (governance officer) funksiyasının təsisi informasiya axınını düzəldir, açıqlama tələblərinə riayət və səhmdar sorğularına cavabı sürətləndirir (World Bank, 2017). Nazirliyin model sənədləri bu funksiyanın təsviri üçün əsasdır (İqtisadiyyat Nazirliyi - "Sənədlər").

✓ *Bazar motivasiyası.* Listinq və reytinq məqsədləri, beynəlxalq sərmayədarların tələbləri, bankların borclanma şərtləri və potensial birgə layihələr idarəetmə standartlarını "gözəl bəyannamə"dən "əməli qayda"ya çevirir (BFB, 2025) (EBRD, 2024).

Dövlət müəssisələri və özəl sektor üçün incə fərqlər

DMO-larda korporativ idarəetmənin üç həssas xətti var:

(i) dövlətin mülkiyyətçi kimi rolu ilə tənzimləyici rolunun ayrılması;

(ii) ictimai missiya ilə kommersiya məqsədinin balansı;

(iii) satınalmalar və subsidiya mexanizmləri ilə şəffaflığın uyğunlaşdırılması.

OECD qiymətləndirməsi bu xəttləri konkret tövsiyələrlə göstərir və AİH üçün "sahiblik siyasəti"nin dəqiqləşdirilməsini önə çəkir (OECD, 2024). 2019-cu il Qərarı DMO-lar üçün korporativ idarəetmə qaydalarını formal çərçivəyə salmaqla, xarici auditin məcburiliyini xatırladır (Nazirlər Kabineti, 2019).

Özəl sektorda isə əsas çağırışlar fərqlidir: ailə nəzarəti, mədəni qərarvermə ənənələri, sürətli böyümə dövrlərində prosedurların "kağızda qalması". Burada real müstəqillik mexanizmləri - məsələn, audit və risk komitələrinin sədrliklərinin müstəqil üzvlərə həvalə edilməsi; aidiyyəti şəxslərlə əqdlərdə *"müstəqil üzv + xarici ekspert rəyinə"* əsaslanan veto; şura katibliyinin gücləndirilməsi - praktik təsir yaradır (İqtisadiyyat Nazirliyi, 2011).

Bank sektoru: risk mədəniyyəti və hesabatlılıq

Maliyyə sektorunda korporativ idarəetmə riski "hesabat"dan çox "mədəniyyət" məsələsidir. "Banklar haqqında" Qanun daxili idarəetmə və risk sistemlərini hüquqi öhdəlik kimi müəyyən edir; prudensial tələblər son illərdə daha sərt və aydın konturlu olub. 2025-ci il üzrə ölkə qiymətləndirmələrində bank sisteminin dayanıqlığı və tənzimləyicinin risk mədəniyyətini gücləndirən addımları ayrıca vurğulanır (IMF, 2025). Bu mühitdə bank şuraları yalnız kredit siyasəti deyil, həm də kadr, kibertəhlükəsizlik, model riskləri və məlumatların bütövlüyü kimi mövzulara məsuliyyətlə yanaşmalıdır.

İdarəetmə ilə hesabatlılıq əlaqəsinin banklarda daha sərt işləməsinin ikinci səbəbi bazar motivasiyasıdır: reytinq agentlikləri, beynəlxalq maliyyə institutları və tələbkar investor dairəsi açıqlama standartlarına həssasdır. Bu baxımdan, IFRS hesabatlarının vaxtında təqdim edilməsi, audit rəylərinin qeyd-şərtsiz olması və risk çərçivəsinin şura səviyyəsində təsdiqi bir növ "*giriş bileti*"dir (BFB, 2025) (EBRD, 2024).

ESG transformasiyasında idarəetmənin rolu

İdarəetmə sütunu ESG gündəliyinin "yamaq" deyil, "əsas" olduğunu xatırladır. Tətbiqi tədqiqatlar göstərir ki, şura müstəqilliyi və müxtəliflik ESG açıqlamasını artırır; ESG göstəricilərinin yüksəlməsi isə sərmayədar marağını gücləndirir (Lavin, 2021) (Abudu, 2025). İnkişaf etməkdə olan bazarlarda şirkətlər çevik olaraq əvvəlcə sosial və idarəetmə göstəricilərinə fokuslanır; bu da reallığın diktəsidir - resurslar məhduddursa, "idarəetməni düzəlt, sonra ekoloji ölçməni dərinləşdir" yanaşması kompakt başlanğıcdır (Gonzaga, 2024).

Ölkədə artıq ilk dalğa dayanıqlılıq hesabatları meydana gəlir: sektor liderlərinin illik sənədlərində idarəetmə bölmələri, etika və antikorrupsiya öhdəlikləri, şura və komitə strukturu, maraqlar toqquşması prosedurları görünür (AZAL, 2023). PwC-nin yerli hesabatları təşkilatların ESG mövzusunu planlaşdırma və kommunikasiya xəritəsinə daxil etdiyini göstərir (PwC, 2022). Bu tendensiya beynəlxalq tələblərlə qarşılaşan şirkətlərin praktiki adaptasiyasını asanlaşdırır.

"Keçid imkanları"nın konkret xəritəsi: addım-addım
Şura səviyyəsində:

- Nizamnamə və Daxili Qaydalar: Müşahidə Şurası, audit, risk, nominasiya və ödəmə komitələrinin model əsasnamələrini qəbul etmək; səlahiyyət bölgüsünü yazılı təsdiq etmək (İqtisadiyyat Nazirliyi – "Sənədlər").
- Müstəqillik və Bacarıqlar: ən azı audit və risk komitələrinin sədri müstəqil üzv olsun; maliyyə və hüquq bacarıqları ilə cins müxtəlifliyi balansı qurulsun (Mai, 2025).
- Özünüqiymətləndirmə: illik əsasda şura və komitələrin özünüqiymətləndirmə anketləri; nəticələr "riayət/izah" cədvəlinə inteqrasiya edilsin (İqtisadiyyat Nazirliyi, 2011).

İcra səviyyəsində:

- Governance Officer: açıqlama və səhmdar ünsiyyətini koordinator edən vahid funksiya (World Bank, 2017).
- Risk Çərçivəsi: ERM xəritəsi, risk iştahası bəyanatı, əsas risk göstəriciləri; banklarda bu hissə prudensial çərçivə ilə uyğunlaşdırılır (IMF, 2025; Banklar haqqında Qanun).
- Açıqlama Təqvimi: BFB/MEAS üzərindən illik və aralıq hesabatların dəqiq təqvimi, IFRS və audit sinxronu (BFB, 2025, s.2–6).

ESG və investor əlaqələri:

- "Riayət et/izah et" Cədvəli: hər prinsip üzrə bənd-bənd; izahda "nə üçün və nə vaxt" planı.
- ESG Başlanğıcı: idarəetmə və sosial göstəricilərdən başlamaq, mərhələli ekoloji metrikaya keçmək (Gonzaga, 2024) (PwC, 2024).

Gözlənilən nəticələr və risklər

Düzgün qurulmuş idarəetmə çərçivəsi aşağıdakı nəticələri verir:

(i) kapitala çıxış genişlənir;
(ii) səhmdar hüquqları əməli səviyyədə qorunur;
(iii) qərarvermə çevikləşir;
(iv) reputasiya və hüquqi risklər azalır.

Lakin təsəvvür edilən risklər də var:

- ✓ kağız üzərində "copypaste" nizamnamələr;
- ✓ müstəqil üzvlərin real təsirinin zəifliyi;
- ✓ aidiyyəti şəxslərlə əqdlərdə formalizm;
- ✓ ESG bölmələrinin yalnız "PR" səviyyəsində qalması.

Bu riskləri cilovlamaq üçün şura sədri və şura katibliyi xüsusi rol daşıyır: gündəlik, qərarların icrasının izlənməsi və komitələrin iş planı müntəzəm olmalıdır (İqtisadiyyat Nazirliyi, 2011).

DMO-larda əlavə bir çətinlik "ictimai mandat"la "kommersiya hədəfi"nin balansıdır. OECD qiymətləndirməsinin tövsiyələri - dövlətin sahiblik siyasətinin açıqlanması, şura tərkibində bacarıq matrisinin təşkili, auditin müstəqilliyi - bu balansın düzgün qurulmasına xidmət edir (OECD, 2024).

NƏTİCƏ

Göründüyü kimi, Azərbaycanda korporativ idarəetməyə keçid artıq "başlama mərhələsi"ni geridə qoyub. Normativ baza, listinq qaydaları və DMO-lar üzrə çərçivə mövcuddur. Növbəti mərhələ - özəl sektorun, xüsusən ailə xarakterli şirkətlərin konkret və ölçülə bilən addımlarla şura mərkəzli idarəetməyə keçididir. Fikrimizcə, şirkətlər bir neçə sadə və ardıcıl addımı atdıqda - model əsasnamələri qəbul edib işlədən, müstəqil üzvləri real səlahiyyətlərlə təmin edən, "riayət/izah" cədvəlini ciddi sənədə çevirən, IFRS və audit intizamını möhkəmləndirən, ESG-ni kommunikasiya yox, idarəetmənin özəyinə yerləşdirən həm daxili səmərəlilik qazanacaq, həm də investorların gözləntilərini qarşılayacaq. Bu, təkcə bazar üçün deyil, şirkətin uzunmüddətli hekayəsi üçün də daha sağlam yoldur (EBRD, 2024; BFB, 2025) (OECD, 2024).

ƏDƏBİYYAT

1. Abudu, D., et al. (2025). Corporate Governance and Shareholders' Value in Emerging Markets. Journal of Risk and Financial Management, 18(9), 499. https://www.mdpi.com/1911-8074/18/9/499/pdf
2. Azerbaijan Airlines (AZAL). (2023). Sustainability Report 2022–2023 https://cms.esghub.az/uploads/ENG_AZAL_Sustainability_Report_2022_2023_1_03107c99c7.pdf
3. Azerbaijan International Bank (ABB). (2025). Sustainability Report 2024. https://abb-bank.az/storage/uploads/files/1747209953_abb-sustainability-report-2024.pdf
4. Azerbaijan Republic. (2015). Law on Securities Market. https://mdm.gov.az/assets/upload/files/Securities%20Markets%20Law.pdf
5. Azerbaijan Republic. (2016). Law on Banks (updated version). https://uploads.cbar.az/assets/e2eb28ff9a91779f134e34b95.pdf
6. Azerbaijan Republic. (n.d.). Civil Code of the Republic of Azerbaijan (official English version).

7. Baku Stock Exchange. (2025). Rules for Admission to Trading, Listing, Keeping and Delisting of Securities at BSE.
8. EBRD (European Bank for Reconstruction and Development). (2024). Azerbaijan Country Diagnostic 2024. https://www.ebrd.com/content/dam/ebrd_dxp/assets/pdfs/country-strategies/azerbaijan/Azerbaijan-country-diagnostic-2024.pdf
9. Gonzaga, B. R., et al. (2024). The ESG Patterns of Emerging-Market Companies. Sustainability, 16(2), 676. https://www.mdpi.com/2071-1050/16/2/676/pdf
10. International Monetary Fund (IMF). (2025). Republic of Azerbaijan: 2025 Article IV Consultation—Press Release; Staff Report.
11. İqtisadiyyat Nazirliyi. (2011, 28 yanvar). Azərbaycan Korporativ İdarəetmə Standartları. https://economy.gov.az/storage/files/files/4185/LMLmAgNP2GE7qnJLsJUtDZowY0ILCbSXSQ7y6ZZl.pdf
12. İqtisadiyyat Nazirliyi. (2025). Korporativ idarəetmə – Sənədlər (model əsasnamələr, etik kodeks və s.). https://economy.gov.az/en/page/korporativ-idareetme/senedler
13. Kashani, S. M., et al. (2022). The Role of Corporate Governance in Investment Efficiency and Financial Information Disclosure Risk. Journal of Risk and Financial Management, 15(12), 577. https://www.mdpi.com/1911-8074/15/12/577/pdf
14. Lavin, J. F., Martínez, S., & Luna, L. (2021). ESG Disclosure in an Emerging Market: The Role of Corporate Governance and Firm Characteristics. Sustainability, 13(19), 10498.
15. Mai, B. D., et al. (2025). Exploring Gender and Corporate Governance in an Emerging Market Context. Journal of Risk and Financial Management, 18(7), 342. https://www.mdpi.com/1911-8074/18/7/342/pdf
16. Ministry of Economy of Azerbaijan (İqtisadiyyat Nazirliyi). (2025). Corporate Governance Documents (Templates, Ethics Codes, etc.).
17. Nazirlər Kabineti. (2019, 4 iyun). Hüquqi şəxslərin (paylarının) nəzarət zərfi dövlətə məxsus olanların fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı normativ hüquqi aktların təsdiqi haqqında Qərar №257 (14.04.2023 dəyişikliklə).
18. OECD (Organisation for Economic Co-operation and Development). (2024). OECD Review of the Corporate Governance of Azerbaijan Investment Holding and its State-Owned Enterprises. https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2024/09/oecd-review-of-the-corporate-governance-of-azerbaijan-investment-holding-and-its-state-owned-enterprises_278b440d/6764976e-en.pdf
19. PwC Azerbaijan. (2022). Sustainability Report 2021–2022.
20. PwC Region. (2024). ESG Awareness Survey-Azerbaijan. https://www.pwc.com/kz/en/assets/esg-awareness/az-esg-awareness.pdf
21. World Bank / IFC. (2017). Corporate Governance Officer: Recommendations for Azerbaijani Companies (Handbook).

<u>Jurnalın 2025-ci il buraxılışlarındakı</u> məqalələrin elmi keyfiyyətinin və peşəkar inkişafının təmin edilməsinə verdikləri töhfəyə görə bütün Rəyçilərə jurnalın Redaksiyası adından

təşəkkürümüzü bildiririk!

№	*Rəyçilər*	*İş yeri*
1.	i.e.d. İrşad Kərimli	UNEC
2.	i.e.d. Rəsul Balayev	UNEC
3.	İ.e.d. Qənimət Səfərov	SOCAR
4.	i.e.d. Aqil Əsədov	İqtisadiyyat İnstitutu
5.	i.e.d. Murad Tağıyev	BDU
6.	i.e.n. Murad Bağırzadə	UNEC
7.	i.e.n. Elman İbişov	UNEC
8.	tex.e.n. Sərdar Şabanov	UNEC
9.	i.e.n. Nazim Hacıyev	UNEC
10.	i.f.d. Cəmilə Musayeva	UNEC
11.	i.f.d. Mirvari Qəzənfərli	UNEC
12.	i.f.d. Suğra Hümbətova	UNEC
13.	i.e.n. Fərhad Mikayılov	UNEC
14.	i.f.d. Salman Nəcəfov	UNEC
15.	i.e.n. Rəşad Hüseynov	UNEC
16.	i.e.n. İlqar Seyfullayev	UNEC
17.	i.e.n. Əliağa İsmayılzadə	UNEC
18.	i.f.d. Fuad Cabbarov	ATMU
19.	i.f.d. Ceyhun Abbasov	Dövlət Vergi Xidməti
20.	i.e.n. Şövqi Quliyev	AR Mərkəzi Bankı
21.	i.f.d. Əbdülrəhim Dadaşov	İqtisadi islahatlar və kommunikasiya Mərkəzi
22.	i.e.n. Nəzakət Musayeva	UNEC
23.	i.f.d. Xaliq Rüstəmov	BDU
24.	i.f.d. Allahyar Muradov	İqtisadiyyat İnstitutu
25.	i.e.n. Vülasə Teymurova	UNEC
26.	i.e.n. Vəli Vəliyev	Milli Aviasiya Akademiyası
27.	i.f.d. Oqtay Quliyev	UNEC
28.	i.e.d.Mənsur Bərxudarov	UNEC
29.	i.f.d. Afaq Hüseyn	UNEC
30.	i.f.d. Fariz Quliyev	Elm və təhsil üzrə dövlət agentliyi
31.	i.f.d. Arzu Hüseyn	Azərbaycan Turizm və Menecment Universiteti
32.	i.f.d. Fail Kazımov	AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
33.	i.e.n. Rövşən Əkbərov	UNEC
34.	Turac Musayev	Aqrar Tədqiqatlar Mərkəzi
35.	i.f.d. Nərgiz Hacıyeva	UNEC

36.	Ayan Mirzəyeva	BDU
37.	Səbuhi Mənsimov	Bakı Beynəlxalq Dəniz Ticarət Limanı
38.	Asif Heybətov	Dövlət Sərhəd Xidməti Akademiyası
39.	Əliağa Qasımov	UNEC
40.	Rafail Rzayev	UNEC
41.	Nazim Məmmədov	UNEC
42.	Ofelya Mazanova	UNEC
43.	Tanrıverdi Paşayev	AR ETN İqtisadiyyat İnstitutu
44.	Ayan Mirzəyeva	BDU
45.	Ramiz Rəhmanov	AR Mərkəzi Bankı
46.	Günay Rəhimli	UNEC

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ
(rüblük elmi və praktik jurnal)

MÜƏLLİF ÜÇÜN QAYDALAR

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifəsi, ad və soyadı, çalışdığı qurum və elektron poçt (e-posta) ünvanı, iş və mobil telefon nömrələri göstərilməlidir.

2. Məqalə xülasə açar söz (ən çox 5 söz), (azərbaycan, ingilis və rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla **10 səhifədən** az olmamalıdır. Elektron ünvanı:
yadulla.hasanli@unec.edu.az;**elmixeberler2018@gmail.com**

3. Məqalənin əvvəlində məqalənin adı; müəllif(lər); elmi dərəcə, vəzifə; işlədikləri struktur/təşkilat; elektron poçt; ORCID iD; müəllif(lər)in mobil telefon nömrəsi *(yalnız xidməti əlaqə üçün; məqalədə göstərilmir)* qeyd olunmalıdır. Xülasə (abstrakt) məqalənin adı və müəllif məlumatları ilə birlikdə bu Qaydalarına əlavə olunmuş şablona uyğun olaraq, üç dildə (AZ/EN/RU) tərtib edilməlidir.

4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.

6. Məqalə A4 formatında, **1,5 (bir tam onda beş) intervalla**, **Times New Roman 14 şriftilə** yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxarıdan 25 mm və aşağıdan 20 mm**)** boşluq buraxılmalıdır.

7. Məqalə **azərbaycan, ingilis və rus dillərində** qəbul ediləcəkdir.

8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.

11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.

12. Məqalənin qəbulu və ya rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

SCIENCE REVIEWS AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS
(quarterly scientific and practical journal)

NOTES FOR AUTHORS

1. Articles not published or submitted for publication elsewhere are accepted in Azerbaijani, English and Russian.
2. Articles should be typed in A4 format, with 1.5 line spacing, using Times New Roman font, and should be not less than 10 pages. Margins should be set as follows: left 30 mm, right 15 mm, top 25 mm, bottom 20 mm. Articles should be sent to the official e-mail addresses of the journal **(yadulla.hasanli@unec.edu.az; elmixeberler2018@gmail.com)**.
3. The following must be provided: article title; author(s); academic degree, position; institution(s) of employment; email; ORCID iD; mobile phone number(s) of the author(s) *(for editorial contact only; not displayed in the article)*. The Abstract, together with the title and author information, must be formatted strictly according to the template attached to these Guidelines, in three languages (AZ/EN/RU).The abstract of the article should be appropriate to its content.
4. The first page should include the title of the article; the name of the author(s); institutional affiliation(s) of the author(s), ORCID iD;
5. An abstract of not more than **200-250 words** in English (the abstract must consist of sections such as "purpose", "design/methodology/approach", "findings", "research limitations/implications", "practical implications", and "originality/value"); up to 5 keywords; JEL codes. The name, address, e-mail address, phone and fax numbers, and academic sphere of interest of the author(s) should be indicated on a separate page.
6. The article should contain references to scientific sources. References cited in the article must be numbered in the order they appear in the text, not in alphabetical order, and should be denoted as [1] or [1, p. 119]. If the same source is cited again, the original reference number should be used.
7. The list of references should prioritize monographs, etc., from the last 5-10 years.
8. Articles recommended or submitted for publication by the editor, or a member of the Editorial Board will be reviewed confidentially.
9. Acceptance or rejection of articles will be decided after discussion by the Editorial Board.

НАУЧНЫЕ ВЕСТИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ЭКОНОМИЧЕСКОГО УНИВЕРСИТЕТА
(квартальный научный и практический журнал)

ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. Статьи принимаются на азербайджанском, английском и русском языках.

2. Статьи должны быть написаны в формате А4, **с интервалом в 1,5**, шрифтом **Times New Roman**, с пропусками по краям (слева 30 мм, справа 15 мм, сверху 25 мм и снизу 20 мм). Электронная почта: **yadulla.hasanli@unec.edu.az; elmixeberler2018@gmail.com**

3. Должны быть указаны: название статьи; автор(ы); учёная степень, должность; структура (организация), где они работают; электронная почта; ORCID iD; номер мобильного телефона автора(ов) *(только для служебной связи; в статье не отображается)*. Абстракт (резюме) вместе с названием и данными авторов оформляется строго по шаблону, приложенному к Правилам, на трёх языках (AZ/EN/RU).

4. **Статья не должна быть меньше 10 страниц**, включая: резюме на (азербайджанском, английском и русском языках), ключевые слова (не более 5 слов на азербайджанском, английском и русском языках), введение, основную часть, выводы, источники, приложения, рисунки и таблицы.

5. Резюме статьи должно быть не более **200-250 слов**, показывать цель, значение и место исследования в научной периодике, используемые или формируемые методы, на какие вопросы отвечает и область применения, не должно быть написано, как введение и выводы.

6. Резюме статьи должно соответствовать ее содержанию.

7. В конце научной статьи должны быть четко отмечены научная новизна, практическая значимость, экономическая эффективность и т.д. работы в соответствии с характером научной области статьи.

8. В статье должны быть ссылки на научные источники. Предоставляемый в конце статьи список литературы должен быть пронумерован не в алфавитной последовательности, а в последовательности, в которой встречается в тексте ссылаемая литература и обозначаться как [1] или [1, стр.119]. Если в тексте есть повторная ссылка на одну и ту же литературу, то эта ссылаемая литература должна быть указана предыдущим номером.

9. В списке литературы должно быть отдано предпочтение научным статьям, монографиям и т.д. последних 5-10 лет.

10. Статьи должны быть оригинальны и ранее не представлены в другие национальные или международные журналы.

11. Статьи рекомендуются или представляются к печати редактором или одним из специалистов – членов редакционного совета, после тайного рецензирования рецензирующих.

12. Согласие или отказ в приеме статьи объявляется после ее обсуждения редакционным советом журнала.

Korrektor: Şəfiqə Zahid qızı Bağırova
Texniki redaktor: Arzu Məhəbbət qızı Səfərova

UNEC

AZƏRBAYCAN
DÖVLƏT
İQTİSAD
UNİVERSİTETİ

ISSN: 3105-076X (online); 2306-8426 (print)

https://journals.unec.edu.az/sr/